RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 17 (9472) 27 YANVAR 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# “Dəmir yumruğ”u AŞPA da hiss etdi



## Qərbin ermənipərəst dairələrinin riyakarlıqları qətiyyətlə cavablandırılır

Azərbaycan öz gücü ilə torpaqlarını işğaldan azad edib, ərazi bütövlüyünün bərpasına nail olub. Beləliklə, Azərbaycan həm də öz ərazilərində beynəlxalq hüququn norma və prinsiplərini, BMT qətnamələrinin icrasını təmin edib. Məntiqi baxımdan baş verənlər beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilməlidir və olduqca qürurvericidir ki, ötən dövrdə beynəlxalq ictimaiyyət Azərbaycanın qələbəsini və regionda yaranmış yeni reallıqları qəbul edib.

Bu reallıqları qəbul etmək istəməyən qərəzli siyasi dairələrin başında isə Fransa durur və bu ölkə Vətən müharibəsindən sonrakı davranışları ilə sübut elədi ki, keçmiş Minsk qrupunun həmsədri olduğu illərdə, əslində, Ermənistanın işğal siyasətinə dəstək verməklə məşğul olub. Fransanın Ermənistana işğal etdiyi Azərbaycan ərazilərində döyüş mövqelərini gücləndirmək üçün mühəndis-istehkam dəstəyi göstərdiyi də məlumdur. Son 3 ildə Paris ermənidən daha çox ermənilik edərək Azərbaycana qarşı məkrli əməllərlə məşğuldur. Qürurla deyə bilərik ki, Azərbaycan Fransanın bu riyakarlığının qarşısını BMT kimi mötəbər platformada qətiyyətlə alıb. Üstəlik, Azərbaycan Fransanın müstəmləkəçilik siyasətini qlobal müstəvidə qətiyyətlə ifşa edib. Bunun nəticəsi kimi həm də Fransanın müstəmləkəsi altında olan ərazilərdə xalqların öz müstəqillikləri uğrunda mübarizələri daha geniş vüsət alıb.

→ 4

## Azərbaycanın qələbəsi AŞPA-nı sarsıdıb

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Aİ-nin rolunu heçə endirməyə çalışan Borel Qarabağdan köçən ermənilərin də sayını utanıb-qızarmadan təhrif edərək "150 min"ə qədər qaldırdı...

Hər şey əvvəlcədən düşünülmüş plan əsasında aparılır. Məqsəd sülh danışıqlarına mane olmaqdır. Fransa öz çirkin niyyətinə çatmaq üçün ölkəmizə qarşı birmənalı olaraq həmişə qərəzi və fitnəkarlığı ilə seçilən AŞPA-nı da özünə yedək edib. Almaniyalı deputat Frank Şvabeni də öz oyunlarına alət edən Fransa Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun dondurulması təşəbbüsünü irəli sürüb. Heç şübhəsiz ki, Fransa prezidenti Emmanuel Makronun anti-Azərbaycan kampaniyasını Almaniyanın vasitəsilə genişləndirməyə çalışır. Görünən odur ki, Fransa və Avropadakı erməni lobbisi AŞPA-nı anti-Azərbaycan platformasına, Frank Şvabenin timsalında isə Almaniyanı muzdlu icraçıya çevirə bilib.

Aİ Azərbaycanı əsasən ermənilərin hüquqlarını pozmaqda ittiham edirdisə, AŞPA "fərqli" olaraq guya ölkəmizdə insan hüquqlarının pozulmasından narahat olub.

→ 4

## Azərbaycanın AŞPA-ya ehtiyacı yoxdur

### Həqiqətə "qara eynək"lə baxan təşkilatda təmsil olunmaq ölkəmiz üçün ciddi əhəmiyyət kəsb etmir

Azərbaycan bu qurumdakı fəaliyyəti dövründə qaldırılan məsələlərlə bağlı hər zaman ədalətli mövqe sərgiləyib, amma AŞPA ölkəmizə problem yaratmaqdan başqa heç nə etməyib. Qərbdəki anti-Azərbaycan qüvvələr bu qurumdan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb və bu gün də eyni siyasət yürüdürlər.

AŞPA-da Azərbaycanla bağlı faktlar təhrif olunmuş formada verilir, reallıqlara, həqiqətlərə "qara eynək"dən baxılır. İddia edirlər ki, Azərbaycanda keçiriləcək növbədənkənar seçkiləri müşahidə etmək üçün niyə Avropa Şurası dəvət edilməyib? Azərbaycan seçkilərdə müşahidəçi kimi iştirak etmək üçün hətta ən sərt mövqeyi ilə tanınan beynəlxalq qurumları da dəvət edib, lakin 23 il müddətində həqiqi üzvü olduğu, buna qədər də daim seçki müşahidələri aparan komandalarını məmnuniyyətlə qəbul etdiyi Avropa Şurasından bu dəfə imtina edib.

→ 4

## Uğurlarımızı həzm edə bilməyən AŞPA

AŞPA-nın qərəzli yanaşmasından sonra Azərbaycan nümayəndə heyəti haqlı olaraq bu qurumla əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Sözsüz ki, AŞPA-nın bu təşəbbüsü Qərbin anti-Azərbaycan qüvvələrinin belə qurumlardan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etmək niyyətinin ifadəsidir.

AŞPA-nın və bu kimi digər qurumların əsas öhdəliklərindən biri də Qarabağ məsələsinin həllinə nail olmaqdan, 30 ilə yaxın işğala, vandalizmə məruz qalan xalqımızın hüquqlarını bərpa etməkdən ibarət olduğu halda, bölgədə gərginlik yaratmaları, heç bir əməli addım atmamaları onların erməni lobbisinin diktəsi ilə hərəkət etdiklərindən xəbər verir. Ədalətsiz mövqe sərgiləyən AŞPA kimi qurumların susqunluğu Azərbaycanı ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etmək məcburiyyətində qoydu.

→ 5

## Fransa çirkli pulları yumaq üçün Ermənistanı "camaşırxana"ya çevirmək istəyir

Bakı-Paris münasibətlərindəki son gərginliyin səbəblərindən biri də Fransa Senatının Azərbaycan əleyhinə növbəti dəfə qətnamə qəbul etməsi oldu. Senat üzvləri həyasızcasına Azərbaycanı "Qarabağa hərbi təcavüz etməkdə", ermənilərə qarşı "etnik təmizləmə" həyata keçirməkdə ittiham etdilər. Azərbaycanın bu həyasızlığa və uydurmaya qarşı haqlı cavabı özünü çox gözlətmədi. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat yaydı. Bəyanatda Fransa Senatının qətnaməsini qərəzli, birtərəfli və əsassız adlandırdı.

Gün kimi aydındır ki, Fransanın regional məsələlərə yanaşması tamamilə ermənipərəst xarakter daşıyır.

→ 5

## Azərbaycanın qələbəsi AŞPA-nın ölkəmizə olan qərəzli və kinli siyasətini üzə çıxardı

AŞPA-nın əsas məqsədi müxtəlif dövlətlərin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdır. İnsan haqlarını və qanunun aliliyini müdafiə etmək öhdəliyi olan bu təşkilat 1987-1991-ci illərdə Qərbi Azərbaycandakı tarixi yurdlarından soyqırımı yolu ilə deportasiyaya məruz qalmış 300 mindən çox azərbaycanlının geri qayıdış hüquqlarını müdafiə etmədi, onların qaçqınlıq taleyi və aqibəti haqqında hər hansı bir iş görmədi. Həmçinin bu istiqamətdə Ermənistan dövlətinə təzyiq və təsir də göstərmədi.

AŞPA-nın keçmiş münaqişəyə bu qədər biganə yanaşması onlara olan ümid və gözləntiləri də puç etdi, həmçinin nüfuzuna da xələl gətirdi.

→ 5

## Avstraliya İttifaqının General-Qubernatoru zati-aliləri cənab Devid Con Hörliyə

Hörmətli cənab General-Qubernator!

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Avstraliya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2024-cü il*

## Seçkiləri rekord sayda QHT təmsilçisi müşahidə edəcək

**Fevralın 7-də keçiriləcək prezident seçkilərinin şəffaflığının təmin edilməsində qeyri-hökumət təşkilatları (QHT) yaxından iştirak edirlər, onların seçki müşahidəçisi kimi müraciətlərində yüksək fəallıq qeydə alınıb.**

"Secki-2024.az" xəbər verir ki, artıq ölkədə fəaliyyət göstərən QHT-ləri, vətəndaş cəmiyyəti institutlarını, ictimai birlikləri təmsil edən 6045 nəfərə prezident seçkilərini izləmək üçün müşahidəçilik vəsiqəsi təqdim olunub.

Müqayisə üçün bildirək ki, seçki günü respublikanın bütün ərazisində müşahidə aparacaq QHT-lərin sayı bu dəfə 2018-ci ildə keçirilmiş prezident seçkiləri ilə müqayisədə təxminən 4 dəfə artıb. Müşahidə prosesinə qoşulacaq QHT-lərin sayında da rekord göstərici qeydə alınıb. Belə ki, hazırkı prezident seçkilərinin birbaşa izlənilməsinə qatılan bu kateqoriyadan olan müşahidəçilər ümumilikdə 78 qeyri-hökumət təşkilatını əhatə edir.

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Yanvarın 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə komissiyanın 15 yanvar, 18 yanvar və 20 yanvar 2024-cü il tarixli iclaslarının protokolları təsdiq olunub.

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində "exit-poll" keçirilməsi niyyəti ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ("Oracle Advisory Group" (Amerika Birləşmiş Ştatları) ilə birgə)", "Rəy" Monitorinq Mərkəzi və "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC tərəfindən Mərkəzi Seçki Komissiyasına ünvanlanan müraciətlərə baxılıb. Komissiya üzvləri və iclas iştirakçıları bununla bağlı ətraflı məlumatlandırıldıqdan və aparılan geniş müzakirələrdən sonra sözügedən qurumların müraciətlərinin təmin edilməsinə və prezident seçkilərində "exit-poll" keçirmək üçün qeydə alınmalarına qərar verilib.

İclasda daha sonra Mərkəzi Seçki Komissiyasının qərarı ilə seçkilərdə qeydə alınmış namizəd tərəfindən təqdim olunan vəkil edilmiş şəxslər qeydə alınıb.

Beynəlxalq müşahidəçilər, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media nümayəndələrinin iştirak etdiyi iclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər də edilib, həmçinin cari məsələlərə baxılıb.

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761,№ 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12(I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, №8, maddə 828, № 12, maddə 1374;2023, № 1, maddələr 23, 40, № 2, maddə 207, № 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda7.0.8-1-ci maddə əlavə edilsin:

"7.0.8-1.cinayət təqibi üzrə qiyabi icraat -məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;".

2. 53-cü maddə üzrə:

2.1. 53.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cinayət təqibi üzrə icraat dayandırıldıqdan sonra ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün prosessual hərəkətlərin həyata keçirilməsi zərurəti yarandıqda, cinayət təqibi üzrə icraat təzələnir və həmin prosessual hərəkətlər başa çatdırıldıqdan sonra yenidən dayandırılır.";

2.2. 53.7-ci maddəyə "əleyhinə" sözündən sonra", terrorçuluq, terrorçuluğu maliyyələşdirmə" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda IV-I fəsil əlavə edilsin:

**"IV-I fəsil**

**Prosessual sənədlərin rəsmi qaydada verilməsi**

**Maddə 54-1. Prosessual sənədlərin çatdırılması**

54-1.1. Bu Məcəllənin 54-1.5-ci və 54-1.6-cı maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, prosessual sənədlər "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda prosessual sənədlərin çatdırılması təhqiqatçı və ya müstəntiq tərəfindən həyata keçirilə bilər, habelə təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən təhqiqat orqanına, eləcə dəcinayət prosesini həyata keçirən müvafiq orqan tərəfindən öz əməkdaşlarına həvalə edilə bilər.

54-1.2. Prosessual sənədonu göndərən orqana qaytarılmalı olan, forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış prosessual sənəd müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Prosessual sənədin rəsmi qaydada verilməsi cinayət prosesini həyata keçirən orqanda da həyata keçirilə bilər.

54-1.3. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxslər bunu həmin prosessual sənədi aldıqları vaxtdanbir gündən gec olmayaraq yerinə yetirməli və bu barədə cinayət prosesini həyata keçirən orqana xəbər verməlidirlər.

54-1.4. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənəd ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə prosessual sənədi qəbul etmiş şəxs qəbzdə və ya sənədin kötüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və həmin sənədi mümkün olan ən qısa müddətdə ünvan sahibinə verməlidir.

54-1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə prosessual sənədlərin çatdırılması bu Məcəllənin 51-1-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

54-1.6. Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin bu Məcəllənin 54-1.1-54-1.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanıvasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir.

54-1.7. Tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətləri bu Məcəllənin 161.1.7-ci maddəsində nəzərdə tutulmuş qaydada həbs yerlərinin müdiriyyəti tərəfindən onlara çatdırılmalıdır.

54-1.8. Bu Məcəllənin 54-1.2-ci, 54-1.4-cü, 54-1.5-ci və 54-1.7-ci maddələrində, habelə prosessual sənədin şəxsə çatdırılması barədə yazılı məlumat cinayət prosesini həyata keçirən orqana daxil olduğu təqdirdə bu Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.

**Maddə 54-2. Çağırış vərəqəsi**

54-2.1. Çağırış vərəqəsində aşağıdakı məlumatlar göstərilməlidir:

54-2.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.), təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, vəzifəsi və imzası;

54-2.1.2. çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-2.1.3. çağırışa gəlmənin vaxtı (tarix və saat) və yeri;

54-2.1.4. şübhəli və ya təqsirləndirilən şəxsə münasibətdə şübhənin və ya ittihamın mahiyyəti;

54-2.1.5. bu Məcəllənin müvafiq maddələrinə istinad edilməklə çağırılan şəxsin prosessual hüquq və vəzifələrinin izahı;

54-2.1.6. çağırış vərəqəsi üzrə gəlməmənin nəticələri barədə məlumat, o cümlədən çağırılan şəxsin bu Məcəllənin 178.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda cinayət prosesini həyata keçirən orqana məcburi gətiriləcəyi barədə xəbərdarlıq;

54-2.1.7. təqsirləndirilən şəxsə onun barəsindəbu Məcəllə ilə müəyyən edilmiş hallarda qiyabi icraatın açıla biləcəyi və qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi barədə xəbərdarlıq, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatların cinayət prosesini həyata keçirən orqana göndərməli olduğu barədə məlumat.

54-2.2. Çağırış vərəqəsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

54-2.3. Çağırış vərəqəsində vaxt müəyyən edilərkən çağırılan şəxsin cinayət prosesini həyata keçirən orqana vaxtında gələ bilmə imkanı nəzərə alınmalıdır.

54-2.4. Çağırılan şəxsin xahişi ilə çağırışın tarixi və vaxtı dəyişdirilə bilər.

54-2.5. Çağırılan şəxs çağırışa gəlmədikdə bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilə bilər. Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir. Bu halda cinayət prosesini həyata keçirən orqan çağırılan şəxsin iştirak edə biləcəyi tarix və vaxtı nəzərə almaqla yeni çağırış tarixi və vaxtı müəyyən edir.

54-2.6. Şəxs telefon,videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıla bilər. Bu halda çağırılan şəxsə çağırış vərəqəsinin bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məzmunu, o cümlədən çağırılan şəxsin hüquq və vəzifələri izah edilir və bu barədə protokol tərtib olunur. Şübhəli və ya təqsirləndirilən şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıldıqda həmin şəxs qabaqcadan xəbərdar olunmaqla onun səsinin qeyd edilməsi təmin olunmalı, bu protokollaşdırılmalı və müvafiq elektron daşıyıcı protokola əlavə edilməlidir.

54-2.7. Həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

54-2.8. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.

**Maddə 54-3. Qəbzin məzmunu**

54-3.1. Bu Məcəllənin 54-1.2-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:

54-3.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, atasının adı, vəzifəsi;

54-3.1.2. prosessual sənədlərin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-3.1.3. prosessual sənədin adı;

54-3.1.4. prosessual sənədin verilmə vaxtı (tarix və saat), yeri, qəbul edən şəxsin soyadı, adı, atasının adı və imzası;

54-3.1.5. prosessual sənədin verilməməsinin səbəbləri;

54-3.1.6. ünvan sahibi olmadığı təqdirdə prosessual sənədin verildiyi şəxsin onu mümkün olan ən qısa müddətdə ünvan sahibinə vermək vəzifəsinə dair qeyd və onun imzası;

54-3.1.7. prosessual sənədin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.

**Maddə 54-4. Prosessual sənədləri qəbul etməkdən imtina**

Ünvan sahibi və ya digər şəxs prosessual sənədi qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya iş yerinin müdiriyyətinin iştirakı ilə prosessual sənədin verilməməsinin səbəblərinə dair müvafiq qeydlər etdikdən sonra onu cinayət prosesini həyata keçirən orqana qaytarır. Bu halda prosessual sənəd rəsmi qaydada verilmiş hesab olunur.".

4. 91.5.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.5.43-cü maddə əlavə edilsin:

"91.5.43. cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda:

91.5.43.1. çağırış vərəqəsini, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərarı, habelə cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarını bu Məcəllənin 54-1-54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada almaq (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla);

91.5.43.2. cinayət təqibi üzrə qiyabi icraatda müdafiəçisi vasitəsilə təmsil olunmaq;

91.5.43.3. cinayət işinin materialları ilə tanış olmaq, istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə dair vəsatətlər vermək;

91.5.43.4. cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarı ilə bağlı bu Məcəllənin 467-17-ci maddəsində nəzərdə tutulmuş qaydada ərizə verərək, onun ləğv edilməsi və cinayət işinə yenidən baxılmasını tələb etmək.".

5. 92-ci maddə üzrə:

5.1. aşağıdakı məzmunda 92.3.15-1-ci maddə əlavə edilsin:

"92.3.15-1. məhkəməyədək icraat zamanı cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda;";

5.2. 92.3.16-cı maddədə "Məcəllədə" sözü "Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

5.3. 92.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.4.9-cu maddə əlavə edilsin:

"92.4.9. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən - bu Məcəllənin 92.3.15-1-ci maddəsində nəzərdə tutulmuş halda.".

6. 151-ci maddə üzrə:

6.1. adına, 151.4-cü maddəyə və 151.5-ci maddənin birinci cümləsinə "təqsirləndirilən" sözündən əvvəl "şübhəlivə ya" sözləri əlavə edilsin;

6.2. 151.1-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin.

7. 214.3-cü maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

8. 226-cı maddə ləğv edilsin.

9. 272.2-ci maddədə "226" rəqəmləri "54-1 - 54-4" rəqəmləri ilə əvəz edilsin.

10. 278-ci maddə üzrə:

10.1. adında, 278.1-ci və 278.3-cü maddələrdə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin;

10.2. 278.2-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin və həmin maddəyə "olmadıqda" sözündən sonra ", yaxud şübhəli" sözləri əlavə edilsin;

10.3. 278.4-cü maddəyə "təqsirləndirilən" sözündən əvvəl "şübhəli və ya" sözləri əlavə edilsin.

11. Aşağıdakı məzmunda 290.3.3-1-ci maddə əlavə edilsin:

"290.3.3-1. cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq;".

12. 299-cu maddə üzrə:

12.1. 299.9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"299.9.2. cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmamaq şərtilə böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdıqda;";

12.2. aşağıdakı məzmunda 299.9.3-cü maddə əlavə edilsin:

"299.9.3. bu Məcəllənin 467-13.1-ci maddəsində nəzərdə tutulmuş halda.".

13. 301-ci maddə üzrə:

13.1. 301.2.10-cu maddədə "qanunla işə qiyabi baxılmasına yol verildiyi" sözləri "bu Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

13.2. 301.5-ci maddənin ikinci cümləsində "226-cı maddəsində" sözləri "54-1 - 54-4-cü maddələrində" sözləri ilə əvəz edilsin.

14. 311.2-ci maddə aşağıdakı redaksiyadaverilsin:

"311.2. Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına yalnız bu Məcəllənin 299.9.2-ci və 299.9.3-cü maddələrində nəzərdə tutulmuş hallarda yol verilir.".

15. 317.1-ci maddənin birinci cümləsində "226.1 - 226.3-cü" sözləri"54-1 - 54-4-cü" sözləri ilə əvəz edilsin.

16. 442.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 442.2.3-cü maddə əlavə edilsin:

"442.2.3. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə vəsatət və təqdimatlara.".

17. 446-cı maddə üzrə:

17.1. adına, 446.1-ci maddənin birinci abzasına, 446.2.4-cü, 446.2.5-ci və446.2.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

17.2. aşağıdakı məzmunda 446.1.2-2-ci maddə əlavə edilsin:

"446.1.2-2.cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;";

17.3. 446.2.6-cı maddəyə və 446.4-cü maddənin birinci cümləsinə "edilməsinin" sözündən sonra", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin;

17.4. 446.3-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması," sözləri əlavə edilsin.

18. 447-ci maddə üzrə:

18.1. adına, 447.1-ci və 447.5 - 447.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

18.2. 447.3-cü maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri ilə əvəz edilsin.

19. 448-ci maddə üzrə:

19.1. adına və 448.1-ci maddənin birinci abzasına"tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

19.2. 448.1.3-1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.3-2-ci maddə əlavə edilsin:

"448.1.3-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya bundan imtina edilməsi barədə.";

19.3. 448.4-cü maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri əlavə edilsin;

19.4. aşağıdakı məzmunda 448.6-2-ci maddə əlavə edilsin:

"448.6-2. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi bu Məcəllənin 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

19.5. 448.8-ci maddəyə "edilməsinə" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri, "edilməsinin" sözündən sonra ",cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin.

20. 454-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin.

21. 466.6-cı maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

22. Aşağıdakı məzmunda LIV-II fəsil əlavə edilsin:

**"LIV-II fəsil**

**Cinayət təqibi üzrə qiyabi icraat**

**Maddə 467-12. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri**

467-12.1. Cinayət təqibi üzrə qiyabi icraat bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır.

467-12.2. Cinayət təqibi üzrə qiyabi icraat aparıldıqda bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

467-12.3. Məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılır.

467-12.4. Barəsində cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılır.

467-12.5. Yetkinlik yaşına çatmayan şəxslər barəsindəcinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir.

**Maddə 467-13. Cinayət təqibi üzrə qiyabi icraatın açılması**

467-13.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100-119, 137, 144-145, 178, 179,182, 193-1, 204, 205, 206, 206-1, 208, 214-219-1, 228,274-283-1, 308-314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

467-13.2. Təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1- 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də bu Məcəlləvə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür.

467-13.3. Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1-54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasını həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir.

467-13.4. Bu Məcəllənin 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla)ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir.

467-13.5. Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun bu Məcəllənin 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur.

467-13.6. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmıştəqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur.Vəsatətə bu Məcəllənin 442-454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır.

467-13.7. Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumat olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir.

467-13.8. Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittihamtərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir.

467-13.9. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər.

467-13.10. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:

467-13.10.1. təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;

467-13.10.2. təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;

467-13.10.3. təqsirləndirilən şəxsin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.

467-13.11. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraqvəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir.

**Maddə 467-14. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-14.1. Müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı qəbul edir.

467-14.2. Bu Məcəllənin 467-14.1-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldığı vaxtdan cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir.

467-14.3. Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bu barədə protokol tərtib edir və onu bu Məcəllənin 284 - 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir.

467-14.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə bu Məcəllənin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır.

467-14.5. Bu Məcəllənin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.

**Maddə 467-15. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-15.1. Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada aparılır.

467-15.2. Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir və onun bu Məcəllənin 284-286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir.

467-15.3. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:

467-15.3.1. təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;

467-15.3.2. cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.

467-15.4. Bu Məcəllənin 467-15.3-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər.

**Maddə 467-16. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması**

467-16.1. Qiyabi hökm və ya digər yekun qərar bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir.

467-16.2. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür.

**Maddə 467-17. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi**

467-17.1. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.

467-17.2. Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir.

467-17.3. Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır.

467-17.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədəərizəvermәzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.

467-17.5. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə, həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə bu Məcəllənin 298 - 307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür.".

23. Aşağıdakı məzmunda 519.4-cü maddə əlavə edilsin:

"519.4. Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsində və 54-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.3. həmin Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Məcəllənin 54-2.2-ci maddəsinə uyğun olaraq, cinayət prosesini həyata keçirən orqana çağırış vərəqəsinin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 yanvar tarixli 2448 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. beşinci abzasda "131-1.4-cü maddəsində" sözləri "54-1.2-ci maddəsinin birinci cümləsində, 54-2.2, 131-1.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. doqquzuncu abzasa "438.3" rəqəmlərindən əvvəl "54-1.6," rəqəmləri əlavə olunsun və həmin abzasda "müvafiq icra hakimiyyəti orqanları"nın" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin;

3.3. səkkizinci - iyirmi ikinci abzaslar müvafiq olaraq doqquzuncu - iyirmi üçüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2024-cü il*

## İqtisadi Şuranın cari ildə ilk iclası keçirilib



Yanvarın 26-da Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Şuranın cari ildə ilk iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2023-cü ilin sosial-iqtisadi inkişaf göstəriciləri, İqtisadi Şuranın 2024-cü il üzrə Fəaliyyət Planı, vergi və gömrük sahələrində verilmiş güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsinin nəticələri və qiymətləndirilmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasının suveren kredit reytinqinin artırılması perspektivləri, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2023-cü il üzrə fəaliyyət hesabatı və onun 2024-cü il üçün Fəaliyyət Planı və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun, maliyyə nazirinin müavini Azər Bayramovun, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib.

Sonda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul edilib və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Avropa Şurasına üzv dövlətlərin parlament sədrlərinə məktub ünvanlayıb

**Yanvarın 26-da Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin Avropa Şurası Parlament Assambleyasında (AŞPA) təmsil olunan nümayəndə heyətinin AŞPA-nın qış sessiyası zamanı üzləşdiyi əsassız ittihamlar barədə Avropa Şurasına üzv dövlətlərin parlament sədrlərinə məktub ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin mahiyyətinə toxunulur. Bildirilir ki, Azərbaycan Respublikası 2001-ci ildə ölkədə insan hüquqlarını və qanunun aliliyini daha yaxşı təbliğ etmək və müdafiə etmək niyyəti ilə Avropa Şurasına üzv olmuşdur. Ölkəmizin fundamental insan hüquqlarının və qanunun aliliyinin müdafiəsi üçün yaradılmış bu qurumla dialoq və əməkdaşlıq vasitəsilə üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirmək istiqamətində göstərdiyi səylər diqqətə çatdırılır.

Qeyd olunur ki, bu müddət ərzində ölkəmizin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktına, bu ərazilərdə aparılan etnik təmizləmə siyasətinə, yüz minlərlə azərbaycanlı qaçqın və məcbur köçkünün pozulmuş hüquqlarına Avropa Şurasının biganə qalmayacağına dair gözləntiləri puç olmuşdur. Azərbaycan hər zaman regionumuzda davamlı sülhə nail olmaq üçün Avropa Şurası və onun qurumlarının köməyi və dəstəyi ilə ədalətin siyasi mülahizələrə qələbə çalaraq üstün olacağına ümid edib. Məhz Azərbaycan öz ərazilərinin 30 ilə yaxın davam edən işğalına baxmayaraq, münaqişənin sülh yolu ilə həlli prosesində iştirak etməyə davam etməklə bu istiqamətdə səylərini əsirgəməyib, eyni zamanda Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə böyük əhəmiyyət verib.

Məktubun mətnində bildirilir ki, bu gün təcavüzkarla qurbana münasibətdə süni tarazlığın mövcud olduğu Avropa Şurasında fundamental dəyərlərin tənəzzülü təəssüf doğurur. Eyni zamanda azərbaycanlıların etnik təmizləmə siyasətinin qurbanı olması, onların əsas hüquqlarının pozulması faktına qurum çərçivəsində uzun illər ərzində göz yumulub, bu məsələ ilə bağlı Azərbaycanla müxtəlif səviyyələrdə əsaslı dialoqdan yayınılıb.

Qeyd olunur ki, bu yanaşmaya rəğmən, Azərbaycan hər zaman Avropa Şurası Parlament Assambleyasının bir sıra üzvləri və müxtəlif qruplaşmalardan gələn qərəzli və əsassız təzyiqlərə qarşı mübarizə aparıb. Məktubda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bu dəfə də parlament nümayəndə heyətimizin AŞPA-dakı səlahiyyətlərinin "əsaslı" səbəblərdən mübahisələndirilməsi kimi növbəti riyakar kampaniya ilə üzləşdiyi bildirilir. Qeyd olunur ki, göstərilən səbəblər həqiqəti əks etdirmir, heç bir əsası yoxdur.

Eyni zamanda bildirilir ki, bu addım Azərbaycanın Avropa Şurası və onun qurumları ilə indiyə qədər həyata keçirdiyi əməkdaşlığa, habelə son razılaşmalara da kölgə salır. Ölkəmiz Avropa Şurasına üzv olduğu vaxtdan qurumun 65-ə yaxın sazişinə qoşulmuş, insan hüquqlarının bərabər şərtlərlə daha səmərəli müdafiəsi üçün milli qanunvericiliyini Avropa Şurasının standartlarına uyğunlaşdırmışdır. Azərbaycan təşkilatın qurumları ilə sıx əməkdaşlıq edir. Məktubda bundan başqa, ölkəmizin Avropa Şurası ilə insan alverinə və məişət zorakılığına qarşı mübarizə, habelə uşaqların müdafiəsi sahələrində də əməkdaşlığı qeyd olunub. Azərbaycanın Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyətlərarası dialoqun təşviqi üzrə Bakı Prosesi kimi tanınan ilk əməkdaşlıq platformasının təşəbbüskarı olduğu bildirilib.

Məktubda nəzərə çatdırılır ki, parlament nümayəndə heyətimizin səlahiyyətlərinin Azərbaycanın qurumla əməkdaşlığı çərçivəsində, Avropa Şurasının insan hüquqları üzrə komissarının və baş katibinin ölkəmizə yüksək səviyyəli səfərlərinin, eləcə də milli azlıqların müdafiəsi üzrə Çərçivə Konvensiyasının məşvərət komitəsi ilə davam edən əməkdaşlığı fonunda mübahisələndirilməsi faktı iddianın əsassız, siyasi motivli və qərəz xarakterli olduğunun sübutudur. AŞPA üzvləri tərəfindən Azərbaycana qarşı irəli sürülən ittihamlar digər beynəlxalq qurumların, əsasən də bu yaxınlarda Azərbaycana səfər etmiş Avropa Şurasının təmsilçilərinin birbaşa müşahidələrini və gəldikləri nəticələri əks etdirmir.

Məktubda vurğulanır ki, qeyd olunan faktları və AŞPA-nın bəzi üzvlərinin mövqeyini nəzərdən keçirdikdən sonra biz bu addımı qətiyyətlə rədd edirik. Azərbaycana qarşı qeyd olunan son dərəcə məsuliyyətsiz davranışa etiraz olaraq Azərbaycan Respublikası Milli Məclisinin Parlament Assambleyasında iştirakını dayandırmaqdan başqa çarəsi qalmamışdır. Bu akt bütövlükdə Azərbaycana qarşı qərəzli və ikili standartların açıq təzahürüdür, eyni zamanda Assambleyanın və bütövlükdə Şuranın nüfuzuna ciddi zərbədir.

Bildirilib ki, bu münasibət Azərbaycan nümayəndə heyətinin AŞPA ilə qarşılıqlı əməkdaşlığını qeyri-mümkün edir və bununla da müxtəlif ölkələrdən olan parlamentarilər arasında dialoq platforması kimi xidmət etmək üçün nəzərdə tutulan bu orqanın əsas məqsəd və məramını pozur. Təəssüf ki, bu vəziyyət Avropa Şurasının bölgəmizlə əlaqəli məsələlərdən, o cümlədən təşkilatın mandatı ilə birbaşa bağlı olan fəaliyyətlərdən daha da təcrid olunmasına səbəb olacaq.

Məktubun sonunda bildirilir ki, AŞPA-da müxtəlif mexanizmlərdən siyasi təzyiq vasitəsi kimi istifadə edilməsinə yönəlmiş belə tendensiya onun qərəzsizliyini və inklüzivliyini təhdid edir və belə davam edəcəyi təqdirdə Avropa Şurasının bütün fəaliyyətinin tam siyasiləşməsi və qütbləşməsi ilə nəticələnəcək.

***"Azərbaycan"***

## Hikmət Hacıyev Mövlud Çavuşoğlu və Fəxrəddin Altuna ölkəmizə haqsızlığa qarşı göstərdikləri qəti mövqeyə görə təşəkkür edib



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin keçmiş xarici işlər naziri, Türkiyə parlamentinin NATO-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğluya və Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altuna AŞPA-da ölkəmizə haqsızlığa qarşı qəti və birmənalı mövqe göstərdiklərinə görə təşəkkür edib.

AZƏRTAC Hikmət Hacıyevin bununla bağlı X sosial şəbəkə hesabındakı hər iki paylaşımını təqdim edir:

"Dəyərli Mövlud bəy, PACE-də (AŞPA - red.) Azərbaycana qarşı olan haqsızlıqla bağlı ifadə etdiyiniz qəti və birmənalı mövqeyinizə görə Sizə təşəkkür edirəm. Siz həmişə Azərbaycanın yanında olmusunuz! Tezliklə Sizi Azərbaycanda görmək arzusu ilə".

Digər paylaşımda isə Fəxrəddin Altuna müraciətlə deyilir: "Dəyərli və əziz qardaşım, daim Azərbaycana verdiyiniz dəstəyinizə görə təşəkkür edirəm. Hər zaman şəxsən və İletişim Başkanlığı olaraq heyətiniz ilə birlikdə Azərbaycanın yanında olmusunuz".

Qeyd edək ki, Mövlud Çavuşoğlu və Fəxrəddin Altun AŞPA-da ölkəmizə haqsızlığa qarşı qəti və birmənalı mövqe göstəriblər. AŞPA-nın Azərbaycana qarşı qərarının qeyri-obyektiv və qeyri-konstruktiv olduğunu bildirən Mövlud Çavuşoğlu yazıb: "Mən çox təəssüf edirəm ki, AŞPA Azərbaycan nümayəndə heyətinin üzvlərinin etimadnaməsini təsdiq etməyib. Bu, həqiqətən də, AŞPA-nın reputasiyasına ağır zərbədir.

Ümid edirəm ki, Avropa Şurasının təsis prinsiplərinə əsaslanan əməkdaşlıq və dialoqa üstünlük verməyən, regionda sülh və sabitliyə xidmət etməyən bu qərar ləğv ediləcək. AŞPA bu səhvi tez bir zamanda düzəltməlidir".

Fəxrəddin Altun isə sosial şəbəkə hesabında bildirib ki, Türkiyə dezinformasiya ilə mübarizə sahəsində Azərbaycanın haqlı mübarizəsinə dəstək verməyə davam edəcək. O qeyd edib ki, bu məsələdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə koordinasiyalı şəkildə çalışır: "Bizim üçün dost və qardaş ölkə Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırmaq və paylaşılan yalan xəbərləri ifşa etmək çox vacib, təməl məsələdir. Bu, həm qardaşlığımızın göstəricisi, həm də həqiqətin təzahürüdür".

O, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin məruz qaldığı ittihamları şərh edərək vurğulayıb ki, həm Azərbaycan, həm də Türkiyə bu gün müxtəlif platformalarda dezinformasiya və qaralama kampaniyasına məruz qalır.

"Biz bu dezinformasiyaya qarşı və həqiqət uğrunda mübarizə aparmağa birlikdə davam edəcəyik", - Fəxrəddin Altun əlavə edib.

## Azərbaycanın xarici işlər nazirinin argentinalı həmkarı ilə telefon danışığı olub

**Yanvarın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Argentinanın xarici işlər, beynəlxalq ticarət və ibadət üzrə naziri Diana Mondino arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı ilk öncə nazir Ceyhun Bayramov nazir Mondinoya yüksək vəzifəyə təyinatı münasibətilə təbriklərini çatdırıb və ona fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycanla Argentina arasında münasibətlərin cari vəziyyəti və perspektivləri müzakirə edilib, ölkələr arasında siyasi məsləhətləşmələrin əhəmiyyəti qeyd olunub. Azərbaycan-Argentina ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun işinin intensivləşməsi, növbəti görüşə hazırlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, kənd təsərrüfatı, alternativ enerji, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün potensialın mövcudluğu, bununla yanaşı, ötən il ölkələr arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd edilməsi və birgə tədbirlərin keçirilməsi məmnunluqla vurğulanıb.

Ölkəmizin bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyinin böyük əhəmiyyət daşıdığı, tədbirin ölkələrimiz arasında yüksək səviyyəli təmaslar üçün vacib platforma olacağı qeyd edilib.

Telefon danışığı zamanı digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 39** **QƏRAR** **Bakı şəhəri, 24 yanvar 2024-cü il**

### "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 6 sentyabr tarixli 205-24 nömrəli və "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 oktyabr tarixli 296-14 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 173-13 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 406 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2344 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1560; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 100 nömrəli və 2023-cü il 11 dekabr tarixli 450 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada verilsin (əlavə olunur, məxfi).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## "Dəmir yumruğ"u AŞPA da hiss etdi

### Qərbin ermənipərəst dairələrinin riyakarlıqları qətiyyətlə cavablandırılır

Azərbaycan özünün qətiyyətli, müstəqil siyasəti olan dövlətdir və heç bir xarici təzyiq, təhdid, yaxud diktə ona təsir edə və ya öz yolundan döndərə bilməz. Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırması da ilk növbədə dövlətimizin qətiyyətli siyasətindən xəbər verir. Bu addım göstərdi ki, istənilən riyakarlığın qarşısında Azərbaycan layiqli adekvat cavab verməyi bacaran dövlətdir.




#### Bütün məkrli addımlar bir-biri ilə əlaqəlidir

Ümumiyyətlə, AŞPA-da Azərbaycana qarşı edilən ədalətsizliyə bu qurumun ölkəmizlə bağlı iddiaları prizmasından baxılmalı deyil. Bu təşkilatın respublikamızla bağlı indiyədək hazırladığı bütün hesabatların yalnız və yalnız qərəzli, böhtan dolu yalanlardan ibarət olduğu ötən 23 ildə dəfələrlə öz təsdiqini tapıb. Azərbaycana qarşı "siyasi məhbus", korrupsiya ittihamları irəli sürən AŞPA bununla bağlı bir fakt belə ortaya qoya bilməyib. Bu qurumun dövlət orqanlarının məlumatlarına deyil, antiazərbaycançı qrupların əlaltıları olan ünsürlərin uydurmalarına əsaslanaraq hazırladığı hesabatlar da ölkəmizə qarşı iftiradan başqa bir şey olmayıb. Azərbaycanı insan hüquqlarını pozmaqda ittiham etmək isə gülünc doğurmaqla yanaşı, həm də bütün dəyərləri itirmək deməkdir.

Bu mənada AŞPA-nın "insan hüquqları" adı altında Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiq etməməsi və onun səsvermə hüququnu məhdudlaşdırması riyakar bəhanədən başqa bir şey deyil. O cümlədən prezident seçkilərini izləməyə AŞPA-nın dəvət olunmaması da bəhanədir. Çünki Azərbaycanın AŞPA-nı seçkilərə dəvət etməsi kimi öhdəliyi yoxdur. Əsas seçki izləyən institut olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosudur ki, onun da təmsilçiləri seçkiləri müşayiət edəcəklər.

Bu addımı ilə AŞPA Vətən müharibəsindəki qələbəmizə və Qarabağda erməni separatizminə son qoyulmasına görə sadəcə Azərbaycandan erməni lobbisinin sifarişi ilə qisas almaq istəyir. Nəzər yetirsək görərik ki, AŞPA-nın bu çirkin addımı Fransa senatının Azərbaycana qarşı qətnamə qəbul etməsi, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borelin Azərbaycana qarşı çıxışı ilə bir vaxta təsadüf edir. AŞPA-nın bu qərəzi ölkəmizə qarşı erməni lobbisinin sifarişi ilə başlanmış "səlib yürüşü"nün tərkib hissəsidir.

Azərbaycana qarşı müxtəlif siyasi mərkəzlərdə atılan bütün məkrli addımların hamısı bir-biri ilə əlaqəlidir. Ötən ilin oktyabrında "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edərək lokal xarakterli antiterror əməliyyatlarını hərbi əməliyyatlar kimi qiymətləndirərək açıq-aşkar Azərbaycanı təhdid etmişdi. Azərbaycanın bu quruma üzv olduğu 2001-ci ildən sonra ərazilərimizin işğalına, 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün düşməsinə görə bircə dəfə də olsun Ermənistanı sərt şəkildə tənqid etməyən AŞPA-nın indi Azərbaycana qarşı bu cür davranması bu təşkilatın erməni lobbisinin alətinə çevrildiyini göstərir.

#### Antiazərbaycançı planlar alt-üst edilib

Azərbaycan öz gücü ilə torpaqlarını işğaldan azad edib, ərazi bütövlüyünün bərpasına nail olub. Beləliklə, Azərbaycan həm də öz ərazilərində beynəlxalq hüququn norma və prinsiplərini, BMT qətnamələrinin icrasını təmin edib. Məntiqi baxımdan baş verənlər beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilməlidir və olduqca qürurvericidir ki, ötən dövrdə beynəlxalq ictimaiyyət Azərbaycanın qələbəsini və regionda yaranmış yeni reallıqları qəbul edib.

Bu reallıqları qəbul etmək istəməyən qərəzli siyasi dairələrin başında isə Fransa durur və bu ölkə Vətən müharibəsindən sonrakı davranışları ilə sübut elədi ki, keçmiş Minsk qrupunun həmsədri olduğu illərdə, əslində, Ermənistanın işğal siyasətinə dəstək verməklə məşğul olub. Fransanın Ermənistana işğal etdiyi Azərbaycan ərazilərində döyüş mövqelərini gücləndirmək üçün mühəndis-istehkam dəstəyi göstərdiyi də məlumdur. Son 3 ildə Paris ermənidən daha çox ermənilik edərək Azərbaycana qarşı məkrli əməllərlə məşğuldur. Qürurla deyə bilərik ki, Azərbaycan Fransanın bu riyakarlığının qarşısını BMT kimi mötəbər platformada qətiyyətlə alıb. Üstəlik, Azərbaycan Fransanın müstəmləkəçilik siyasətini qlobal müstəvidə qətiyyətlə ifşa edib. Bunun nəticəsi kimi həm də Fransanın müstəmləkəsi altında olan ərazilərdə xalqların öz müstəqillikləri uğrunda mübarizələri daha geniş vüsət alıb.

Azərbaycanla mübarizədə heç nəyə nail ola bilməyən Fransa onu da gözəl anlayır ki, qanunvericilik orqanlarında qəbul edilən qətnamələri də heç bir hüquqi dəyəri olmayan kağız parçalarıdır. Bu səbəbdən təsir dairəsinin olduğu və erməni lobbisinin əlində alətə çevrilən AŞPA-nın, eləcə də Avropa İttifaqı rəsmilərinin dəstəyi ilə məkrli siyasətini həyata keçirməyə cəhd edir.

2001-ci ildə Avropa Şurasına üzv olandan sonrakı dövrün təcrübəsi göstərir ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər. Reallıq odur ki, onun parlament assambleyası bu illər ərzində bir dəfə də olsun Azərbaycana qarşı xoş niyyətdən irəli gələn münasibət göstərməyib.

Onu da qeyd edək ki, 2023-cü il aprelin 23-də Azərbaycan tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulandan sonra AŞPA dəfələrlə Azərbaycandan həmin sərhəd-buraxılış məntəqəsinin ləğv edilməsini, dolayısı ilə Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınmamasını tələb edib, lakin istəyinə nail ola bilməyib. Bu tələbin özü AŞPA-nın əsl niyyətini ifşa edən həqiqətdir.

Bundan sonra Azərbaycan tərəfinin təzyiq qarşısında geri çəkilməyəcəyinə əmin olan AŞPA rəhbərliyi məzmunu saxlamaqla təzyiq formasını dəyişmək qərarı verib. Torpaqlarımız işğal altında olduğu dövrdə AŞPA heç vaxt həmin ərazilərlə maraqlanmayıb, ora məruzəçi göndərmək istəməyib. Amma antiazərbaycançı fəaliyyətinin növbəti göstəricisi kimi 2023-cü ildə 3 dəfə ölkəmizə müraciət edərək Laçın yoluna məruzəçi göndərmək istədiyini bildirib. Aydındır ki, AŞPA bununla ermənilərin "blokadada yaşadıqları"nı göstərmək və uydurma faktlar əsasında saxta hesabat hazırlamaq niyyətində olub. Lakin bu antiazərbaycançı niyyətlərin reallaşmasına Azərbaycan dövləti haqlı olaraq imkan verməyib.

Bu gün Qərb siyasi dairələrinin Azərbaycana qarşı hücumlarının əsas səbəbi ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi və torpaqlarımızda ikinci erməni dövlətinin yaradılması planlarının alt-üst olmasıdır. O cümlədən Avropa Parlamenti kimi AŞPA da Azərbaycanın müstəqil və qətiyyətli siyasətini həzm edə bilmir. Azərbaycan isə qətiyyətli siyasəti ilə bu təşkilatların, habelə Fransa kimi dövlətlərin həm layiqli cavabını verir, həm də onların riyakarlıqlarını qlobal səviyyədə ifşa edir. Azərbaycanın AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırması ilə bu qurum da "dəmir yumruğ"u hiss etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycanın AŞPA-ya ehtiyacı yoxdur

### Həqiqətə "qara eynək"lə baxan təşkilatda təmsil olunmaq ölkəmiz üçün ciddi əhəmiyyət kəsb etmir

**"Avropa Şurası Parlament Assambleyasının Azərbaycana qarşı qərəzli davranışı beynəlxalq riyakarlığın növbəti təzahürüdür. 2001-ci ildə sözügedən təşkilata ölkəmiz üzv olduqdan sonrakı dövrün təcrübəsi göstərir ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə edirlər".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Azərbaycan bu qurumdakı fəaliyyəti dövründə qaldırılan məsələlərlə bağlı hər zaman ədalətli mövqe sərgiləyib, amma AŞPA ölkəmizə problem yaratmaqdan başqa heç nə etməyib. Qərbdəki anti-Azərbaycan qüvvələr bu qurumdan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb və bu gün də eyni siyasət yürüdürlər.

AŞPA-da Azərbaycanla bağlı faktlar təhrif olunmuş formada verilir, reallıqlara, həqiqətlərə "qara eynək"dən baxılır. İddia edirlər ki, Azərbaycanda keçiriləcək növbədənkənar seçkiləri müşahidə etmək üçün niyə Avropa Şurası dəvət edilməyib? Azərbaycan seçkilərdə müşahidəçi kimi iştirak etmək üçün hətta ən sərt mövqeyi ilə tanınan beynəlxalq qurumları da dəvət edib, lakin 23 il müddətində həqiqi üzvü olduğu, buna qədər də daim seçki müşahidələri aparan komandalarını məmnuniyyətlə qəbul etdiyi Avropa Şurasından bu dəfə imtina edib. Çünki uzun illər ərzində bu qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, ara-sıra hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi.

K.Bayramov qeyd edib ki, bu gün Avropa Şurası da, onun parlamenti də bu addımları ilə öz maraqlarına xidmət edən Fransa, Almaniya kimi dövlətlərin alətinə çevrildiyini göstərməklə, əslində, oyuncaq təsisat olduqlarını bir daha təsdiqləyir: "Avropa Şurası Parlament Assambleyasının qış yarım-sessiyasının açılış günündə ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilməyib. Deputatların etimadnamələrinin substantiv əsaslarla mübahisələndirilməsi ilə bağlı təşəbbüsü sosialistlər siyasi qrupunun rəhbəri Frank Şvabe irəli sürüb və həmin təşəbbüs təsdiqlənib. Frank Şvabe təşəbbüsü irəli sürərkən həqiqəti əks etdirməyən qərəzli çıxışında "100 mindən artıq Qarabağ ermənilərinin zorakılıqla qovulması" kimi əsassız fikirlər səsləndirib və AŞPA məruzəçilərinin Laçın yoluna buraxılmamasını Azərbaycanın təşkilatla əməkdaşlıqdan yayınması kimi qiymətləndirib. Qalmaqallı təşəbbüs formal olaraq almaniyalı deputat Frank Şvabe tərəfindən irəli sürülsə də, məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu, sadəcə, sosialistləri qabağa verdiyi gün kimi aydındır. Bəllidir ki, Fransa və Almaniya tandem şəklində çıxış edirlər".

Deputat diqqətə çatdırıb ki, AŞPA Azərbaycan nümayəndə heyəti etimadnamələrinin mübahisələndirilməsi təşəbbüsünü irəli sürərkən, guya bunu 7 fevralda Azərbaycanda keçiriləcək seçkiləri müşayiət etməyə dəvət edilməməsi, ölkədə "siyasi məhbus"ların olması ilə əlaqələndirsə də, əsas səbəb Qarabağın azad olunması, suverenliyin tam bərpa edilməsi faktı ilə barışa bilməmələrindən, Ermənistana hər vasitə ilə dəstək olmaq siyasətindən irəli gəlir. Azərbaycan Avropa Şurasının da aid olduğu coğrafiyada əhəmiyyətli mövqeyə malik dövlətdir. Ölkəmizə qarşı əsassız ittihamların səsləndirilməsi, məkrli və hiyləgər oyunların qurulması, əslində, Azərbaycandan çox Avropa Şurasına zərər verəcək. "Çünki biz bütün təsisatlara, beynəlxalq hüququn subyektləri olan dövlət və təşkilatlara bərabər əməkdaşlıq qura biləcəyimiz tərəfdaş kimi baxırıq. Əgər bizim ümummilli maraqlarımıza və qələbəmizə kölgə salmaq istəyirsə, Avropa Şurasından çıxmaq Azərbaycan üçün hər hansı ciddi əhəmiyyət kəsb etmir. Ölkəmizdə bu quruma rəğbət onun ümumbəşəri dəyərləri təbliğ etməsindən, insan haqları və demokratiyanı təşviq etməsindən, xüsusilə beynəlxalq ədaləti dəstəklədiyini bəyan etməsindən irəli gəlirdi. Azərbaycan Avropa Şurasının və onun Parlament Assambleyasının bəyan etdiyi dəyərlərin tətbiqinə, ən kobud şəkildə pozulmuş insan haqlarının müdafiə olunmasına və beynəlxalq ədalətin bərqərar olunmasına böyük ümidlər bəsləyirdi. Üzv olduğumuz digər beynəlxalq təşkilatlarla yanaşı, AŞPA-dan da gözləntilərimiz Azərbaycan torpaqlarının işğal faktının rəsmən tanınması və işğala son qoyulması üçün təcavüzkar dövlətə təzyiq göstərilməsindən ibarət idi. Lakin gözləntilərimizin əksinə olaraq Azərbaycan-Ermənistan münaqişəsinin davam etdiyi 35 il ərzində AŞPA bütün hüquqları vəhşicəsinə pozulmuş bir milyon azərbaycanlının müdafiəsi üçün bir qərar belə qəbul etmədi", - deyə o əlavə edib.

K.Bayramov əlavə edib ki, AŞPA-nın yürütdüyü siyasət Azərbaycanın milli maraqları çərçivəsində apardığı siyasətlə tərs mütənasibdir: "AŞPA qərarını verməzdən əvvəl Azərbaycan nümayəndə heyəti öz sözünü dedi və təşkilat çərçivəsində fəaliyyətini dayandırdı. Torpaqlarımız azad olunduqdan, bütün ərazilərimiz üzərində suverenliyimiz tam təmin edildikdən sonra Azərbaycanın AŞPA-ya heç bir ehtiyacı yoxdur. Dünyada 200-ə yaxın müstəqil dövlət var və onlardan yalnız 46-sı bu qurumun üzvüdür".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın qələbəsi AŞPA-nı sarsıdıb

Azərbaycanın Ermənistan ordusu üzərində qələbəsi keçmiş münaqişədən öz qlobal maraqları üçün istifadə edən dövlətləri yaman sarsıdıb. Hələ müharibənin gedişi zamanı Fransa prezidenti Emmanuel Makron baş verən hadisələrin Ermənistanın xeyrinə olmadığını anlayıb ölkəmizin əleyhinə əsassız ittihamlara start verdi.

Yalan, saxta məlumatlarla məsələni BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxararaq bu nüfuzlu beynəlxalq təşkilatın imkanlarından istifadə edib Azərbaycana təzyiq göstərməyə cəhd etdi. Faktiki olaraq Azərbaycan öz düşmənləri ilə iki cəbhədə - Qarabağda Ermənistan ordusu ilə, diplomatik cəbhədə isə Fransanın üstümüzə saldığı islamofob dövlətlərlə vuruşurdu... Məlum olduğu kimi, hər iki cəbhənin qalibi Azərbaycan oldu.

2020-ci il noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli Bəyanat ölkəmizə qarşı "diplomatik hücum"ları təşkil edən dövlətlərin əlini soyutsa da, ölkəmizə qarşı etmək istədikləri pisliklərdən qalmadılar. Ermənistan üzərindən Cənubi Qafqaz siyasətində "söz sahibi" olan, uzunmüddətli münaqişə dövründə "vasitəçilik" edən Fransanın planlarının uğursuz nəticələrini anlayan Makron hər vasitə ilə sülh danışıqları prosesinə mane olmağa çalışır. İstədiyinə nail ola bilməyən Fransa prezidenti hər cür oyuna əl atır. Səbəbi də bəllidir. Nə qədər ki Qarabağ problemi var idi, bu ölkə problemdən Ermənistan vasitəsilə öz məqsədi üçün istifadə edə bilirdi... Problemin olmaması Fransanın Cənubi Qafqaz siyasətində yoxluğu deməkdir. Fransa prezidenti Azərbaycana qarşı qurduğu planlarda təkbaşına bir nəticə hasil edə bilməyəcəyini dərk edib anti-Azərbaycan koalisiyası yaradaraq ölkəmizə qarşı mübarizəyə başlayıb. İlk dövrlərdə ermənipərəst, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borel Azərbaycana qarşı qərəzli və əsassız bəyanatları ilə diplomata yaraşmayan hərəkətləri etdi. Borel azərbaycanlı diplomatların Fransadan çıxarılması ilə bağlı Fransa ilə həmrəy olduğunu bildirdi.




Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Aİ-nin rolunu heçə endirməyə çalışan Borel Qarabağdan köçən ermənilərin də sayını utanıb-qızarmadan təhrif edərək "150 min"ə qədər qaldırdı...

Hər şey əvvəlcədən düşünülmüş plan əsasında aparılır. Məqsəd sülh danışıqlarına mane olmaqdır. Fransa öz çirkin niyyətinə çatmaq üçün ölkəmizə qarşı birmənalı olaraq həmişə qərəzi və fitnəkarlığı ilə seçilən AŞPA-nı da özünə yedək edib. Almaniyalı deputat Frank Şvabeni də öz oyunlarına alət edən Fransa Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun dondurulması təşəbbüsünü irəli sürüb. Heç şübhəsiz ki, Fransa prezidenti Emmanuel Makronun anti-Azərbaycan kampaniyasını Almaniyanın vasitəsilə genişləndirməyə çalışır. Görünən odur ki, Fransa və Avropadakı erməni lobbisi AŞPA-nı anti-Azərbaycan platformasına, Frank Şvabenin timsalında isə Almaniyanı muzdlu icraçıya çevirə bilib.

Aİ Azərbaycanı əsasən ermənilərin hüquqlarını pozmaqda ittiham edirdisə, AŞPA "fərqli" olaraq guya ölkəmizdə insan hüquqlarının pozulmasından narahat olub. Yalandır. Əgər 2020-ci il sentyabrın 27-də Ermənistan təcavüzkar niyyətlə başladığı müharibədə yeni ərazilər işğal edə bilsəydi, Fransadan da, Aİ-dən bu gün insan hüquqlarını maska əvəzi üzünə taxan almaniyalı deputat Frank Şvabedən də, onun təklifi ilə ölkəmizin əleyhinə qətnamə çıxaran AŞPA-dan da səs çıxmayacaqdı. İnsan hüquqlarının pozulması adı altında öz abırsızlıqlarını ört-basdır etməyə çalışan AŞPA əleyhimizə qəbul etdiyi qətnamədə əsl niyyətini gizlədə bilməyib. "Dağlıq Qarabağdakı vəziyyətlə bağlı assambleya özünün "Laçın dəhlizi ilə sərbəst və təhlükəsiz gediş-gəlişin təmin edilməsi" adlı 2508 (2023) saylı qətnaməsində guya Laçın dəhlizi boyunca azad və təhlükəsiz hərəkətin olmamasını müəyyən edib. Bundan başqa, assambleya özünün "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı 2517 (2023) saylı qətnaməsində və 2260 (2023) saylı tövsiyələrində Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında Dağlıq Qarabağın bütün erməni əhalisinin Ermənistana qaçması və "etnik təmizləmə" iddialarının ortaya çıxmasına səbəb olan hərbi əməliyyatını pisləyib".

Məsələnin kökündə də elə bu durur. Əslində nə Aİ-ni, nə AŞPA-nı Azərbaycan xalqı düşündürmür. Necə ki 200 min azərbaycanlını öz dədə-baba yurdlarından Ermənistan tərəfindən zorla, vəhşicəsinə çıxarılmasına görə, yaxud həmin insanlara münasibətdə indiyə kimi laqeydlik, biganəlik göstərən Aİ və AŞPA səsini çıxarmayıb. İndi bu təşkilatdan ədalətli qərar gözləmək olarmı?!

Erməni lobbisinin pulu ilə tələyə düşmüş Fransanın sifarişlərini kor-koranə yerinə yetirən muzdlu deputatların, özfəaliyyət dərnəyinə bənzər bir qurumun qəbul etdiyi qətnamələr kağız parçalarından başqa bir şey deyil. Ədalətli mövqeyi, haqlı olması ilə Azərbaycan həmişə bütün mübarizələrin qalibi olub. Sirkə nə qədər tünd olsa, öz qabına ziyan verər. AŞPA da əleyhimizə qəbul etdiyi qətnamə ilə özünə balta vurmuş oldu.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Fransa çirkli pulları yumaq üçün Ermənistanı "camaşırxana"ya çevirmək istəyir

**Fransanın Azərbaycana qarşı olduqca qərəzli və ikili standartlara əsaslanan siyasəti çox eybəcər şəkildə davam etməkdədir. Ölkələrarası münasibətlərdə gərginlik son günlərdə Fransanın günahı ucbatından daha da artıb. Görünən odur ki, Makron İkinci Qarabağ müharibəsində, eləcə də 2023-cü il 19-20 sentyabrda Azərbaycanın həyata keçirdiyi lokal antiterror əməliyyatlarında erməni terrorçu rejimin tarixin zibilliyinə atılmasını hələ də həzm edə bilmir.**




Bakı-Paris münasibətlərindəki son gərginliyin səbəblərindən biri də Fransa Senatının Azərbaycan əleyhinə növbəti dəfə qətnamə qəbul etməsi oldu. Senat üzvləri həyasızcasına Azərbaycanı "Qarabağa hərbi təcavüz etməkdə", ermənilərə qarşı "etnik təmizləmə" həyata keçirməkdə ittiham etdilər. Azərbaycanın bu həyasızlığa və uydurmaya qarşı haqlı cavabı özünü çox gözlətmədi. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat yaydı. Bəyanatda Fransa Senatının qətnaməsini qərəzli, birtərəfli və əsassız adlandırdı.

Gün kimi aydındır ki, Fransanın regional məsələlərə yanaşması tamamilə ermənipərəst xarakter daşıyır. Uzun müddətdir Fransa dəridən-qabıqdan çıxaraq hansı yolla olursa olsun Azərbaycana təsir göstərməyə çalışır. Amma məqsədinə heç cürə nail ola bilmir və heç vaxt da olmayacaq. Çünki Azərbaycanın iqtisadi və siyasi gücü, beynəlxalq nüfuzu gündən-günə artmaqdadır. Getdikcə ölkəmizin dünyada mövqeləri möhkəmlənir, söz sahibinə çevrilir.

Fransa prezidentinin erməni sevgisi isə bitib-tükənmir. Makron Ermənistanla bağlı qarşıdan gələn tarixi qərarlardan da bəhs edib. Yəni Fransanın aktiv anti-Azərbaycan mövqeyi müəyyən hərbi-siyasi mülahizələr və ambisiyalarla diktə olunur. Deməli, burada Ermənistan yalnız bir alətdir. Fransa silahlı qüvvələrinin şəxsi heyəti qarşısında çıxış edən Makron bunları deyib: "Bu il böyük bir millət olaraq üzərimizə düşən öhdəliklərlə üzləşəcəyik. Təfərrüatı açıqlamayacağam. Ancaq Balkanları, Ermənistanı qeyd edə bilərəm - hansı ki, diqqət mərkəzimizdədir, xüsusilə bizim mövqeyimizi gücləndirən və tarixi qərarlar verən Ermənistana münasibətdə..."

Fransa prezidentinin bu sərsəm sözləri hətta düşmən ölkə olan Ermənistanda da təəccüblə qarşılanıb. Erməni analitik Ruben Marqaryan deyib ki, Makron Fransa hərbçiləri qarşısında çıxış edərkən digər məsələlərlə yanaşı, böyük bir xalqın üzərinə düşən vəzifələrdən, Fransanın rolunun gücləndirilməsindən və tarixi qərarların qəbulundan, xüsusən də Ermənistanla bağlı danışıb. Deyib ki, İrəvan-Paris əlaqələrinin güclü və yaxşı kökləri var. Ermənistanın Fransaya və onun xalqına qarşı həmişə isti münasibəti olub. Paris bizim üçün Mişel Leqran, Şarl Aznavur, Fransa müqavimətinin qəhrəmanı Misak Manuçyan və digərləridir. Amma bu gün Makron Ermənistanda "mövqeyi gücləndirmək"dən, İrəvanla bağlı "tarixi qərar"lardan danışanda onun nə demək istədiyini daha dəqiq bilmək istərdim. Çünki Ermənistan üçün "mövqeyini gücləndirməyin" və "tarixi qərar"ların müsbət nəticələri hələ görünmür. Fransanın Ermənistanla bağlı tarixi qərarlarından danışarkən Makron nə ilə fəxr edir? Gəlin faktlarla danışaq. Fransanın 2020-ci ildə müharibəni dayandırmaq cəhdləri nəticə vermədi. Paris 2023-cü ildə Azərbaycanın "artsaxa qarşı təcavüzünü" də dayandıra bilmədi. Parisin "tarixi qərarları" və üstəlik, onların Ermənistan üçün müsbət nəticələri nədən ibarətdir? Saxta müşahidəçilərdən? Fransız futbolçu Nikolas Anelkanın Ermənistanda futbol akademiyası açmaq niyyətindən?.."

Rusiyalı hərbi ekspert Aleksey Xlopotov Fransanın Ermənistanı fəlakətə sürüklədiyini qeyd edir: "Fransa sisteminin özünəməxsus kiçik xüsusiyyətləri var. Ümumiyyətlə, xatırlatmaq istərdim ki, Fransa gah NATO-ya daxil olur, gah da NATO-dan çıxırdı. Amma ümumilikdə Fransanın təlim standartları NATO-dan çox da fərqlənmir. Lakin bu, Ermənistan ordusunun döyüş qabiliyyətinə təsir edə biləcək real hərəkətlərdən daha çox, Fransa və Ermənistanın siyasi, nümayişkaranə addımlarıdır… Bütün Qərb diplomatiyası hər iki ayağından topaldır. Bu, yaxşı heç nəyə gətirib çıxarmayacaq. Lakin fransızlar müəyyən mənfəət əldə etməkdən ötrü Ermənistanı Avropa pullarını yumaq üçün "camaşırxana"ya çevirmək məqsədilə oraya girməyə çalışdılar. Nəticədə onların Bakı ilə arası dəydi…"

Fransanın Azərbaycana göstərdiyi qərəzli münasibət heç bir məntiqə sığmır. Bu ölkənin rəsmiləri ancaq erməni diasporunun dili ilə danışırlar, erməni cildinə girərək reallıqdan uzaq olan sözlər deyirlər, uydurma fikirlər səsləndirirlər. Amma gərək Paris belə bir yanlış yolla getməyəydi. Çünki Azərbaycan Fransaya qarşı uzun illər ərzində bir dəfə də olsun ədalətsizlik etməyib, qeyri-adekvat münasibət göstərməyib, iki dövlət arasında hansısa gərginliyə səbəb olacaq addım atmayıb. Amma bunun əvəzində Fransa erməni fətvası ilə Azərbaycana qarşı qərəzli mövqe tutub, özünü dünyada gözdən salıb. Fransa həssas olan bütün qırmızı xətləri keçib. Özü də çox namərdcəsinə, qərəzli şəkildə. Fransa da, onun senatı da, senatorları da, qətnamələri də ölkəmiz üçün heç kim və heç nədir! Senatın qəbul etdiyi qətnamələri oxuyanda adamı gülmək tutur. Deyəsən, fransız deputatlar yavaş-yavaş parlamentlərini sirkə çevirirlər, özlərini də kloun kimi aparırlar. Rəsmi Bakı Fransanın siyasətini ermənipərəst hesab edir və bu ölkəni Azərbaycanın daxili işlərinə qarışmamağa çağırır.

Azərbaycan heç bir dövlətlə münasibətlərinin, əlalxüsus iqtisadi münasibətlərin pozulmasını istəmir, o cümlədən də Fransa ilə. Lakin münasibətlərin hazırkı mərhələyə qədəm qoyması Bakının yox, birbaşa Parisin təqsiri və kobud səhvidir. Fransa yaxşı-yaxşı fikirləşib, Azərbaycana qarşı qərəzli, ikiüzlü, saxta siyasət yürütdüyünü anlasın və nə qədər gec deyil buraxdığı səhvləri düzəltsin. Çünki zaman Azərbaycanın xeyrinə, Fransanınsa ziyanına işləyir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Uğurlarımızı həzm edə bilməyən AŞPA

**"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) ermənipərəst dairələrin sifarişlərini yerinə yetirdiyinə şübhə yoxdur. Beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etməyən işğalçı Ermənistanın qəddarlığına, bu ölkənin bir milyondan artıq soydaşımızın hüquqlarını kobud şəkildə pozmasına laqeyd yanaşan bir qurumun hazırda Azərbaycana münasibətdə sərgilədiyi qərəzli mövqe onun islamofob və türkofob təfəkkürünün bariz nümunəsidir. AŞPA illər boyu Azərbaycanın haqlı mübarizəsini görməzlikdən gəlib".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib. Deputat bildirib ki, AŞPA-nın qərəzli yanaşmasından sonra Azərbaycan nümayəndə heyəti haqlı olaraq bu qurumla əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Sözsüz ki, AŞPA-nın bu təşəbbüsü Qərbin anti-Azərbaycan qüvvələrinin belə qurumlardan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etmək niyyətinin ifadəsidir.



Deputat qeyd edib ki, AŞPA-nın və bu kimi digər qurumların əsas öhdəliklərindən biri də Qarabağ məsələsinin həllinə nail olmaqdan, 30 ilə yaxın işğala, vandalizmə məruz qalan xalqımızın hüquqlarını bərpa etməkdən ibarət olduğu halda, bölgədə gərginlik yaratmaları, heç bir əməli addım atmamaları onların erməni lobbisinin diktəsi ilə hərəkət etdiklərindən xəbər verir. Ədalətsiz mövqe sərgiləyən AŞPA kimi qurumların susqunluğu Azərbaycanı ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etmək məcburiyyətində qoydu.

Jalə Əliyeva vurğulayıb ki, dövlətimiz nəinki ölkədə və regionda, eləcə də dünyada sülhün bərqərar edilməsi üçün zaman-zaman mümkün olan bütün addımları atıb. BMT, ATƏT, AŞPA tribunalarından dəfələrlə bəyan etdiyimiz sülh çağırışları heç kəsin yadından çıxmayıb. Bütün dünya BMT Təhlükəsizlik Şurasının iclaslarını aparарkən, AŞPA Nazirlər Komitəsinin sessiyalarına sədrlik edərkən, Türk Dövlətləri Təşkilatının və Qoşulmama Hərəkatının sədri kimi çıxışlarımızda səsləndirdiyimiz sülh çağırışlarından xəbərdardır.

"Lakin Ermənistanın, ermənipərəst qüvvələrin, onların havadarlarının pozuculuq fəaliyyəti Azərbaycanı Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etməyə məcbur qoyub. Azərbaycan məsələnin dinc yolla həll edilməsinin tərəfdarı olduğunu dəfələrlə elan etsə də, AŞPA və bu kimi qurumlar öz vəzifələrini yerinə yetirmək, Azərbaycanın haqlı mübarizəsini görmək, eşitmək və həllinə sülh yolu ilə yardımçı olmaq istəməyiblər. Beynəlxalq təşkilatların fəaliyyətsizliyi qarşısında başqa seçim yolu qalmayan Azərbaycan 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü bərpa edərək, şanlı Zəfərə imza atıb və bütün ərazisində suverenliyini bərqərar edib", - deyə deputat bildirib.

Jalə Əliyeva həmçinin Azərbaycanın özünü regionun lider dövləti kimi birmənalı şəkildə təsdiqlədiyini vurğulayıb. Əlavə edib ki, bu reallıq bizə tərəfdaşlar qazandırmaqla yanaşı, anti-Azərbaycan qüvvələrin fəallaşmasına səbəb olur. Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə az vaxt qalmış AŞPA-nın sərgilədiyi qərəzli mövqe onun çirkin niyyətini ifşa edir, əsl mahiyyətini bir daha ortaya qoyur. Erməni lobbisinin sifarişini yerinə yetirən AŞPA-nın ədalətsiz qərarları sülh prosesinin yekunlaşması nəticəsində formalaşacaq sabitlik və firavanlığın Azərbaycanın inkişafına verəcəyi töhfələrin qarşısını almaq, ölkəmizin beynəlxalq arenadakı mövqeyini zəiflətmək məqsədi güdür. Lakin buna nail ola bilməyəcək. Bütün bunlara baxmayaraq, dünya birliyinə gün işığı kimi aydın olan, təkzibedilməz bir fakt var - Qarabağ Azərbaycandır!

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycanın qələbəsi AŞPA-nın ölkəmizə olan qərəzli və kinli siyasətini üzə çıxardı

**"Avropa Şurası Parlament Assambleyası (AŞPA) insan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin müdafiəsi ilə məşğul olan 46 dövlətdən ibarət beynəlxalq təşkilat olan Avropa Şurasının parlament qolu kimi təsis edilib. Azərbaycan isə 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilib.**

AŞPA-nın əsas məqsədi müxtəlif dövlətlərin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdır. İnsan haqlarını və qanunun aliliyini müdafiə etmək öhdəliyi olan bu təşkilat 1987-1991-ci illərdə Qərbi Azərbaycandakı tarixi yurdlarından soyqırımı yolu ilə deportasiyaya məruz qalmış 300 mindən çox azərbaycanlının geri qayıdış hüquqlarını müdafiə etmədi, onların qaçqınlıq taleyi və aqibəti haqqında hər hansı bir iş görmədi. Həmçinin bu istiqamətdə Ermənistan dövlətinə təzyiq və təsir də göstərmədi".

AZƏRTAC xəbər verir ki, bu sözləri Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, sosiologiya üzrə fəlsəfə doktoru Əfqan Vəliyev söyləyib.

O bildirib ki, AŞPA 1990-1993-cü illərdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan dövləti tərəfindən işğal edilməsi nəticəsində hüquqları pozulmuş 1 milyondan çox azərbaycanlının qaçqınlıq taleyi və acı aqibətinə görə Ermənistan dövlətinə hər hansı sanksiya tətbiq etmədi və təzyiq göstərmədi. Bununla da hüquqları tapdalanmış, mal-mülkü talan edilmiş, yandırılmış bir milyondan çox qaçqın və məcburi köçkünün insanlıq hüquqlarına hörmətsizlik edildi. Bundan əlavə, AŞPA-nın münaqişəli məsələlərin müzakirəsi üçün düzgün format olmadığı deyildi və ermənilərin cinayətləri unutdurulmağa çalışıldı.

"AŞPA-nın keçmiş münaqişəyə bu qədər biganə yanaşması onlara olan ümid və gözləntiləri də puç etdi, həmçinin nüfuzuna da xələl gətirdi. Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi ilə öz torpaqlarını işğaldan azad etməsi ermənidən daha çox erməni olan Fransa kimi, AŞPA-nın da ölkəmizə qarşı qərəzli və kinli siyasətini üzə çıxardı. Avropa Şurası Parlament Assambleyasının deputatlarının çərşənbə günü keçirdiyi müzakirədə Azərbaycanın qurumdakı nümayəndə heyətinin etimadnaməsini təsdiqləməməsi və ölkəmizlə əlaqəli ortaya atdığı əsassız ittihamları sübut etdi ki, AŞPA-nın bu siyasətinin mərkəzində Azərbaycanofobiya və islamofobiya durur. Məlum oldu ki, onların məqsədi Azərbaycanın qələbəsinə kölgə salmaq, ölkənin siyasi, hərbi, sosial, iqtisadi və mədəni sahələrdə əldə etdiyi uğurları ləkələməkdir. Onları dövlətimizin demokratiya və ədalətin bərqərar olması istiqamətindəki qətiyyətli uğurları, həmçinin hər şeydən daha çox Azərbaycanın güclü dövlətə və liderə malik olması narahat edir", - deyə Ə.Vəliyev vurğulayıb.

Onun sözlərinə görə, AŞPA və digər anti-Azərbaycan ünsürlü qüvvələrinin ayrı-seçkiliyi, etnik və dini nifrəti, ikili standartları, təkəbbürlülüyü, şovinist siması Azərbaycanın güclənməsi və torpaqlarını işğaldan azad etməsi ilə özünü daha aydın şəkildə büruzə etdi. Bu onu göstərir ki, Azərbaycan Vətən müharibəsində Ermənistanla yanaşı, anti-Azərbaycan ideyalı zehniyyətlərə də qalib gəlib.

## AŞPA-nın qərəzli və ədalətsiz qərarının heç bir hüquqi əsası yoxdur

**"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan ilə bağlı qərarı qərəzli, ədalətsiz, anti-Azərbaycan və anti-Türkiyə məqsədi daşıyan, heç bir hüquqi əsası olmayan qərardır".**

Bu sözləri Gürcüstan parlamentinin sabiq deputatı Azər Süleymanov AZƏRTAC-a müsahibəsində deyib.

AŞPA-nın bu qərarının Azərbaycana təzyiq göstərmək məqsədilə qəbul edildiyini vurğulayan A.Süleymanov bildirib: "Azərbaycan torpaqları 30 ildən çox işğal altında idi. Bu illər ərzində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün ağır, dözülməz şəraitdə yaşayıb. AŞPA bütün bu ağrı-acılara göz yumaraq, yalnız kağız üzərində bir-iki qərar qəbul etməklə kifayətləndi. Azərbaycan isə heç bir kənar kömək, yardım olmadan öz torpaqlarını işğaldan azad etdi və hazırda həmin ərazilərdə geniş quruculuq işləri həyata keçirir. Artıq keçmiş məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdırlar. Təbii ki, Fransa və digər imperialist dövlətlərin əlində vasitə olan AŞPA və bu kimi təşkilatlar bunu həzm edə bilmirlər. Ona görə də Azərbaycana qarşı qərəzli mövqedə dayanır, ədalətsiz, anti-Azərbaycan qərarlar qəbul edirlər".

Siyasətçi diqqətə çatdırıb ki, AŞPA və Avropanın digər institutları güclü Azərbaycanı qəbul etmək istəmirlər. Onlar, eyni zamanda Azərbaycan-Türkiyə qardaşlığını da qəbul edə bilmirlər. Yaxşı başa düşürlər ki, güclü Azərbaycan ilə güclü Türkiyənin birliyi regionda yeni dövrün, reallığın əsasını qoyub. Bu da onları ciddi narahat edir. Ona görə də tərəflərdən birinə - Azərbaycana təzyiq göstərməklə bu dostluğa zərbə vurmağa çalışırlar. Amma onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan regionun ən güclü dövlətidir və Cənubi Qafqazın siyasətində mühüm rol oynayır.

"Dünyada və regionda sabitliyin pozulmasına xidmət edən bu qüvvələr istəklərinə çata bilməyəcəklər. Çünki güclü Azərbaycan torpaqlarını işğaldan azad etdiyi kimi, dünyada da mövqelərini möhkəmlədəcək və əsl söz sahibinə çevriləcək", - deyə A.Süleymanov vurğulayıb.

## Fransa və Almaniyada etirazlar səngimir

### Səbəblər müxtəlif olsa da, hədəf eynidir - səriştəsiz hökumətlər

**Fransada fermerlərin etirazları son həftələrdə geniş vüsət alır. Artıq 3 gündür onlar traktorlar, ot tayaları və peyin qalaqları ilə əsas magistral yolları bağlayırlar. Tuluza, Strasburq, Lion, Bordo, eləcə də Kale, Bove və başqa iri şəhərlərin ərazisində avtomobil yolları bağlanıb. Fermerlər həmçinin prefekturaları və hökumət binalarını peyin və digər tullantılarla zibilləyirlər.**





Onlar peşələrinin əhəmiyyətinin tanınmasını tələb edir və hökumətin kənd təsərrüfatı siyasətini pisləyirlər. Fermerlərin fikrincə, bu siyasət onların rəqabət qabiliyyətini zəiflədir. Onlar xüsusilə, kənd təsərrüfatı məhsullarının idxalına, suvarma üçün suyun istifadəsinə məhdudiyyətlərin qoyulmasının, dizel yanacağının qiymətinin artırılmasının, eləcə də ətraf mühitin qorunması üçün məhdudlaşdırıcı tədbirlərə və istehsala artan maliyyə yükünün əleyhinədirlər.

Daha əvvəl İl-de-Frans bölgəsindəki fermerlər həmkarlar ittifaqları hökumət siyasətinə qarşı milli etiraz hərəkatı çərçivəsində Paris yollarının blokadaya alınacağını elan etmişdilər. Fermerlərin hüquqlarını müdafiə edən aparıcı təşkilatlar olan FDSEA və "Jeunes agriculteurs" həmkarlar ittifaqları giriş və çıxış nöqtələrində əsas magistral yolların blokadaya alınmasını tələb ediblər.

Parisin yollarını bağlamaqla həmkarlar ittifaqları hökumətin vəd etdiyi açıqlamalar öncəsi hakimiyyətə təzyiqləri artırmaq niyyətindədir. Onlar baş nazir Qabriel Attala təsir etmək üçün şəhərin bütün əsas nəqliyyat arteriyalarını bağlamağı planlaşdırırlar.

Bu arada Almaniyada da etiraz aksiyaları səngimir.

Ölkənin bir neçə şəhərində on minlərlə insan sağçı ekstremizmə və ifrat sağçı "Almaniya üçün Alternativ" partiyasına qarşı etiraz aksiyası keçirib. Bu barədə dpa məlumat yayıb.

Visbaden şəhərində nümayişə 12 mindən çox iştirakçı gəlib. Şimali Reyn-Vestfaliya federal əyalətində ümumilikdə 10 min adamın iştirak etdiyi ən azı üç böyük mitinq keçirilib. Rostok şəhərində, polisin ilkin hesablamalarına görə, 6500 nəfər sağçılara qarşı nümayiş keçirmək üçün şəhərin mərkəzinə toplaşıb.

İstirahət günlərində Almaniyada ifrat sağçılara qarşı daha çox mitinqlər gözlənilir.

Ötən həftəsonu etirazlarda 900 mindən çox insan iştirak edib. Münhendəki aksiya o qədər böyük olub ki, polis insanlara dağılışmağı əmr edib.

Etirazlara və "Almaniya üçün Alternativ" partiyasının qadağan edilməsi ilə bağlı söhbətlərə təkan verən ifrat sağçıların partiya nümayəndələrinin iştirakı ilə keçirilən toplantısı haqqında məlumatın dərc edilməsi olub. Həmin görüşdə miqrantların ölkədən kütləvi halda deportasiya olunması müzakirə edilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "Seçimimiz xalqımızın qalib Lideri İlham Əliyevdir!"

## YAP seçkiqabağı təşviqat kampaniyasını uğurla davam etdirir







2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yanvarın 15-də start verilən seçkiqabağı təşviqat mərhələsi davam edir.













Prezident seçkilərinə "Qalib xalqın Qalib Lideri!" şüarı ilə gedən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası uğurla və mütəşəkkil qaydada həyata keçirilir.

Kampaniya çərçivəsində respublikamızın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə seçki qanunvericiliyinə uyğun olaraq silsilə tədbirlər keçirilir.

Görüşlər zamanı Yeni Azərbaycan Partiyasının təşviqat qruplarının üzvləri Azərbaycanın zəngin və şərəfli inkişaf yoluna nəzər salaraq Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 20 ildə qazanılan uğurlardan bəhs edir və qarşıda duran hədəflərə diqqəti yönəldirlər.

Bildirilir ki, son 20 ildə Azərbaycanın iqtisadi və siyasi müstəqilliyi tam təmin edilib. Hazırda Azərbaycan iqtisadi baxımdan heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil, əksinə, respublikamız bir sıra xarici ölkələrdə fəal investisiya siyasəti həyata keçirir. Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda ən böyük iqtisadiyyata malik olan ölkədir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-2023-cü illərdə qazanılan iqtisadi uğurlar ölkəmizin yüksəlişini təmin edib. Həyata keçirilən islahatlar nəticəsində yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat qurulub, Azərbaycan iqtisadiyyatı 3,6 dəfə artaraq 123 milyard manatı ötüb. Milli iqtisadiyyatın strukturu əhəmiyyətli dərəcədə yaxşılaşıb, qeyri-neft-qaz sektoru 3,5 dəfə, qeyri-neft-qaz sənayesi 4,3 dəfə, kənd təsərrüfatı isə 2,1 dəfə böyüyüb. Paralel şəkildə ölkəmizin maliyyə imkanları əhəmiyyətli dərəcədə artıb. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən strateji valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara çatıb. Bəhs olunan dövrdə dövlət büdcəsi 29 dəfədən çox artıb, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə 318,9 milyard ABŞ dollarına yaxın investisiya cəlb edilib, xarici ticarət dövriyyəsi 10 dəfəyə yaxın genişlənib.

Seçicilərlə görüşlərdə ötən 20 il ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin də əhəmiyyəti vurğulanır. Qeyd olunur ki, respublikamızın iqtisadi-maliyyə imkanlarının genişlənməsi bilavasitə sosial siyasətdə öz əksini tapır. İqtisadi imkanlar artdıqca vətəndaşların rifah halının yaxşılaşmasına daha böyük həcmlərdə vəsaitlər ayrılır. Son beş ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub, minimum pensiya məbləği 2,5 dəfə, orta pensiya məbləği 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artıb. 2023-cü ildə 2003-cü ilə nisbətən işsiz əhalinin sayı 28,6 faiz, yoxsul əhalinin sayı isə 7 dəfə azalıb. Bildirilir ki, ölkəmizdə bütün həssas qruplardan olan vətəndaşların da sosial müdafiəsi dövlət tərəfindən dəstəklənir. Belə ki, ötən dövrdə şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14,8 min mənzil və fərdi ev verilib.

Seçicilərlə görüşlərdə xüsusilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 20 illik fəaliyyətinin zirvəsinin ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası olduğu vurğulanır. Məhz cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti sayəsində tarixi Zəfər qazanıldı və şəhidlərimizin qisası alındı. 7 fevral prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə bütün ərazilərimizdə keçirilən Zəfər seçkiləri olacaq.

Qürurverici haldır ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə də seçicilərlə görüşlər keçirilir. Buna nümunə kimi qeyd edə bilərik ki, yanvarın 26-da Laçın rayonunda - Laçın şəhərində və Zabux kəndində seçicilərlə görüşlər keçirilib. Görüşlərdə yüksək əhvali-ruhiyyə ilə - Zəfər ruhunda iştirak edən seçicilər möhtəşəm Qələbənin qazanılmasına və Böyük qayıdış prosesinin uğurla həyata keçirilməsinə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdar olduqlarını vurğulayıblar.

Yeni Azərbaycan Partiyasının nümayəndələri çoxsaylı tədbirlərlə yanaşı, seçicilərlə, xüsusilə şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə fərdi görüşlər də keçirirlər.

YAP-ın təşviqat qrupunun üzvləri qarşıda dayanan yeni hədəflərin reallaşdırılması naminə seçiciləri 7 fevral seçkilərində fəal olmağa və Qalib Xalqın Qalib Lideri İlham Əliyevə səs verməyə çağırırlar.

Görüşlər zamanı çıxış edən seçicilər də öz mövqelərini ifadə edir, Azərbaycanda Heydər Əliyev siyasətinin davam etməsinin zəruriliyini vurğulayaraq möhtəşəm Zəfərimizin müəllifi olan cənab İlham Əliyevə səs verəcəklərini bəyan edərək "Seçimimiz xalqımızın qalib Lideri İlham Əliyevdir!", - deyə vurğulayırlar.

# Razi Nurullayev Qusarda seçicilərlə görüşüb





Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, Prezidentliyə namizəd Razi Nurullayev Qusarda seçicilərlə görüşüb. Razi Nurullayev "Sosial ədalət, sosial demokratiya" şüarı ilə seçkilərə qatılan namizəd vətəndaşı narahat edən çatışmazlıqları diqqətə çatdırıb, ölkədəki mövcud problemlərin platformasında təqdim etdiyi həll yollarından danışıb. Prezidentliyə namizəd sonda seçicilərin suallarını cavablandırıb.





# Razi Nurullayevin seçicilərlə görüşləri davam edir

Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, Prezidentliyə namizəd Razi Nurullayevin seçicilərlə görüşləri davam edir.

"Sosial ədalət, sosial demokratiya" şüarı ilə seçkilərə qatılan namizəd vətəndaşın, ölkənin ən önəmli problemlərinə, məsələlərinə diqqət çəkir, platformasından, ölkədəki mövcud problemlərin həll yollarından danışır, seçicilərin qayğılarını dinləyir, onların suallarını cavablandırır.



## Prezidentliyə namizəd Fuad Əliyev seçkiyə bu şüarla gedir:

# "Varlı vətəndaş, varlı ölkə!"





Prezidentliyə namizəd Fuad Əliyev bildirdi ki, 7 fevral 2024-cü il tarixi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi əlamətdar olacaq: "Bu günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmaq, gələcək nəsillər üçün suveren Azərbaycanı qoruyub yaşatmaq, ata-babalarımızdan bizə əmanət qalan dövlətçiliyimizi əmin dövlət başçısına etibar etmək xalqımızın əlindədir. Müstəqil ölkənin müstəqil vətəndaşları olaraq seçkiyə gəlmək və layiq bildiyiniz namizədə səs vermək seçki günü ölkəmiz adına görə biləcəyiniz ən şərəfli iş və böyük vəzifədir. "Vətəndaş Birliyi" seçki qərargahı vətəndaşlarımızın gələcək rifahı, dövlətimizin əbədi müstəqilliyi və suverenliyimizin qorunması üçün təsis olunmuş və prezident seçkisində mənim namizədliyimi irəli sürüb. Vətəndaşlarımızın şəxsimə olan etimadını və inamını doğrultmaq üçün prezident seçkisində namizəd olmağı qəbul etmiş və bu məsuliyyəti dərindən dərk edərək seçkilərdə iştirakı şərəfli vəzifə hesab etmişəm. Bu gün nəinki bizim dostlarımız, hətta bizi sevməyən bədxahlar belə ölkəmizin qazandığı uğurlardan və qələbələrdən heyranlıqla bəhs edirlər. Azərbaycanın bugünkü inkişafının davamlılığını təmin etmək, onu məkrli təsirlərdən qorumaq hər bir vətəndaşın və dövlətə rəhbərlik edən şəxsin çiyinlərinə ali və böyük məsuliyyət qoyur".







Seçicilərlə görüşlərdə prezidentliyə namizəd Fuad Əliyev bir neçə məsələlərə toxunur. Onun sözlərinə görə, həkim və müəllimlərin 5 ildən bir əlavə sertifikasiya imtahanları ləğv olunmalıdır: "Buna ehtiyac yoxdur. Minlərlə təhsil və tibb işçisinə işgəncə verilir. Bu imtahanlar formal xarakter daşıyır. Üstəlik, imtahanlar insanların işlədiyi və yaşadığı yerə yaxın ərazidə təşkil olunmalıdır. Amma bölgələrdən təhsil və tibb işçiləri əlavə xərc çəkərək Bakıya gəlmək məcburiyyətində qalır".

Fuad Əliyev qeyd edib ki, dövlət bu istiqamətdə real addımlar atmalıdır. Onun fikrincə, sertifikasiya imtahanları keyfiyyət artımına səbəb olmur: "Çünki 58-60 yaşlı tibb işçisini yenidən yoxlamağa ehtiyac yoxdur, onun kifayət qədər təcrübəsi var. Bu məsələ böyük narazılıq doğurur".

Prezidentliyə namizəd Fuad Əliyev hesab edir ki, seçki günü hər bir vətəndaş seçki məntəqəsinə gələrək səsinə sahib çıxmalıdır: "İnsanlar gəlib səs versinlər. Görüşlərdə də çağırış edirik ki, səsverməyə gəlməkdən imtina etməyin".

Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materialları

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 7/26

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 yanvar, 18 yanvar və 20 yanvar tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 yanvar, 18 yanvar və 20 yanvar tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

## QƏRAR № 7/27

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının "Oracle Advisory Group" şirkəti (Amerika Birləşmiş Ştatları) ilə birgə "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində "Oracle Advisory Group" şirkəti (Amerika Birləşmiş Ştatları) ilə birgə səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, Komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının müraciəti təmin olunmalı, "Oracle Advisory Group" şirkəti ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 2.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının müraciəti təmin edilsin və 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində "Oracle Advisory Group" şirkəti ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

## QƏRAR № 7/28

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü "Rəy" Monitorinq Mərkəzinin "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Rəy" Monitorinq Mərkəzi Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, Komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, "Rəy" Monitorinq Mərkəzinin akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalı, səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. "Rəy" Monitorinq Mərkəzinin müraciəti təmin edilsin və 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

## QƏRAR № 7/29

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü Sosioloji Tədqiqatlar Mərkəzinin "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Sosioloji Tədqiqatlar Mərkəzi Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, Komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, Sosioloji Tədqiqatlar Mərkəzinin akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalı, səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. Sosioloji Tədqiqatlar Mərkəzinin müraciəti təmin edilsin və 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

## QƏRAR № 7/30

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Fuad Ağasi oğlu Əliyevin vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Fuad Ağasi oğlu Əliyev vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Fuad Ağasi oğlu Əliyevin vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:

- Əhməd Fazil oğlu Rəhmanov;
- Habil Kərəm oğlu Rəhimov;
- Azər Xanlar oğlu Əsədzadə;
- İlham Əbdülkərim oğlu Quliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

## QƏRAR № 7/31

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

İsrafil Məhəmməd oğlu Əliyev 9 saylı Binəqədi ikinci, Qədir Kərim oğlu Məmmədov 16 saylı Yasamal ikinci, Samir Həsən oğlu Həmzəyev 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.01.2024*

# Seçki prosesində aşkarlıq institutlarının və veb-kameraların rolu, müşahidəçi fəaliyyətinin əsasları



2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl və keyfiyyətlə çoxsaylı irimiqyaslı layihələr gerçəkləşdirilib. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və media nümayəndələrinin sərbəst fəaliyyəti üçün tam sərbəst, maneəsiz şəraitin yaradılması və bütün digər addımlar Mərkəzi Seçki Komissiyasının (MSK) hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən atılıb.

Seçkilərin hazırlanması və keçirilməsi zamanı ən önəmli prinsiplərdən biri aşkarlıqdır. Bilavasitə şəffaflığa xidmət edən bu meyarın təmin olunması məqsədilə seçki kampaniyası boyunca müxtəlif metod və qaydalardan, fərqli müşahidə formalarından istifadə olunur. Aşkarlıq institutunun müxtəlif elementləri - yerli və beynəlxalq müşahidəçilərin, media nümayəndələrinin yaxından iştirakı, beynəlxalq metod kimi tətbiq olunan "exit-poll" keçirilməsi, seçki komissiyalarının şəffaf fəaliyyəti, eyni zamanda qaynar xətt, internet resursları və ölkəmizdə geniş tətbiq olunan veb-kameralar olduqca mühüm əhəmiyyətə malikdir. Bütün bu sadalananlar seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və aşkarlığın daha dolğun təminatına şərait yaradır.

Azərbaycanda keçirilən seçkilərin bütün mərhələlərində aşkarlığın təmin olunması üçün beynəlxalq hüquq normaları ilə yanaşı, Seçki Məcəlləsində nəzərdə tutulmuş mövcud prosedurlar və konkret hüquqi əsaslardan istifadə olunur. MSK seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, seçki komissiyalarının fəaliyyətinin seçicilər və digər seçki subyektləri üçün şəffaflığını daim diqqətdə saxlayır. Müşahidəçi statusu olan şəxslərə seçki komissiyalarının iclaslarını, səslərin hesablanması, dairə və məntəqə seçki komissiyalarında seçki bülletenləri və səsvermənin nəticələrinə dair protokollar da daxil olmaqla, bütün seçki sənədləri ilə aparılan işi müşahidə etmək, həmçinin dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) surətlərini əldə etmək imkanı yaradılır. Müşahidəçi statusu olan şəxslərdən seçki komissiyalarının iclaslarında iştirak etmək və yuxarıda sözügedən sənədlərlə tanış olmaq üçün seçki komissiyalarından əlavə icazə almaq tələb olunmur və onların seçki sənədləri ilə iş aparılan və ya səslər hesablanan yerə sərbəst daxil olmaları təmin edilir.

Aşkarlıq institutunun əsas formalarından olan müşahidəçilik fəaliyyəti ictimaiyyətin xüsusilə önəm verdiyi qarşılıqlı nəzarət funksiyasıdır. Öz mütərəqqiliyi ilə diqqət çəkən Seçki Məcəlləsi həm yerli, həm də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı və fəaliyyəti üçün geniş imkanlar yaradır. Məmnuniyyətlə demək olar ki, Azərbaycan müşahidəçilərin akkreditasiyasına dair Seçki Məcəlləsində nəzərdə tutulan prosedurlar baxımından öz sadəliyinə və rahatlığına görə bir çox ölkələrə nümunədir.

Seçki prosesinin müşahidəsi bir qayda olaraq müşahidəçinin öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında aparılır. Seçki komissiyalarının iclaslarında, seçki sənədləri və səslərin hesablanması ilə əlaqədar işin gedişində media nümayəndələrinin də eynilə iştirak etmək hüququ var. Ölkənin bütün ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq, seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilir. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqları təmsil olunacaq namizədin adı, qeyri-hökumət təşkilatının, siyasi partiyanın, siyasi partiyalar blokunun adı və hüquqi ünvanı göstərilir. İki fotoşəkil də əlavə olunan hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilir. Ərizəçinin müşahidəçi qismində qeydiyyatından imtina olunması halı yalnız ərizədə göstərilən məlumatlar yanlış olduqda baş verə bilər. Müşahidənin aparılmasına icazə verildikdə müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik verilir.

Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə isə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilir. Bu ərizədə də yuxarıda qeyd edilən məlumatlar göstərilir və ərizəyə iki fotoşəkil əlavə olunur. Müşahidənin aparılmasına icazə verildikdə dairə seçki komissiyası müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik verir.

Yeri gəlmişkən, aşkarlığın təminatı və ictimaiyyətin məlumatlandırılmasında mühüm yer tutan media nümayəndələri də seçki komissiyalarının bütün iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollarla və qərarlarla tanış ola, habelə seçki prosesini maneəsiz, tam sərbəst izləyə və müvafiq məlumatları ala bilərlər.

Müşahidəçilik fəaliyyətində başqa bir məqam isə ondan ibarətdir ki, digər seçki subyektləri ilə bərabər yerli və beynəlxalq müşahidəçilər seçki komissiyalarında seçki hərəkətlərinin həyata keçirilməsini, səsvermə prosesi və onun yekunlarının müəyyənləşdirilməsi və seçki protokollarının tərtib olunmasını müşahidə edə bilərlər. Seçki gününədək seçki komissiyasının iclasını müşahidə etmək hüququna yalnız MSK-da qeydiyyatdan keçməklə xüsusi icazə almış müşahidəçilər malikdirlər. Bu qəbildən olan müşahidəçilər püşkatma yolu ilə müəyyən edilir və hər bir seçki komissiyası üçün belə müşahidəçilərin sayının 10-dan artıq olmaması şərti gözlənilir.

Seçki Məcəlləsi, həmçinin keyfiyyətli, obyektiv və qərəzsiz müşahidənin aparılması üçün konkret prinsiplər müəyyən edir: bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməli, müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalı, müşahidə açıq aparılmalı və müşahidənin yekunları faktlara əsaslanmalıdır. Bu, birbaşa seçki prosesinin müşahidəsinin səmərəliliyini artırmağa və seçki praktikasının təkmilləşdirilməsinə xidmət edir.

Qeyd etmək lazımdır ki, müşahidə seçkilər elan olunduğu gündən başlanır və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra seçkilərin yekunlarının rəsmi dərc edildiyi gün bitir. Həm yerli, həm də beynəlxalq müşahidəçilər eyni hüquq və vəzifələrə malikdirlər. Onların seçici siyahıları ilə tanış olmaq, səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsində olmaq, seçki bülletenlərinin verilməsini, səsvermə yerindən kənarda seçicilərin səs verməsini, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək kimi hüquqları var. Müşahidəçilər, habelə seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədi ilə baxa, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış ola, səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət edə bilər. Müşahidəçilər, həmçinin səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların surətini əldə etmək hüququna malikdirlər.

Seçki qanunu müşahidəçilərin fəaliyyəti ilə bağlı bir sıra məsuliyyətləri də özündə ehtiva edir. Belə ki, seçicilərə seçki bülletenləri vermək, seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək, seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək və bülleteni doldurmaq, seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək, seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək, seçicilər arasında təşviqat aparmaq, hər hansı bir namizədin, siyasi partiyanın, siyasi partiya bloklarının dəstəklənməsinə yönəldilən və ya bu cür qiymətləndirilə bilən çağırışlar etmək, seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək və öz statusu ilə bağlı suallar istisna olmaqla, seçicilərin suallarına cavab vermək müşahidəçilərə qadağan edilir. Qanunvericiliyin bu tələblərini pozan müşahidəçinin akkreditasiyası onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə orqanı tərəfindən ləğv oluna bilər.

Azərbaycanda keçirilən seçkilər daim çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, eləcə də yerli və beynəlxalq media nümayəndələrinin iştirakı ilə xarakterizə olunur. Seçkiləri izləmək üçün sadə və operativ həyata keçirilən prosedurlar, ildən-ilə aparılan təkmilləşdirmələr və müasir dünya standartlarına uyğun yeniliklərin uğurla tətbiqi bunun başlıca səbəblərindəndir. Yerli müşahidəçilər MSK və ya dairə seçki komissiyalarında, beynəlxalq müşahidəçilər isə MSK-da akkreditə olunmaqla müvafiq lövhəcik əldə edir və bütün seçki prosesini maneəsiz şəkildə izləmək imkanı qazanırlar. Yalnız belə lövhəciyin olması beynəlxalq müşahidəçiyə seçkilərin hazırlanması və keçirilməsi dövründə fəaliyyət göstərmək imkanı verir. Həm yerli, həm də beynəlxalq müşahidəçilər bütün fəaliyyətləri zamanı qərəzsiz və bitərəf olmalıdırlar. Beynəlxalq media nümayəndələri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində müvafiq akkreditasiyadan keçdikdən sonra MSK-ya müraciət edir və onlar lövhəciklə təmin edilirlər. Seçkilər zamanı yerli media nümayəndələrinin heç bir qeydiyyatdan keçmədən prosesləri izləmələrinə də hərtərəfli şərait yaradılır.

Prezident seçkiləri ilə əlaqədar MSK ardıcıl şəkildə çoxsaylı layihələr həyata keçirib ki, bunların da böyük bir qismi məhz seçki prosesində aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin olunması üçündür. Yerli və beynəlxalq müşahidəçilər, xarici və yerli media nümayəndələri üçün seçki prosesini əvvəldən axıradək sərbəst müşahidə etmək üçün hər cür şərait yaradılıb. Bütün seçki subyektləri, eləcə də müşahidəçilər üçün Azərbaycan, ingilis və rus dillərində müxtəlif maarifləndirmə materialları - "Seçki günü üçün yaddaş", "Müşahidəçilər üçün yaddaş" və s. hazırlanıb, aşağı seçki komissiyalarına və maraqlı subyektlərə çatdırılıb, həmçinin MSK-nın internet səhifəsində yerləşdirilib.

MSK respublikada keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə edir. Azərbaycanın seçki tarixində artıq 16 ildir tətbiq olunan və seçki prosesini canlı, fasiləsiz izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi həqiqətən böyük nailiyyət olmaqla bərabər, seçki praktikasında yeni bir mərhələnin də başlanğıcıdır. Son illərdə keçirilən seçkilərdə olduğu kimi, cari il prezident seçkilərində də 1000 seçki məntəqəsində veb-kamera quraşdırılacaq. Bu proses MSK-nın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə layihəsi və sıx əməkdaşlığı çərçivəsində gerçəkləşdirilir. Veb-kameralar vasitəsilə internet istifadəçiləri istər ölkə daxilindən, istərsə xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesi, səslərin sayılması, nəticələrin müəyyənləşdirilməsi və rəsmi protokolların hazırlanmasını arasıkəsilmədən canlı müşahidə etmək imkanı əldə edir. Builki seçkilərdə şəffaflığın təmin olunmasında iştirak edən çoxsaylı aşkarlıq institutları ilə yanaşı, veb-kameraların da tətbiq olunması internet istifadəçiləri tərəfindən seçki günü proseslərin birbaşa izlənməsinə və beləliklə, aşkarlığın və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasına şərait yaradacaq.

MSK-nın 115 nömrəli qaynar xətti də uzun illərdir ki, seçkilərdə iştirak edən tərəflərin etibarlı məlumat mənbəyinə çevrilib. Müxtəlif mövzularla bağlı avtomatlaşdırılmış telefon və elektron qaynar xətlər vasitəsilə daxil olan sorğular, eləcə də digər hüquqi məsələlər dərhal cavablandırılır və operativ şəkildə müvafiq addımlar atılır.

Seçkilər zamanı səsvermə günü ərzində MSK-ya ötürülən məlumatlar da müxtəlif vasitələrlə birbaşa yayılır. Seçki prosesinin digər mərhələlərində olduğu kimi, seçkilər başa çatdıqdan və seçki məntəqələri bağlandıqdan sonra maraqlı şəxslərin maneəsiz şəkildə məlumat alması məqsədilə ölkə üzrə bütün seçki məntəqələrindən səsvermənin yekunlarına dair daxil olan ilkin məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin xüsusi proqram təminatı vasitəsilə birbaşa Komissiyanın internet səhifəsinə ötürülməklə bütün yerli və beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunur.

MSK-nın internet səhifəsi (**www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az**) də seçki subyektlərinin maarifləndirilməsi və şəffaflığın təmin edilməsində olduqca əhəmiyyətli vasitələrdən biridir. Seçkilərlə bağlı məlumatlar operativ şəkildə səhifədə yerləşdirilir və mütəmadi yenilənir. Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, MSK tərəfindən qəbul edilmiş bütün təlimat, qayda, izah və qərarlar (Komissiyanın iclaslarından dərhal sonra yerləşdirilməklə) Azərbaycan və ingilis dillərində internet səhifəsində mövcuddur. Prezidentliyə namizədlərin irəli sürülməsi və qeydiyyatı barədə MSK-nın qərarları və məlumatlar iclasdan dərhal sonra Azərbaycan və ingilis dillərində internet səhifəyə qoyulub. Bundan başqa seçki dairələrinin və seçki məntəqələrinin dislokasiyası, seçicilərin axtarış sistemi, əvvəlki seçkilərlə bağlı məlumatlar, qeydə alınmış namizədlər haqqında məlumat, seçki komissiyalarının tərkibi, ünvanı, əlaqə məlumatları, seçki məntəqələrinin ünvanı və xəritəsi, seçicilərin siyahısı, seçkiqabağı təşviqatla əlaqədar məlumatlar, MSK-nın mətbuat bülletenləri və ictimaiyyət üçün maraq kəsb edən digər informasiyalar da internet səhifəsinə yerləşdirilib. Komissiyanın sosial media platformalarındakı səhifələrində də məlumatlar mütəmadi yerləşdirilməklə ictimailəşdirilir.

Qeyd olunan bütün vasitə və hüquqi əsaslar qarşıdan gələn prezident seçkilərinin də geniş aşkarlıq mühitində azad və ədalətli şəkildə keçirilməsinə, proseslərin bütün ictimaiyyət, xüsusilə də Azərbaycan xalqı və seçicisi üçün şəffaf olmasına öz layiqli töhfəsini verəcəkdir.

***Rəşid YUSİFBƏYLİ,***
***Mərkəzi Seçki Komissiyası Katibliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri***

# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Seçkilərə hazırlıq prosesində fəallıq müşahidə olunur

**Növbədənkənar prezident seçkiləri otuz ildən sonra işğaldan azad edilmiş ərazilərimizdə - Qarabağımızda, Şərqi Zəngəzurumuzda da keçiriləcək. Bu, hər bir azərbaycanlını fərəhləndirir, qürurlandırır. Çünki Azərbaycan xalqı tarixdə ilk dəfə olaraq qalib ölkə vətəndaşı kimi seçkilərdə iştirak edəcək. Uzun illər doğma ocaqları üçün darıxan, dədə-baba yurdunun həsrətini çəkən, böyük zəfərimizdən sonra başlanan quruculuq, tikinti, abadlıq işləri nəticəsində geri qayıdan sakinlərin sevincini təsvir etmək mümkünsüzdür.**



Yurdu, evi işğalçı ermənilər tərəfindən qəsb edilən və otuz il Ermənistan silahlı qüvvələri tərəfindən əsarət altında saxlanılan, məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalan bu insanların yuxuları çin olub, ən böyük arzuları gerçəkləşib.

Qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi Qarabağda, Şərqi Zəngəzurda üç ildir ki, genişmiqyaslı, sürətli abadlıq, yenidənqurma işləri həyata keçirilir. Artıq dədə-baba yurdunda tikilmiş yeni evlərinə köçürülüb yaşayanlar da var, yır-yığış edib yol gözləyənlər də. Doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlər üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb.

Yenidən həyatın canlanmağa başladığı Şuşada, Laçında, Cəbrayılda, Qubadlıda, Ağdamda, Füzulidə, Zəngilanda, Ağdərədə, Kəlbəcərdə, Xocalıda, Xankəndidə, Xocavənddə də bu il səsvermə keçiriləcək. Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində əhalinin daimi məskunlaşdırıldığı yaşayış məntəqələrimizdə seçicilərin yüksək fəallıq nümayiş etdirəcəyi gözlənilir. İşğaldan azad edilən ərazilərimizdə artıq 26 seçki məntəqəsi təşkil olunub. Bu seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb. Seçicilərin 3700 nəfəri qeyd olunan ərazilərə daimi yaşamaq üçün qayıdanlardır. 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır.

Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində ilk dəfə səs verəcək ölkə vətəndaşlarının sevinci isə ikiqatdır. Çünki onlar birinci səsvermə hüquqlarından qalib ölkə vətəndaşı kimi istifadə edəcəklər. Hazırda həmin gənclərin maarifləndirilməsi üçün də bir sıra işlər aparılır.

Bunlardan biri də Azərbaycan Respublikası prezident seçkilərində ilk dəfə səs verəcək tələbələr üçün seçki hüququ ilə bağlı təşkil olunan seminarlardır. Bu maarifləndirici seminarlar Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı və Mərkəzi Seçki Komissiyasının (MSK) dəstəyi ilə keçirilir. "Secki-2024.az saytının xəbərinə görə, seminarların təşkilində əsas məqsəd tələbə gəncləri seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə məlumatlandırmaq, eləcə də fevralın 7-də keçiriləcək seçkilərdə ilk dəfə seçici kimi iştirak edəcək gənclərin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasıdır.

Bu il yanvarın 12-dən 24-dək təhsil müəssisələrində keçirilən sessiyalarda səsvermə hüququna malik ümumilikdə 15 minə yaxın tələbə iştirak edib.

Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin iştirakı ilə reallaşan görüşlərdə gənclərə səsvermə proseduru, eləcə də seçki gününədək və seçkilər zamanı bilməli olduqları zəruri hüquqi məsələlər çatdırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Məlumatda o da bildirilib ki, mütəmadi təşkil olunan sessiyalara ötən ilin dekabrın 27-dən etibarən başlanılıb. İndiyədək 100-dən çox təhsil müəssisəsində görüşlər keçirilib. Genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində baş tutan məlumat sessiyalarının ölkə üzrə fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin hər birində davam etdirilməsi nəzərdə tutulub.

Fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərinin bütün ölkə ərazisində yaradılmış hər bir seçki məntəqəsində demokratik əsaslarla keçirilməsi üçün işlər aparılır. Səffaflığın təmin edilməsində qeyri-hökumət təşkilatları (QHT) da yaxından iştirak edir. Seçki müşahidəçisi kimi onların müraciətlərində yüksək fəallıq qeydə alınıb. "Secki-2024.az" saytının məlumatına görə, artıq ölkədə fəaliyyət göstərən QHT-ləri, vətəndaş cəmiyyəti institutlarını, ictimai birlikləri təmsil edən 6045 nəfərə prezident seçkilərini izləmək üçün müşahidəçilik vəsiqəsi təqdim edilib.

Müqayisə üçün bildirilib ki, seçki günü respublikanın bütün ərazisində müşahidə aparacaq QHT-lərin sayı bu dəfə 2018-ci ildə keçirilmiş prezident seçkiləri ilə müqayisədə təxminən 4 dəfə artıb. Məlumata əsasən, müşahidə prosesinə qoşulacaq QHT-lərin sayında da rekord göstərici qeydə alınıb. Belə ki, hazırkı prezident seçkilərinin birbaşa izlənilməsinə qatılan bu kateqoriyadan olan müşahidəçilər ümumilikdə 78 qeyri-hökumət təşkilatını əhatə edir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Prezident seçkisi demokratik inkişafın növbəti təntənəsi olacaq

**"Azərbaycanda azad, demokratik və şəffaf seçkilərin keçirilməsi üçün lazımi şərait mövcuddur. Ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür və bu, seçkilərin normal keçirilməsi üçün vacib şərtlərdən biridir. Mövcud olan mükəmməl qanunvericilik bazası da bu baxımdan önəmlidir. Seçki Məcəlləsi, bu sahəni əhatə edən qanun və qərarların mövcudluğu Azərbaycanda beynəlxalq standartlara uyğun seçki qanunvericiliyinin olduğunu təsdiq edir. Zərurət yarandıqca isə seçkilərin daha şəffaf keçirilməsinə xidmət etmək üçün qanunvericilik daha da təkmilləşdirilə bilər".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərini də demokratik təşkil etmək üçün güclü siyasi iradə mövcuddur. Bu seçkilərdə ölkə vətəndaşları, seçicilər sərbəst şəkildə seçki məntəqələrinə gəlib istədikləri namizədə səs verəcəklər. Bu seçkilər ölkəmizin demokratik inkişaf yolunda növbəti nailiyyəti olacaq.

Sevinc Fətəliyeva qeyd edib ki, Mərkəzi Seçki Komissiyası və aşağı seçki komissiyaları prezident seçkiləri ilə əlaqədar üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Seçki prosesinin uğurlu təşkili və həyata keçirilməsi üçün maddi-texniki təminat məsələləri də yüksək səviyyədə həllini tapıb. Eyni zamanda, seçkilərə beynəlxalq səviyyədə də maraq böyükdür. Çoxsaylı beynəlxalq müşahidəçilərin prosesi izləmək üçün müraciət etməsi bunu təsdiqləyir.

Deputatın sözlərinə görə, ölkəmizdə seçki əhvali-ruhiyyəsi yüksəkdir: "7 nəfər namizədin seçki marafonuna qoşulması fəal kampaniyanın aparılmasından xəbər verir. Şübhə yoxdur ki, növbəti 7 il ərzində xalqın doğru seçimi sayəsində Azərbaycan daha möhtəşəm nailiyyətlər əldə edəcək. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Azərbaycanda və regionda yeni reallıqlar yaranıb, ölkəmiz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Belə olan halda, növbədənkənar seçkilərin keçirilməsi mühüm qərardır".

Sevinc Fətəliyeva onu da deyib ki, müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək: "Ona görə də, bu seçkilər Zəfər seçkisi kimi xarakterizə olunur. Bütün bunların fonunda fevralın 7-də keçiriləcək prezident seçkiləri xalqın etimadına olan əminliyin ən bariz göstəricisidir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



## Sumqayıtlılar bu seçkilərdə də fəallıqları ilə fərqlənəcəklər

**Seçkilər yaxınlaşdıqca dairə və məntəqələrdə işlər daha intensiv xarakter alır. 45 saylı Sumqayıt 4-cü Seçki Dairəsinin 1 saylı məntəqəsi Sumqayıt Dövlət Dram Teatrının binasında təşkil edilib. Məntəqədəki kabinələr tam hazır vəziyyətdədir. Binanın çölündə hər bir namizədin şəkli və platforması asılıb. Sakinlər həmin plaformalarla tanış olur və bununla səs verəcəkləri namizədi daha yaxından tanıyırlar.**



Məntəqənin sədri Vidadi Məmmədov bizimlə söhbətində bildirdi ki, dəqiqləşdirilən siyahı üzrə seçicilərin sayı 1487 nəfərdir. Siyahı hazırlanandan sonra məntəqə seçki komissiyasının üzvləri Sevinc Mehdiyeva, Rüxsarə Ağalarova və Məxmirə Məmmədova məntəqənin əhatə dairəsində olan 3 məhəllə üzrə sakinlərlə görüşmüş və onları seçkidən kənarda qalmamağa çağırmışlar.

Biz məntəqədə olan zaman ilk dəfə səs verəcək Nurtac Əliyeva, Murad Muradov, Amin Məmmədli ilə rastlaşdıq. Nurtac dedi ki, bu seçkinin ölkəmiz üçün əhəmiyyəti böyükdür: "İşğaldan azad edilən torpaqlarımız da daxil olmaqla xalqımız ilk dəfə bütün ölkə ərazisində səs verəcək. Mən bu seçkiyə bayram kimi baxıram. 30 ildən sonra biz Azərbaycanın ərazi bütövlüyünü təmin etdik. Qarşıda bizi daha uğurlu gələcək gözləyir. Bir gənc olaraq indi borcum səsvermədə iştirak edib layiqli namizədə səs verməkdir".

1938-ci il təvəllüdlü Siranuş Kərimova ilə də məntəqədə rastlaşdıq. Siranuş nənə bildirdi ki, nəvəsiylə yaxınlıqdan keçdiyi üçün bura təşrif buyurub. Seçki günü məntəqəyə gələcəyini və istədiyi namizədə səs verəcəyini deyən S.Kərimova ölkəmizin inkişafında mühüm mərhələ olan bu seçkinin hər bir kəsin gələcək həyatında iz qoyacağını söylədi.

Vidadi Məmmədov bildirdi ki, məntəqədə seçkinin demokratik keçirilməsi üçün lazım olan bütün işlər görülüb. Daşınmaz və daşınan qutular gətirilib, generator quraşdırılıb, telefon və internet xətti çəkilib və s. Müşahidəçilərin sayı isə seçki günü dəqiqləşəcək. Səsvermə günü məntəqəyə müəyyən səbəblərdən gələ bilməyəcək seçici olarsa, bununla bağlı da tədbir görülüb, məntəqəyə avtomobil ayrılıb.

Respublikamızda keçirilən bütün seçkilərdə sumqayıtlılar fəallıq göstəriblər. Heç kim şübhə etmir ki, 7 fevral növbədənkənar prezident seçkilərində də belə olacaq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Səsvermə ölkə hüdudlarından kənarda ilk Cənubi Koreyada başlayacaq

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpasından sonra ölkəmizdə keçiriləcək ilk seçki olan növbədənkənar prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan vətəndaşlarının səsvermə hüquqlarının təmin olunması məqsədilə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.



Fevralın 7-də prezident seçkiləri ilə əlaqədar xaricdəki məntəqələrdə səsvermə prosesi ilk olaraq ölkəmizin Koreya Respublikasındakı səfirliyində yaradılmış məntəqədə başlayacaq.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahəyə aid digər qanunvericilik aktlarına uyğun olaraq, Cənubi Koreyada yaşayan vətəndaşlarımızın da seçki hüququnun təmin edilməsi məqsədilə ölkəmizin Seuldakı səfirliyi lazımi iş aparır. Seçki Məcəlləsinə uyğun olaraq Azərbaycanın Cənubi Koreyadakı səfirliyində seçki məntəqəsi yaradılıb, məntəqə seçki komissiyasının üzvləri, katibləri və sədri seçilib.

Cənubi Koreyada daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan 18 yaşına çatmış vətəndaşlarımızın seçki hüququnun təmin edilməsi məqsədilə onlar qeydiyyata alınaraq səfirlik tərəfindən seçici siyahıları hazırlanıb və Mərkəzi Seçki Komissiyasına təqdim edilib. Səsvermədə iştirakla əlaqədar konsulluq qeydiyyatında olan vətəndaşlarımız məlumatlandırılıb, səfirliyin rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında məlumatlandırıcı paylaşımlar edilib. Bundan başqa, səfir Ramin Həsənov Cənubi Koreyada təhsil alan tələbələrimizlə görüşərək onları səsvermədə fəal iştiraka dəvət edib.

Qeyd edək ki, qanunvericiliyə uyğun olaraq, prezident seçkiləri ilə əlaqədar səsvermə ölkələrin yerli saat qurşaqlarına uyğun olaraq 08:00-da başlayacaq və 19:00-da başa çatacaq. Azərbaycanın seçki məntəqələri yaradılmış diplomatik missiyalarında səsvermə ölkəmizin Koreya Respublikasındakı səfirliyində başlayacaq, ABŞ-ın Los-Anceles şəhərindəki baş konsulluğunda tamamlanacaq.

## Vətəndaşların seçki hüququnun təmini ilə bağlı növbəti "dəyirmi masa"

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə əməkdaşlığı çərçivəsində növbədənkənar prezident seçkiləri ilə əlaqədar "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda maarifləndirmə tədbirləri davam etdirilir.**

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə növbəti "dəyirmi masa" Quba rayonunda təşkil olunub. Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı maarifləndirmə tədbirlərinin məhz seçkiyə hazırlıq məqsədilə həyata keçirildiyini bildirib. A.Səfixanlı müşahidəçilik institutunun əhəmiyyətinə toxunaraq təsisatın bu prosesdəki rolunun seçki hüququnun daha səmərəli təmininə xidmət etdiyini deyib.

Mərkəzi Seçki Komissiyasının üzvü Validə Kazımova MSK tərəfindən görülən işlərdən danışaraq müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə yaddaş kitabçalarının hazırlandığını diqqətə çatdırıb.

MSK-nın əməkdaşı Şirzad Məmmədli növbədənkənar prezident seçkilərinə hazırlıq məqsədilə komissiya tərəfindən həyata keçirilən və nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Müzakirələr zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Zəruri hazırlıq işləri görülür

**Fevralın 7-nə təyin edilmiş Prezident seçkilərilə əlaqədar Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi bütün zəruri hazırlıq işlərini görür.**

Bu barədə secki-2024.az saytının sorğusuna cavab olaraq səfirlikdən bildirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti seçkilərində ölkə hüdudlarından kənarda yaşayan vətəndaşların seçki hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi tərəfindən müvafiq inzibati və təşkilati-texniki tədbirlərin görülməsi davam etdirilir.

Səfirlik tərəfindən ölkə hüdudlarından kənarda yaşayan və 18 yaşına çatmış vətəndaşlarımızdan ibarət seçici siyahıları hazırlanaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunub.

Həmçinin qeyd olunub ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olan diplomatik nümayəndəlik və konsulluqlarda səsvermə həyata keçiriləcək. Belə ki, seçkilərin rahat təşkili məqsədilə səfirlikdə iki seçki məntəqəsi fəaliyyət göstərəcək. Həmin seçki məntəqələrində səsvermə yerli vaxtla saat 08:00-da (Bakı vaxtı ilə saat 09:00) başlayacaq və saat 19:00-da (Bakı vaxtı ilə saat 20:00) tamamlanacaq.

"Səsvermə prosesi Azərbaycan Respublikası Konstitusiyası, Seçki Məcəlləsi və bu sahədə digər qanunvericilik aktlarına uyğun olaraq aparılacaq.

Səsvermənin azad, ədalətli, demokratik və şəffaf keçirilməsi üçün bütün şərait yaradılıb", - deyə səfirlikdən bildirilib.

# Seçkilərdən seçkilərə

# *Azərbaycan:* rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı

**Azərbaycan dövlətinin 2030-cu ilə qədər qarşıya qoyduğu milli inkişaf prioritetlərindən biri də rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmaqdır. Digər milli inkişaf prioritetləri sırasında bu istiqamətin də özünə mühüm yer tutması qətiyyən təsadüfi deyil.**












Son onilliklərdə dünya iqtisadiyyatında böyük texnoloji dəyişikliklər müşahidə olunur. Ölkələr arasında rəqabət getdikcə güclənir. Rəqəmsal həllər həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilir. Getdikcə əksəriyyət fərqindədir ki, yaxın gələcəkdə perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə xarakterik olacaq. Ona görə də gələcəyi indidən görməyi bacaran ölkələr, bu ölkələrin liderləri dünyada artan rəqabətə hazırlıq üçün yüksəksəviyyəli insan kapitalının formalaşdırılması barədə düşünürlər. Müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı isə bu məsələdə ən başlıca şərtlərdəndir. Azərbaycan dövləti də 2030-cu ilə qədər bu istiqamətdəki strateji hədəflərə nail olmaqdan ötrü əsrimizin tələblərinə uyğun təhsil sisteminin formalaşdırılmasını, yaradıcı və innovativ cəmiyyət quruculuğunu, vətəndaşların sağlam həyat tərzinin təmin edilməsini qarşıya məqsəd qoyur.









## 50 ildən sonra yenidən Bakıda

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyətin inkişafın aparıcı qüvvəsinə çevriləcəyini nəzərə alaraq dövlətimiz ölkəni rəqabətdə irəli aparmaq üçün onun innovativliyini stimullaşdıran ekosistemin yaradılmasına çalışır. Bu ekosistemin iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaq, texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılır. Bu məqsədlə emal sənayesinin inkişafının dərinləşdirilməsi, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı istiqamətində addımlar atılır. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmlərinin formalaşdırılmasına səy göstərilir.

İnsan kapitalı və müasir innovasiyalar məkanına çevrilmək, yaradıcı və innovativ cəmiyyət qurmaq istiqamətində aparılan proseslərdə Azərbaycanın bu hədəflərin əldə olunmasına dəstək verən tədbirlərə evsahibliyi də mühüm yer tutur. Ötən il 74-cü Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi bu baxımdan əlamətdar oldu. Xatırladaq ki, konqres 50 il əvvəl, 1973-cü ildə də Azərbaycanda təşkil olunmuşdu. Kosmonavtikanın dünyada, demək olar ki, ən populyar sahə sayıldığı həmin illərdə sovet Azərbaycanının belə bir tədbirə evsahibliyi, dünyanın ən məşhur simalarının Bakıda toplaşması, o dövrdə ölkəmizə rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyinin, müdrikliyinin təzahürü idi.

50 ildən sonra paytaxtımızda yenidən təşkil olunan Beynəlxalq Astronavtika Konqresinə 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı qatılmışdı. Bu konqresin əsas məqsədlərindən biri də aparılan faydalı müzakirələrdən başqa, qonaqlara Azərbaycanı, xalqımızı, tariximizi, mədəniyyətimizi daha yaxından tanımaq imkanı da qazandırdı.

Beynəlxalq konqresin açılış mərasimində son illərdə gücləndirilən əməkdaşlıq əlaqələrindən, milli-mədəni irsimizdən, qazanılan uğurlardan geniş danışıldı. Qeyd olundu ki, ölkəmizin qitələrarası körpü olması cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olmuşdur. Otuz ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Bu, sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktordur. "BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. ...Ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır. Azərbaycan on ildən çoxdur ki, Bakı Prosesinin təşəbbüskarıdır". Mərasimdə o da qeyd olundu ki, müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və bu, o deməkdir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunur. Ölkə dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır.

Çıxışlarda üç il əvvəl təxminən 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzün bərpasına da geniş yer verildi. Xüsusi vurğulandı ki, 1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt, respublika yoxsulluq şəraitində idi. Təbii sərvətlərimizin istismarına hələ başlanmamışdı.

Lakin xalqımız güclü siyasi iradəsini nümayiş etdirdi. Bu, konqresdə də səsləndi: "Biz uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışdıq. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq, lakin əfsuslar ki, biz anladıq: bunu sülh yolu ilə etmək mümkünsüzdür. Biz özünümüdafiə hüququmuzdan istifadə etdik. BMT nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və üç il əvvəl öz ərazilərimizi azad edərək işğala son qoyduq. ...Ölkəmizin suverenliyini tam bərpa etdik". Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Bugünkü gündəliyimiz Qafqazda sülhün, əməkdaşlığın qurulmasıdır.

## Kosmik ailənin üzvü

Azərbaycan artıq beynəlxalq kosmik ailənin üzvüdür. Ölkəmizin kosmosda öz peykinə sahib olması ilə bu statusu qazanmasından 10 ildən də çox vaxt keçir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik dövlət kimi Azərbaycan kosmik sənayenin inkişafını davam etdirir. Bu üç peykin məhz azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunması, onların təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərməsi böyük uğurumuzdur. Belə bir nailiyyət ölkəmizin bu sahədə lazımi kadr potensialına malik olduğunu, istedadları yetişdirərək inkişaf etdirmək əzmini göstərir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə hətta zəngin təbii sərvətləri belə üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə geniş biliklərə, bacarıqlara, səriştə və vərdişlərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Dövlətlərin liderləri məhz bu reallıqdan çıxış edir və böyük yüksəlişin təmin olunmasına çalışırlar.

Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycan dövlətinin kosmik sənayenin inkişafı istiqamətində qarşıya qoyduğu hədəflərə sadiqliyindən, qlobal səviyyədə bu prosesə töhfələrindən xəbər verirdi. Bakıda keçirilən konqres bu istiqamətdə yeni üfüqlər açdı. Ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafı, müasirləşdirilməsi üçün yeni imkanlar yaratdı.

## Coğrafiya fürsətdir

"Hesab edirəm ki, dünyanın hər bir ölkəsi üçün coğrafi yerləşmə böyük əhəmiyyət kəsb edir. Bizim üçün isə coğrafiya fürsət deməkdir. Əsrlər boyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstəricisi hesab edirik" - konqresin açılış mərasimində belə bir fikrin səslənməsi Azərbaycanın geostrateji mövqeyinin, qitələrarası körpü rolunu oynamasının cəmiyyətimizin inkişafında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha göstərdi.

Beynəlxalq tədbirdə Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətlərə xüsusi diqqət yetirildi. Bildirildi ki son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən, xarici ticarət dövriyyəsi isə on dəfədən çox artıb. Xarici borcumuzun həcmi azalmış və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Ölkəmiz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışdır. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.

Bütün bu proseslərlə, tədbirlərlə Azərbaycan qlobal əhəmiyyətini daha da gücləndirir. Dünyada baş verənlərə müsbət təsir imkanlarını genişləndirir. Tarix boyu qazanılmış nailiyyətləri qorumaqla onların formalaşdırdığı möhkəm təməllər üzərində yeni uğurlarını yaradır. Beynəlxalq Astronavtika Konqresi də bu baxımdan səciyyəvi idi. Bir tərəfdən ölkəmiz 50 ildən sonra növbəti dəfə belə bir mühüm tədbirə evsahibliyi edir, bunun tarixi hekayəsi böyük sevgi və rəğbət hissi ilə xüsusi vurğulanırdı. Eyni zamanda bütün dünya onu da görürdü ki, bu Azərbaycan 50 il əvvəlki Azərbaycan, bu Bakı 50 il əvvəlki Bakı deyil. Müstəqillik neməti 30 ildən də çox müddət ərzində bu ölkənin həyatında misilsiz inkişaf dəyişiklikləri yaradıb.

## Azərbaycana daxil olan inkişaf axını

Bu gün rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı prioriteti ilə bağlı inkişaf axınlarının mühüm bir qisminin Azərbaycana Türkiyə vasitəsilə bu qardaş ölkədən daxil olması da çox önəmlidir. Məlum olduğu kimi, Türkiyə müasir dünyamızda Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzi sayılır. Böyük bir coğrafiyada bu ölkənin önəmi, rolu gündən-günə artır. Türkiyənin güclü sənayesi onun özü ilə yanaşı, bu ölkənin müttəfiqlərini, o cümlədən strateji müttəfiqi olan Azərbaycanı da gücləndirir. Türk Ordusu bu gün dünyada ən irəlidə gedən ordulardandır. Ölkənin müdafiə sənayesi bütün dünyada qəbul olunur. Onun texnologiyalar sahəsində əldə etdiyi nailiyyətlər, yaratdığı güclü təsirlər Azərbaycanda da innovativ cəmiyyətin inkişafına, ekosistemin qurulmasına böyük təkan verir.

Bu baxımdan Aviasiya, Kosmik və Texnologiya Festivalının - "TEKNOFEST"in rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycan son onillərdə bu festivala fəal şəkildə dəstək verir. Məlum olduğu kimi, 2022-ci ildə "TEKNOFEST" Azərbaycanda keçirildi və ölkəmizin evsahibliyi etdiyi tarixi tədbirlərdən biri kimi yadda qaldı. Ötən ilin aprelində Türkiyədə keçirilən "TEKNOFEST" festivalında da Azərbaycan ən yüksək səviyyədə təmsil olundu.

Bütün bunlar Azərbaycan və Türkiyə münasibətlərini daha da yaxınlaşdırır, ölkəmizdə texnologiyalar ekosisteminin inkişafına böyük təkan verir, elmi tədqiqatlara maraq yaradır, startaplara meydan verir, xüsusilə gənc istedadları motivasiya edir, cəmiyyətimizdə texnoloji təcrübələr formalaşdırır və bütün cəhətləri ilə bizi milli hədəflərimizə yaxınlaşdırır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ölkəmizin dünyada 200 ticarət tərəfdaşı var

**Son illərin statistik rəqəmləri göstərir ki, ölkəmizin xarici ticarətdə də reytinqi yüksəkdir. Belə ki, bu sahədə saldo ölkəmizin xeyrinədir, yəni ixrac etdiyimiz məhsulların dəyəri idxal mallarının dəyərindən çoxdur.**

Sirr deyil ki, həyata keçirilən iqtisadi islahatlar sayəsində xüsusən qeyri-neft sektorunun inkişafında sanballı nəticələr əldə olunmuşdur. Faktlara müraciət edək: 2003-cü ildə ölkə üzrə qeyri-neft-qaz sahəsində istehsalın dəyəri 2 milyard manat olduğu halda, 2022-ci ildə 17,7 milyard manata çatmışdır ki, bu da 4,1 dəfə artım deməkdir. Həmin dövrdə xarici ticarət dövriyyəsinin dəyəri isə 5,2 milyard dollardan 51,2 milyard dollara yüksəlmiş, o cümlədən ixracın dəyəri 2,6 milyard dollardan 38,6 milyard dollara qədər artmışdır.

Qeyri-neft sektorunun inkişafı yola saldığımız ildə də davam edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin açıqladığı məlumata görə, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2023-cü il ərzində hüquqi və fiziki şəxslər tərəfindən 1564 müraciət daxil olub, 3607 sertifikat (2038 fitosanitar sertifikatı, 1373 mənşə sertifikatı, 144 CİTES sertifikatı, 52 baytarlıq sertifikatı) verilib. İl ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 242,9 milyon dollar dəyərində ixrac həyata keçirilib. Mərkəz üzərindən qeyri-neft məhsullarının aylıq ixracında ən yüksək göstərici (42 milyon dollar) noyabr ayında qeydə alınıb. Üstəlik, "Azexport"un xətti ilə 46 adda məhsula birillik "Sərbəst satış" sertifikatı verilib.




Ümumilikdə ölkənin xarici ticarət sahəsi üzrə açıqlanan son rəqəmlərə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin yanvar-noyabr aylarında Azərbaycan dünyanın 200 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir, 120 ölkəyə mal ixrac, 190 ölkədən idxal olunmuşdur.

Həmin dövrdə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla xarici ticarət dövriyyəsinin dəyəri 41 milyard 187 milyon, o cümlədən ixracın dəyəri 25 milyard 374,3 milyon, idxalın dəyəri 15 milyard 812,7 milyon dollar olmuşdur. Nəticədə 9 milyard 561,6 milyon dollarlıq müsbət saldo yaranmışdır. 2022-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 19,7, real ifadədə 4,8 faiz azalmış, o cümlədən idxal real ifadədə 5,1 faiz artmış, ixrac isə 8,2 faiz azalmışdır. Sözügedən dövr xarici ticarət dövriyyəsində 90,8 paya malik olan əsas tərəfdaşlarımız İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, İsrail, Yunanıstan, Hindistan, ABŞ, Gürcüstan, İspaniya, Çexiya, Birləşmiş Krallıq, Türkmənistan, Rumıniya, Xorvatiya, Fransa, Vyetnam, Bolqarıstan, İran, Yaponiya, İrlandiya və Koreya olmuşdur.

İdxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, mineral məhsullarının, kimya sənayesi məhsullarının, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, toxuculuq materialları və məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil etmişdir.

İxracın strukturunda isə xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə-tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının dəyəri daha çox olmuşdur.

Bir məsələni də qeyd edək ki, həmin dövr bir çox mühüm ərzaq məhsullarının idxalı xeyli azalmışdır. Səbəb isə təbii ki, daxildə həmin məhsulların istehsalının artmasıdır. Məsələn, ötən ilin yanvar-noyabr aylarında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı - meyvənin 22, meyvə və tərəvəz şirələrinin 38,7, meyvə və tərəvəz konservlərinin 23, təbii üzüm şərabları və üzüm suslosunun 13,7, marqarin, qida üçün yararlı digər qarışıqların 40,3 faiz, artmışdır.

Ümumilikdə ötən ilin 11 ayında qeyri-neft-qaz məhsulları ixracının dəyəri 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 10,5, real ifadədə 5,2 faiz artaraq 3 milyard 33,7 milyon dollara çatmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 12 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 5 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 19 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 28 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 16 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 8 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 9 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 15 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 14 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 21 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 19 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 22 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 29 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 6 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 9 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 6 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 26 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 20 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 27 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 13 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14.**

# Özbək xalqı Azərbaycanın ərazi bütövlüyünü tam təmin etməsini və qazandığı uğurları qürur hissi ilə izləyir



Ölkəmizdə səfərdə olan Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini Akmal Saidovun başçılıq etdiyi nümayəndə heyəti ilə Qafqaz Müsəlmanları İdarəsində (QMİ) görüş keçirilib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə nümayəndə heyətinin belə geniş və nüfuzlu tərkibdə ölkəmizə səfərini iki dost və qardaş ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının daha bir göstəricisi kimi dəyərləndirib. "Tarixi köklər, ortaq dini-mədəni dəyərlər üzərində formalaşan bu münasibətlərin davamlı inkişafı və xalqlarımızın rifahı üçün Allah-Təalaya dualar edirəm. Qonaqların mühüm hadisə - seçkilər ərəfəsində təşrif buyurmaları xüsusilə əlamətdardır", - deyə Allahşükür Paşazadə qeyd edib.

Şeyxülislam Azərbaycan Prezidenti İlham Əliyev ilə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında səmimi dostluğa və qarşılıqlı etimada söykənən münasibətlərin dövlətlərimizin tərəqqisinə vəsilə olacağına inandığını bildirib. Azərbaycanın haqlı mövqeyini beynəlxalq müstəvidə daim dəstəklədiyinə görə Özbəkistan dövlətinə minnətdarlığını bildirən QMİ sədri Qarabağ Zəfərindən sonra erməni işğalından azad edilən Füzuli şəhərində Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbin inşasını və açılış mərasimində Özbəkistan dövlət başçısının şəxsən iştirakını qardaş özbək xalqının mənəvi dəstəyi kimi dəyərləndirib. Qeyd edib ki, Azərbaycan xalqı üçün dostların mənəvi dəstəyi hər zaman qiymətlidir.

Ölkəmizdə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan din-dövlət münasibətlərinin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Şeyxülislam Allahşükür Paşazadə bu sahədə atılan addımlardan, həyata keçirilən işlərdən danışıb, Azərbaycanın dünyada dinlər, məzhəblər və mədəniyyətlərarası dialoqa çox mühüm töhfələr verdiyini qeyd edib. O, QMİ ilə Özbəkistan Müsəlmanları İdarəsi arasında əlaqələrin səviyyəsindən razılığını bildirib, son illər bu münasibətlərin daha bir ciddi platformada - Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarə Rəhbərləri Şurasında davam etdiyini vurğulayıb, bu qurumun xətti ilə mühüm addımların atıldığını deyib.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini Akmal Saidov səfər çərçivəsində keçirdiyi görüşlər barədə məlumat verib. Qonaq vurğulayıb ki, özbək xalqı Azərbaycanın ərazi bütövlüyünü tam təmin etməsini, siyasi, iqtisadi, o cümlədən dini dözümlülük və multikulturalizm sahəsində qazandığı uğurları sevinc və qürur hissi ilə izləyir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Özbəkistanla parlamentlərarası dostluq qrupunun üzvləri, Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov da iştirak ediblər.

# Zəngilanda Ekoloji məsələlər üzrə İşçi qrupunun iclası olub



Yanvarın 26-da Zəngilan şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 və 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumlar tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında bərpa-quruculuq işləri, layihələrinin icrası zamanı ekoloji dayanıqlığın təmin olunması, Azərbaycan-Türkiyə əməkdaşlığı çərçivəsində Cəbrayıl rayonunda meşəçilik sahəsində görülmüş işlər, Zəngilan və Cəbrayıl rayonlarında aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, Cəbrayıl rayonunda kəhrizlərin bərpası və su ehtiyatlarının idarə olunmasında onlardan istifadə perspektivləri, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə minimum təsirə nail olunması, yol tikintisi işlərində tələb olunan xammal təminatı, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, işğaldan azad edilmiş ərazilərdə ekoloji qiymətləndirmə və yaşıllaşdırma layihələri üzrə aparılan minatəmizləmə fəaliyyəti, bərk məişət tullantılarının idarə olunması və Şərqi Zəngəzur iqtisadi rayonunda icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 8 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 9, 16, 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 9, 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Əməliyyat-taktiki fakültənin dinləyicilərinin növbəti buraxılış mərasimi



Yanvarın 26-da Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Əməliyyat-taktiki fakültənin təkmilləşdirmə kursunun növbəti buraxılışına həsr olunan mərasim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi İdarəetmə İnstitutunun rektoru, milli təhlükəsizlik və hərbi elmlər doktoru, professor, polkovnik Bəbir Quliyev kursu müvəffəqiyyətlə bitirən zabitləri müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar və yeni nailiyyətlər arzulayıb.

Ali Baş Komandanın göstərişinə əsasən ordu sıralarında xidmət edən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılması istiqamətində görülən işlər və bu cür kursların əhəmiyyəti xüsusi vurğulanıb.

Çıxış edən məzunlar öz növbələrində Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbərliyinə, professor-müəllim heyətinə bütün dinləyicilər adından dərin minnətdarlıqlarını bildirib, kurs müddətində əldə etdikləri bilik və bacarıqları tabeliklərində olan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının artırılmasında tətbiq edəcəklərinə söz veriblər.

Sonra Əməliyyat-taktiki fakültənin məzunlarına fəxri fərman və sertifikatlar təqdim olunub.

# XRİTDX-də ötən ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində (XRİTDX) ötən ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. XRİTDX-dən AZƏRTAC-a bildirilib ki, iclası Xidmət rəisi, general-leytenant İlqar Musayev açaraq 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" olması ilə əlaqədar il ərzində qurum tərəfindən Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş tədbirlərin yüksək səviyyədə həyata keçirildiyi haqqında məlumat verib.



Xidmət rəisi 2023-cü ildə dünyada gedən mürəkkəb ictimai-siyasi proseslərdən, Ali Baş Komandan İlham Əliyevin apardığı uzaqgörən və çoxsahəli siyasəti nəticəsində son illərdə ölkəmizin yeni inkişaf mərhələsinə keçməsi haqqında məlumat verib. İ.Musayev fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin operativ idarə olunmasında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rolu, struktur bölmələrinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, şəxsi heyətin seçkilərə hazırlıq vəziyyəti və digər aidiyyəti məsələlər barədə ətraflı danışıb.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsinin inkişafına xüsusi diqqət və qayğısı qeyd olunub və bunların nəticəsi olaraq hesabat ili ərzində aidiyyəti sahə üzrə bir sıra önəmli sərəncam və fərmanların verildiyi, müvafiq qərarların qəbul edildiyi bildirilib.

Müşavirədə Xidmətin struktur bölmə rəhbərləri fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat məruzələri ilə çıxış ediblər. Məruzələrdə hesabat dövründə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Azərbaycanın dövlət orqanlarının xüsusi dövlət rabitəsi, hökumət rabitəsi, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemləri və şəbəkələri ilə təmin edilməsi, dövlət qurumlarının informasiya resurslarının informasiya təhlükəsizliyinin təmin edilməsi barədə ətraflı məlumat verilib. Bununla yanaşı, Xidmət tərəfindən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən dövlət qurumlarının "Azstatenet" şəbəkəsinə qoşulması və dayanıqlı rabitə vasitələri ilə təmin edilməsi barədə məruzələr edilib.

Sonda mövcud nöqsanlar və onların həlli yolları, cari il ərzində həyata keçiriləcək tədbirlər və qarşıda duran vəzifələr haqqında ətraflı müzakirələr aparılıb.

# Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2023-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" geniş kollegiya iclası keçirilib

Yanvarın 26-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə 2023-cü ildə prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.






Tədbirdən öncə Baş Prokurorluğun kollegiya üzvləri müasir dövlətimizin qurucusu, memarı, Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Həmçinin iştirakçılar tərəfindən kollegiya iclasının başlanğıcında Ümummilli Lider Heydər Əliyevin, vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın ruhu birdəqiqəlik sükutla yad edilib, qazilərimizə şəfa arzulanıb.

Kollegiya iclasında çıxış edən Baş prokuror Kamran Əliyev 2023-cü ilin Azərbaycan Respublikası üçün tarixi, siyasi və ictimai əhəmiyyət kəsb edən hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, 2023-cü ildə müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə böyük təntənə ilə qeyd edilmişdir.

Xalqımızın yaddaşında və dövlətçilik tariximizdə "xilaskar" obrazında iz qoymuş müdrik siyasətçi Heydər Əliyevin həyat və yaradıcılığı, müstəqil Azərbaycanın, onun dövlət və hüquq sisteminin qurucuğunda və inkişafındakı rolu, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində həyata keçirdiyi islahatlardan bəhs edərək hər bir azərbaycanlı tərəfindən Heydər Əliyevin əbədiyaşar ruhunun illər sonra da dərin ehtiramla anılacağı vurğulanıb.

Çıxışda, həmçinin qeyd olunub ki, yola saldığımız 2023-cü il həm də cənab Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olması ilə də yadda qalmışdır.

Azərbaycan dövlətçiliyinin əsasını qoymaqla yanaşı, onun idarə edilməsi, daxili və xarici siyasət kursu, ictimai-mədəni tərəqqisi istiqamətində Ümummilli Lider tərəfindən müəyyən edilmiş ideya və prinsiplərə ilk gündən sadiq olan və onu layiqincə davam etdirən ölkə rəhbəri Azərbaycanı dünya miqyaslı bütün yüksək tribunalarda qürurla təmsil etmiş və onun artan nüfuzunun yüksələn xətt üzrə inkişafı üçün bütün səylərini səfərbər etmişdir.

Dövlət başçısı tərəfindən həyata keçirilən siyasət ölkəmizi regionun əsas güc mərkəzinə çevirmiş, ölkənin iqtisadi rifahının tərəqqisinə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş qismində tanınmasına rəvac vermişdir.

Çıxışda o da vurğulanıb ki, qeyd edilən dövrdə möhtərəm Prezident cənab İlham Əliyevin uğurlu siyasi və diplomatik bacarığı sayəsində Azərbaycan siyasi müstəvidə də əhəmiyyətli uğurlara imza atmışdır.

Müzəffər ordumuz tərəfindən həyata keçirilmiş "Fərrux", "Sarıbaba-Qırxqız" və "Qisas" əməliyyatları, Laçın rayonu ərazisində sərhəd-keçid məntəqəsinin qurulması, nəhayət 2023-cü ilin sentyabr ayının 19-20-si tarixlərində icra edilən lokal antiterror tədbirləri ilə Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa edib və 15 oktyabr 2023-cü il tarixdə Azərbaycan Respublikasının şanlı bayrağı möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən Xankəndi, Xocavənd, Xocalı və Ağdərə şəhərlərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində ucaldılıb.

Qısa müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda cənab Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə sürətli bərpa və yenidənqurma işlərinin icra edilməsi, hər bir tarixi, mədəni və dini abidələrimizin xüsusi həssaslıqla bərpa edilməsi, qısa müddət ərzində həmin ərazilərdə evlərin, yaşayış komplekslərinin, magistral yolların, Zəngilan və Füzulidə beynəlxalq hava limanlarının inşası və istifadəyə verilməsi hər bir vətəndaşımıza qürur və sevinc, dünya dövlətlərinə isə heyrət hissi yaşatmışdır.

Zəngilan, Laçın və Füzuli rayonlarına öz doğma yurdlarından onilliklərlə didərgin düşmüş soydaşlarımızın köçürülməsi, həmin ərazilərdə bir zamanlar sönmüş həyat izlərinin yenidən bərpası xalqımıza bəxş edilmiş ən böyük sevinc hissi, dünya tarixində isə ədalətin bərpasına misal göstərilə biləcək ən böyük tarixi hadisədir.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2023-cü ildə mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 19 nəfər həlak olmuş, 39 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırki vaxtadək isə ümumilikdə 342 şəxs bu terrorun qurbanı olmuş, onlardan 65 nəfəri həlak olmuş, 277 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Vurğulanıb ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşlarımızın müəyyən edilməsi istiqamətində Hərbi Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və aidiyyəti digər qurumlarla birlikdə zəruri tədbirlər görülür. Lakin mina məsələsində olduğu kimi, bu məsələdə də Ermənistan tərəfi əməkdaşlıq etməkdən yayınır və müvafiq məlumatları təqdim etməkdən imtina edir.

Kollegiya iclasında eyni zamanda diqqətə çatdırılıb ki, 2023-cü ildə baş vermiş digər mühüm hadisələr isə Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən, 7 fevral 2024-cü il tarixinə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi və 25 dekabr 2023-cü il tarixli Sərəncamla Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi olmuşdur.

İnam hissi ilə qeyd olunub ki, cari ildə keçirilməsi nəzərdə tutulan növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin qanunun aliliyi təminatında keçirilməsi istiqamətində prokurorluq orqanları öz üzərinə düşən vəzifələri layiqincə icra edəcəkdir.

Bundan əlavə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin Bakı şəhərində keçiriləcək növbəti 29-cu Konfransının dövlətimizin nüfuzuna uyğun, təhlükəsiz və sabitlik şəraitində keçirilməsi üçün prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə birgə əməkdaşlıq çərçivəsində bütün səylərini səfərbər edəcəkdir.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, 2023-cü ildə ölkə ərazisində 36811 cinayət qeydə alınmaqla onların 87,8 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 21104 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 1350-si prokurorluq orqanlarında istintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 902, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 16146 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslara rədd edilmiş materiallar üzrə ümumilikdə 509 milyon 237 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək, onun 41,4 faizinin, yəni 210 milyon 936 min manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 139 milyon 150 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 54,8 faizinin, yəni 76 milyon 223 min manat hissəsinin ödənilməsinə nail olunmuş, habelə 50 milyon manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulmuşdur.

Xüsusi qeyd edilib ki, prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyin artırılması işində müstəsna önəmə malik cənab Prezidentin 7 may 2021-ci il tarixli Fərmanında öz əksini tapmış "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq oqranlarının tam istifadəsinə verilmiş və bəzi informasiya sistemlərinə inteqrasiyası təmin edilmişdir, hazırda sistemin təkmilləşdirilməsi və digər informasiya sistemlərinə inteqrasiyaolunma istiqamətində işlər intensivliklə davam etdirilir.

Hesabat dövründə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək, baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi bildirilib.

2023-cü il ərzində Baş İdarədə fəaliyyət göstərən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 71-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 56 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 158 cinayət işi başlanıb.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 97 şəxs barəsində 44 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilmiş, bunlardan 18 şəxs barəsində 7 iş qəsdən adamöldürmə faktları ilə bağlı olubdur.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 10 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 4-ü üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Baş prokuror ötən illərdən bağlı qalmış və hesabat ilində qeydə alınmış qeyri-aşkar cinayətlərin açılmasında, ictimai sabitliyin və təhlükəsizliyin təmin edilməsində, habelə dini radikalizmə qarşı mübarizə sahəsində daxili işlər, dövlət təhlükəsizliyi xidməti və digər qurumların fəaliyyətini xüsusi qeyd edərək, göstərilən səmərəli və peşəkar əməkdaşlığa görə təşəkkürünü bildirib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə hesabat dövründə birinci instansiya məhkəmələrində 16811 şəxs barəsində 15344, apellyasiya instansiyası məhkəmələrində 4652 şəxs barəsində 4137, kassasiya instansiyası məhkəməsində 2643 şəxs barəsində 2297 (bütün instansiya məhkəmələri üzrə cəmi 24106 şəxs barəsində 21778 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

2023-cü ildə prokurorluq orqanları tərəfindən 1436 apellyasiya və 625 kassasiya protestləri verilmiş, 687 apellyasiya protesti və 121 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunmuşdur.

2023-ci ildə respublika Hərbi Prokurorluğu tərəfindən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər qurumlarla birlikdə zəruri tədbirlərin görüldüyü qeyd edilib.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə uğurlu göstəricilər əldə olunduğu, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirildiyi, vətəndaşların müraciətlərinə baxılmasının diqqətdə saxlanıldığı bildirilib.

Hesabat dövründə Bakı Şəhər Prokurorluğunun fəaliyyəti ümumən müsbət qiymətləndirilmiş, qeyri-aşkar şəraitdə törədilmiş cinayət işlərinin təxirə salınmadan açılması, maddi ziyanın ödətdirilməsi sahəsində müsbət nəticələrin əldə edilməsi təqdirəlayiq hal qismində qeyd edilmişdir.

Bununla belə, respublikanın tabe rayon və şəhər, o cümlədən Bakı şəhəri üzrə bəzi tabe rayon prokurorluqlarına fəaliyyətlərində yol verdikləri nöqsanlarla bağlı, xüsusən də CPM-in 303 və 318-ci maddələri ilə məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş prokurorlara işlərin qaytarılması və bəraət hökmlərinin çıxarılmasında say artımının qeydə alınması ilə bağlı ciddi iradlar bildirilmişdir.

2023-cü ildə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 657 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 206 halda ittiham aktları təsdiq edilməyərək cinayət işləri əlavə istintaq aparılması üçün qaytarılmışdır.

2023-cü il ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 1559 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə 2023-cü ildə daxil olmuş müraciətlərdən 25724 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilmiş, 3462 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmış və həmin məlumatlar üzrə cinayət işləri başlanmış, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülmüşdür.

Kollegiya iclasında qeyd edilib ki, ötən yarımildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 20-nə töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad edilib, 1 nəfərə irad tutulub, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib, 1 nəfər rütbədən məhrum olunmaqla prokurorluq orqanlarından xaric edilib.

Kollegiya iclasında xüsusi müsadirə sahəsində görülmüş işlər barədə məlumat verilərkən ilk dəfə olaraq məhkum olunmuş şəxsin xarici ölkə bankında saxlanılan 1.281.000 ABŞ dolları məbləğində pul vəsaitinin müsadirə edilməsi barədə Azərbaycan məhkəməsinin qərarının xarici ölkə məhkəməsi tərəfindən tanınması və vəsaitin ölkəyə qaytarılması barədə qərar verilməsi diqqətə çatdırılıb.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 45 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Həmçinin qeyd olunub ki, 2024-cü ilin sentyabr-oktyabr aylarında Bakı şəhərində dünya prokurorlarının təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik iclası və konfransı keçirilməsi nəzərdə tutulur.

Vurğulanıb ki, 2023-cü ildə də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Bu müddətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror tərəfindən respublikanın 17 rayon və şəhərində, o cümlədən Naxçıvan şəhəri daxil olmaqla ümumilikdə 71 bölgədən 913 vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmiş, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilmişdir.

Hesabat dövründə Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq işçilərinin və digər hüquq-mühafizə orqanlarının əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlər, "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin keçirildiyi, bir sıra tədris-metodiki vəsaitlərin hazırlandığı diqqətə çatdırılıb.

Hesabat ilində Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq-mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhfə verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasları keçirilməklə geniş müzakirələr və faydalı fikir mübadiləsinin aparıldığı bildirilib.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsinin keyfiyyətinin artırılması, cinayət prosesi iştirakçılarının hüquqlarının təmin olunması, habelə hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğurunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Kollegiya iclasında Baş prokuror tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı Ermənistan Respublikası və qondarma rejim tərəfindən törədilmiş ağır və xüsusilə ağır cinayətlərlə bağlı separatçılar barəsində olan cinayət işi üzrə milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə uyğun olaraq tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla, bütün zərərçəkmiş şəxslərin, habelə bu cinayətlər nəticəsində dövlətə və vətəndaşlara vurulmuş maddi ziyanın müəyyən edilməsi, eləcə də təqsirli şəxslərin tam dairəsinin və onların ittihamlarının həcminin dəqiqləşdirilməsi, qısa müddət ərzində cinayət işinin ibtidai istintaqının yekunlaşdırılaraq məhkəməyə göndərilməsi, habelə qeyd edilən iş çərçivəsində işğalda olmuş torpaqlarımızda qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş müxtəlif Avropa şirkətlərinin vəzifəli şəxslərinin milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi barədə tapşırıq verilib.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2023-cü ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Gəncə və Mingəçevir şəhər, Füzuli və Zəngilan rayon prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi isə "Azərbaycan Respublikası Prokurorluğunun 2024-2026-cı illər üzrə Strateji İnkişaf Konsepsiyası"nın layihəsi ilə bağlı məruzələrlə çıxış edib, məruzələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini ifadə edib.

# Görkəmli yazıçı, böyük alim və pedaqoq Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin alman dilində nəşrinin təqdimatı olub



**Yanvarın 26-da Azərbaycan Milli Kitabxanasında görkəmli yazıçı və ədəbiyyatşünas-alim Mir Cəlal Paşayevin Almaniyanın "Erqon-Nomos" nəşriyyatında "Bibliotheca Academica" - şərqşünaslıq sahəsində seçilmiş nəşrlər seriyasında çap olunan "Füzuli sənətkarlığı" kitabının təqdimat mərasimi keçirilib. Kitab Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə olunub.**



AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşan təqdimat mərasimində ADA Universitetinin rektoru professor Hafiz Paşayev, kitabın tərcüməçisi, Almaniyanın Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess, mədəniyyət naziri Adil Kərimli, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov istedadlı və orijinal yaradıcılıq üslubu olan Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirdiyini, çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutduğunu söyləyib. Qeyd edib ki, Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb, 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib, əsər sonralar latın qrafikası ilə 1994, 2007, 2018-ci illərdə təkrar nəşr olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının əsas yaradıcılarından biri olan Mir Cəlal Paşayevin həm böyük alim, həm böyük pedaqoq, həm də böyük yazıçı kimi zəngin və çoxcəhətli fəaliyyətindən danışıb, Füzuli yaradıcılığının əsərdəki geniş təhlil ustalığı haqqında ətraflı bəhs edib.

Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamın imzalanması ilə bugünkü tədbirin üst-üstə düşməsini əlamətdar hadisə hesab edib, Füzuli yaradıcılığının ideya-mövzu və bədii-estetik cəhətlərinin dərindən araşdırıldığı bu əsərin Füzuli irsinin fərqli istiqamətlərdən öyrənilməsində mühüm önəm daşıdığını söyləyib.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli günün simvolik olduğunu vurğulayaraq, elm yolunda ona işıq tutan, yol göstərən müəllimi Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin elmi əhəmiyyətinə, qiymətli cəhətlərinə toxunaraq, XX əsr dünya Füzulişünaslığında Mir Cəlal müəllimin öz kürsüsü, öz yeri olduğunu bildirib. Füzuli dühasını dərindən açan bu əsərlə onun Füzulişünaslığın daşlı-kəsəkli yollarında Füzuli adına layiq əsər yaratdığını vurğulayıb.

AMEA-nın müxbir üzvü, BDU-nun professoru Təhsin Mütəllimov Mir Cəlal müəllimin əsərlərini bizlər üçün misilsiz yadigar adlandırıb, onun Füzulini dərindən bildiyini, buna görə də Füzulinin yaradıcılığını gözəl şəkildə açdığını söyləyib. Mir Cəlal Paşayevin həm tədqiqatçı, həm ustad-müəllim, həm də yazıçı kimi məktəb yaratdığını diqqətə çatdırıb.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev Mir Cəlal Paşayevin fitri istedada malik olduğunu, kitabın, həmçinin İraqda da çap olunacağını qeyd edib.

Xarici İşlər Nazirliyinin idarə rəisi Rizvan Nəbiyev kitabın Almaniya və bir çox Avropa ölkələrində sürətlə yayıldığını, artıq bir çox universitet kitabxanalarının kataloqlarına daxil edildiyini, biblioqrafiyalara salındığını söyləyib, tərcüməçi-tədqiqatçıya Azərbaycan mədəniyyəti və ədəbiyyatının təbliğindəki xidmətlərinə görə təşəkkürünü bildirib.

Kitabın tərcüməçisi, Almaniyanın Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess kitaba yazdığı "Giriş sözü"ndə həm Füzuli, həm də Mir Cəlal dövrünün ədəbi və tarixi-siyasi mühitinin elmi-tənqidi təhlilindən danışaraq, Füzuli dühasına Mir Cəlal Paşayevin bu əsəri vasitəsilə daha rahat daxil ola bildiyimizi vurğulayıb. Füzuli və Mir Cəlal yaradıcılığının əksi olan bu əsərdə sənətlə elmin kəsişdiyini söyləyib, kitabın ərsəyə gəlməsinə görə onun təşəbbüskarı olan hörmətli Hafiz Paşayevə və tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə və Milli Kitabxanaya minnətdarlığını bildirib, Füzulinin "Yetməzmi" adlı qəzəlini səsləndirib.

Sonda Mir Cəlal Paşayevin oğlu, ADA Universitetinin rektoru professor Hafiz Paşayev əsərin yazılma tarixi haqqında Mir Cəlal müəllimin xatirələrindən danışıb, kitabın tərcüməçisi Mixael Raynhard Hessə, tədbirin təşkilatçılarına və bütün qonaqlara təşəkkürünü bildirib.

Sonda XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas-alim, professor Mir Cəlal Paşayev haqqında Milli Kitabxananın hazırladığı elektron məlumat bazasının təqdimatı olub.

# Mir Cəlal Paşayevin ömür yolundan bəhs edən videoçarx nümayiş olunub

Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və pedaqoq, yazıçı, ictimai xadim Mir Cəlal Paşayevin Almaniyanın "Erqon-Nomos" nəşriyyatında "Bibliotheca Academica" - şərqşünaslıq sahəsində seçilmiş nəşrlər seriyasında çap edilən "Füzuli sənətkarlığı" kitabının təqdimat mərasimi olub.

Kitab Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə edilib.

Əvvəlcə Mir Cəlal Paşayevin ömür yolundan bəhs edən videoçarx nümayiş olunub.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər tanınmış alim və mütəxəssislərin iştirak etdikləri tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Mir Cəlalın elmi araşdırmalarından, zəngin yaradıcılığından, ədəbiyyatımıza verdiyi əvəzsiz töhfələrdən danışıb. Bildirilib ki, Azərbaycan elminin, təhsilinin, ədəbiyyatının inkişafında Mir Cəlalın müstəsna xidmətləri olub.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin idarə rəisi Rizvan Nəbiyev görkəmli ədib Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyasının alman dilinə tərcümə olunmasının önəmini vurğulayıb. Qeyd edilib ki, şərqşünas-alim Mixael Raynhard Hess kitaba yazdığı "Giriş sözü"ndə həm Füzuli, həm də Mir Cəlal dövrünün ədəbi və tarixi-siyasi mühitinin elmi-tənqidi təhlilini aparıb. O, sovet rejimi tərəfindən ədəbiyyata tətbiq olunan qadağalara və edilən müdaxilələrə dair Qərb oxucusu üçün izahlar verərək yazır ki, dövrün ideoloji məhdudiyyətlərinə baxmayaraq, Mir Cəlal Füzulini milli şair kimi araşdırmağa və təqdim etməyə nail olub.

Tədbirdə Mixael Raynhard Hess görkəmli alim və yazıçı Mir Cəlalın ədəbi irsindən bəhs edib. BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Təhsin Mütəllimov, Milli Məclisin deputatı, Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Filologiya fakültəsinin Alman və fransız dilləri kafedrasının baş müəllimi Mətanət Əliyeva, Azərbaycan ədəbiyyatı kafedrasının dosenti Məti Osmanoğlu çıxış edərək görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin geniş elmi və pedaqoji fəaliyyətindən, ədəbi yaradıcılığından danışıb, təqdim olunan kitabın tariximiz, ədəbiyyatımız üçün dəyərli mənbə olduğunu bildiriblər.

# Məkkə I Halal Forumunda Azərbaycan məhsulları tanıdıldı

**Bu il yanvarın 23-25-dək Səudiyyə Ərəbistanının müqəddəs Məkkə şəhərində keçirilmiş "Məkkə Halal Forumu" Azərbaycanın investisiya imkanları, milli brendlərimizin təqdimatı baxımından uğurlu və yaddaqalan keçib.**



Məkkə Halal forumu bu gün "Halal sənayesində innovasiya" şüarı altında Səudiyyə Ərəbistanı Krallığının ticarət naziri zati-aliləri Dr. Məcid bin Abdullah Əl Qəsabinin himayəsi altında beşillik müavinət müqaviləsi tərəfdaşlarının (Məkkə Palatası, Mədinə palatası, İslam Ticarət və İnkişaf Palatası, Ciddə Palatası, Taif Palatası) təşkilatçılığı, İslam Palatası Halal Xidmətləri (ICHS), Səudiyyə Standartları, Metrologiya və Keyfiyyət təşkilatı və Səudiyyə Qida və Dərman İdarəsi ilə strateji tərəfdaşlıq əsasında işə başlayıb.

Yüksək səviyyədə təşkil olunan forum-sərgidə 57 üzvü olan İslam Ticarət və İnkişaf Palatasına üzv ölkələrin nümayəndə heyətləri daha fəal iştirak edirdi. Məkkə şəhərinin mərkəzində qurulan sərgiyə ümumilikdə 100-dən artıq ölkədən 3 min ziyarətçi qatılmışdı.

Ölkəmizi bu sərgidə Azərbaycan Sahibkarlar Konfederasiyası təmsil edib. Konfederasiyanın prezidenti Məmməd Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti forum və sərgidə fəal iştirakı ilə fərqlənib.

Səfər çərçivəsində Müqəddəs Məkkə Əl-Mükərrəmə bölgəsinin əmir müavini, şahzadə Səud bin Mişal bin Əbdüləziz nümayəndə heyətlərinin rəhbərlərini qəbul edib. Konfederasiyanın prezidenti ölkəmizdəki investisiya imkanları, İslam ölkələri ilə qarşılıqlı ticarət əlaqələrinin perspektivləri ilə bağlı məlumat verib.

Ümumilikdə 10-dan çox panel, 250 ikitərəfli və çoxtərəfli iclasın keçirildiyi forumda halal sertifikatlaşdırmanın əhəmiyyəti, ən son standartlar, halal məhsul və xidmətlərin, eləcə də halal qidaların təhlükəsizliyini və orijinallığını təmin etmək üçün normativ bazalar haqqında müzakirələr aparılıb. Sessiyalarda halal turizmə müsəlman səyahətçiləri cəlb etmək imkanları, onların mədəni və dini ehtiyaclarına cavab verən istiqamətlərin təşviqi ilə yanaşı, İslam bankçılığı və halal investisiya alətləri ətrafında geniş diskussiyalar qurulub.

Həmçinin halal kosmetika və fərdi qulluq məhsullarına tələbat vurğulanmaqla, halal kosmetika və fərdi qulluq mövzuları, inqrediyentlər, istehsal prosesləri və marketinq strategiyalarına dair təqdimatlar keçirilib.

Forumun qonaqları müxtəlif sessiyalar vasitəsilə tədarük zənciri boyunca bütövlüyü qoruyaraq halal dərmanlar və səhiyyə, səhiyyə xidmətləri və tibbi etika problemi halal səhiyyə həlləri, halal logistika və tədarük zəncirinin əlavə edilməsi, o cümlədən halal logistika, nəqliyyat, saxlama və paylama sahəsində mövzulara toxunublar.

Halal rəqəmsal iqtisadiyyat sahəsində forumun qonaqları elektron ticarət platformaları, rəqəmsal marketinq strategiyaları, blokçeyn tətbiqləri, halal sənayesində innovativ rəqəmsal həllər də daxil olmaqla halal və texnologiyanın kəsişməsinin miqyasını, eləcə də bacarıqlı işçi qüvvəsini inkişaf etdirmək, innovasiyaları təşviq etmək və halal sahəsində bilikləri artırmaq üçün halal təhsil, tədqiqat və təlim proqramlarının əhəmiyyətini vurğulayıblar.

İslam Ticarət və İnkişaf Palatasının baş katibi Yusif Xələvi, Məkkədən başlayan forumun müxtəlif halal sənayesi istehsalçılarını bir araya gətirən böyük qlobal tədbirin keçirilməsi zərurətindən irəli gəldiyini bildirib və qeyd edib ki, bu il "Halal sənayedə kreativlik və innovasiya" şüarı altında keçirilən bu tədbir dünyanın müxtəlif ölkələrinin dövlət və özəl sektorlarını bir araya toplayıb.

Forumun ilk panelində Azərbaycan Sahibkarlar Konfederasiyasının Baş katibi Natəvan Məmmədova çıxış edib. O, Azərbaycanda halal standartların tətbiqi perspektivləri, bu sahədə görülən işlər, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı ilə qurulan əlaqələrdən danışıb, ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqeyə toxunaraq, böyük müsəlman dövlətləri ilə həmsərhəd olduğunu vurğulayıb. Xüsusən də Orta Asiyada yaşayan 70 milyon müsəlmanla eyni kökə malik olduğunu, həmçinin Rusiya ərazisində yaşayan 30 milyona yaxın müsəlman xalqların daha çox cəmləşdiyi Cənubi Qafqazda yerləşdiyini nəzərə alsaq, Azərbaycana bu coğrafiyada "Halal təyinat nöqtəsi" kimi baxmağı təklif edib.

Məkkə Halal Sərgisindəki Azərbaycan stendi öz rəngarəngliyi və təqdimat forması ilə böyük maraq doğurub. Azərbaycan bayrağı altında fəaliyyət göstərən Azərbaycan Sahibkarlar Konfederasiyasının və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin stendləri sərgi iştirakçıları tərəfindən ən çox ziyarət edilən stendlər olub. Stendlərdə qida və qeyri-qida məhsulları sərgilənib. Azərbaycan iqtisadiyyatı, ölkəmizin füsunkar təbiətini əks etdirən video-çarxlar böyük diqqət çəkib.

Qlobal İslam iqtisadiyyatının reallığına dair hesabata görə, 2024-cü ildə halal məhsullara dünya üzrə istehlak xərclərinin 2,4 trilyon dollara çatacağı gözlənilir.

İslam maliyyə sektoru siyahıya liderlik edir, ondan sonra sıralamaya görə qida və içki sektoru, əczaçılıq və tibb, sağlamlıq və kosmetika preparatları, həmçinin səyahət və turizm və digər halal sənaye məhsulları və xidmətləri gəlir. Digər sektorlara təhsil və səhiyyə daxildir.

# Səudiyyə Ərəbistanı ilə investisiya, birgə layihələr və ixrac sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində bu ölkədə həyata keçirilən layihələrdə Azərbaycan şirkətlərinin iştirakı, qida məhsullarının Səudiyyə Ərəbistanına ixracı, alternativ enerji sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları barədə müzakirələr aparılıb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində bu ölkənin Dövlət İnvestisiya Fondunun rəhbərinin müavini və Beynəlxalq İnvestisiyalar üzrə Baş İdarənin rəisi Turqi Al-Novaizer ilə görüş keçirilib. Görüşdə Azərbaycanda bərpaolunan və alternativ enerji sahəsində reallaşdırılan layihələr, SOCAR-ın və Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyəti, Azərbaycanın bir neçə ölkə ilə birgə yaratdığı investisiya fondları təcrübəsi və s. haqqında məlumat verilib. Ölkələrimizin müvafiq qurumları arasında səmərəli enerji tərəfdaşlığı qeyd edilib. Tərəflər müxtəlif istiqamətlər üzrə investisiya əməkdaşlığını, o cümlədən Dövlət İnvestisiya Fondu və onun törəmə şirkətləri tərəfindən Azərbaycanda və digər ölkələrdə həyata keçirilən layihələrdə mümkün əməkdaşlıq istiqamətlərini müzakirə ediblər, bununla bağlı yol xəritəsinin hazırlanmasına dair razılıq əldə olunub.

Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri, "Al Rajhi International for Investment" şirkətinin baş icraçı direktoru Əhməd Əli Əl-Dəxil ilə görüşdə Səudiyyə Ərəbistanında həyata keçirilən layihələrdə, o cümlədən infrastruktur layihələrində Azərbaycan şirkətlərinin iştirakı imkanları qeyd olunub. Tərəflər Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının bu ölkədəki layihələrdə Azərbaycan şirkətlərinin iştirakına dəstəyi, eləcə də ərzaq təhlükəsizliyi sahəsində əməkdaşlıq və digər məsələlər barədə müzakirələr aparıblar.

"ACWA Power" şirkətinin İdarə Heyətinin sədri Məhəmməd Abdullah Rəşid Abunayyanla görüşdə ölkəmizlə dəniz suyunun duzsuzlaşdırılması, bərpaolunan enerji mənbələrindən səmərəli istifadə, "yaşıl hidrogen" istehsalı kimi istiqamətlərdə əməkdaşlıq imkanları dəyərləndirilib.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 fevral (Çərşənbə günü) tarixli 106-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 4 cəmadiyələvvəl sənə 1337. 5 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məlikməhəmməd, Paşa və Kərbəlayi Hüseyn kamaliyə’s və təhəssürlə [böyük bir matəm və kədərlə] əvvəlincinin qardaşı, ikincinin dayısı və üçüncünün yeznəsi Yusif Əhmədovun vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Cənazə bu gün fevralın 5-ində saat 10-da Spasski küçədə 118 nömrəli məxsusi evindən məhəllə məscidinə aparılacaqdır.

*2673*

## ELAN

Azərbaycan Məclisi-Məbusanının 4-ündə olan iclasının bəqiyyəsi [ardı] bu gün şubatın [fevralın] 5-ində saat 1 tamamda olacağı elan edilir.

## HÖKUMƏT HƏR ŞEYİ ETMƏZ!

Azərbaycan Hökuməti təsisi ilə məət-təəssüf [təəssüf ki] bizdə bir zehniyyətin də təəssüs eylədiyi müşahidə olunur.

Hər şeyi hökumətdən gözləmək, hökumət əli ilə gördürmək.

Cümhuriyyət və məşrutiyyətlərlə [konstitusiyalı monarxiya quruluşu ilə] idarə olunan hökumətlərdə əsl idarə edən xalq özüdür. Xalqı mütəşəbbis [təşəbbüskar] olan millətlər, xalqı camaat işi ilə məşğul və müxtəlif cəmiyyətlərə ayrılaraq əsəri-fəaliyyət göstərən cəmiyyətlərdir ki, hakimiyyəti-milliyyəni [milli hakimiyyəti] təsis edə bilirlər.

Hər şeyi hökumətdən gözləyib duran bir camaat, nəhayəti hökumətindən məyus olar. Çünki heç bir zaman hökumət, nə cür hökumət olursa-olsun, cəmiyyətin gunagun [növbənöv, müxtəlif] ehtiyaclarını rəf edə bilmək [aradan qaldıra bilmək], hər şeyə vaxtında və zamanında yetişmək imkanında olammaz. Bu hal, bilxassə [xüsusilə] yeni təşəkkül etməkdə olan və inqilab məşiməsindən [bətnindən] doğan yeni hökumətlərdə iki-üç qat bir əhəmiyyət alır.

Türkiyə kimi böyük və möhtəşəm bir tarixə malik olan qədim bir dövlətdə belə hər şeyi hökumətdən gözləmək zehniyyəti məmləkəti nə kimi müşkül hallara saldı. Bizim kimi hər şeyi yenidən, yoxdan var etmək məcburiyyətində bulunan bir hökuməti bu zehniyyət nə kimi xarab bir hala qoya bilər, bir kərə düşünülsün.

Şübhəsiz ki, hökumət məmləkətdəki hərəkati-ictimaiyyə [ictimai hərəkətlərin] və təşkilati-idarənin [idari təşkilatın] nazimi [tənzimləyicisi], naziri [nəzarətçisi] və ruhu olmalıdır. Onun nəşr eylədiyi müvafiq qanunları, qoyduğu tədbirli nizamları, təşkil eylədiyi ədalətli idarələri ilə dövlət makinasını yoluna qoymalıdır.

Fəqət bu kafimidir?

Dövlətə məmurlar lazımdır. Bu əski məmur kadrolarına malik bir hökumət deyildir. Yeni adamlar bulmalı, namuslarına güvənməli, onları birər xidmətə təyin etməlidir. Bu yeni məmurları hökumət nərədən alacaq, bunun üçün kimə müraciət eyləyəcək, bu bir məsələdir. Bu məsələnin həlli üçün mövcud olan firqələr [partiyalar] az da olsa müavinət [kömək] edə bilərlər. Hökumət məmuriyyətini ifa edə biləcək əzalarını [üzvlərini] və yaxud əzaları olmasa da, etimad edə bildikləri əşxasın [şəxslərin] bir siyahısını tutar, bu siyahını nəzarətlərə [nazirliklərə] verə bilərlər. Bundan daha faydalı olaraq əhli-ürfan [ziyalılar] öz arasından bir cəmiyyət təşkil edə bilər. Tamamilə bitərəf bir cəmiyyət, zəhmətkeş ürəfa [ziyalı] cəmiyyəti. Bu cəmiyyət hər yanda, hangi bir dövlət xidmətinə istedadı olan mütəxəssisləri, mütəfənninləri [elm adamlarını] və ələlümum [ümumiyyətlə] zəhmətkeş ürəfanı toplar, onları qeyd edər və hökumət idarələrinə məmur verməklə milli işə müavinət edə bilər.

Hökumətimiz olmadan əvvəl füqəramıza, qaçqınlarımıza, fəlakzədələrimizə [fələyin silləsini yeyənlərimizə] müavinət edən cəmiyyətlərimiz, nəşri-maariflə [maarifi yaymaqla] məşğul olan ürfan müəssisələrimiz var idi. Hökumət təşkil etdiyimizdən sonra bu xüsusdakı ehtiyaclarımız azaldı deyil, artdı. Halbuki bu cəmiyyətlərdən, bunların fəaliyyətindən bir əsər yox. Görünür ki, hər kəs, artıq Ümuri-Xeyriyyə [Sosial Təminat] və Səhiyyə Nəzarəti var, Maarif Nəzarəti təsis edilmişdir deyə, cəmiyyətə bir vəzifə qalmadığını düşünür. Fəqət həqiqəti-hal böyləmidir?

Əskidən kooperativlər, köy cəmiyyətləri vardı. Bu cəmiyyətlərdə camaatın etimadını qazanmış adamlar çalışırdı. Bu vasitə ilə xalqa ucuz ərzaq paylamaq imkanı hasil olurdu. İmdi Ərzaq Nəzarəti var. Fəqət əhaliyə lazım gələn ərzağı paylayacaq aparatlar yox. İş bəzi şəxslərin, kəndi məsuliyyəti üzərinə hərəkət edən fərdlərin öhdəsinə buraxılmışdır. Buna görə də bir çox sui-istemallara [sui-istifadələrə] meydan verilmişdir.

Hökumətimiz məcburi əsgərlik elan eyləmişdir. Əsgər toplamaq öylə asan işlərdən deyildir. Başqa sənaye və texnikaca irəliləmiş olan millətlərdən əsgərliyə alınan nəfərlərin içində hər sənət ərbabı olur. Komandanlıq sənət sahibi olan nəfərləri bir tərəfə ayırıb onları əsgərə lazım olan işlərdə işlədir. Məsələn, dərzilər tikiş işini, dülgərlər qışla (kazarma) yapısını, dəmirçilər dəmir işini, sairlər də kəndi xüsusiyyətlərinə aid olan cəhətləri ifa edirlər. Bu surətlə ordu kəndisinə lazım olan işlərin heç olmasa bir qismini öz ustaları vasitəsilə görmüş olur.

Halbuki bizdə öylə deyildir. Əksərən orduya gələn nəfər yer əkmək və yaxud qoyun otarmaqdan başqa bir şey bilmir. Bunun üçün də komandanlıq, ordunun hər bir ehtiyacını xaricdən görmək məcburiyyətində qalır. Bu xüsusda cəmiyyət orduya böyük bir xidmət edə bilər. Bil-xassə qadınlarımız təşəbbüs edərlərsə, orduya camaşır [alt paltarı] hazırlaya bilərlər. Bu nə qədər böyük bir xidmət, vətəni bir xidmət olar!

Oxuyucular bilirlər ki, müharibənin şiddətli zamanlarında ləvazimə möhtac qalan rus ordusuna rus camaatı nə qədər böyük xidmətlər etmişdi. Şəhərlər və zemstvolar [yerli özünüidarə orqanları] tərəfindən təşkil olunan cəmiyyətlər, sənaye və ticarət ərbabı tərəfindən vücuda gətirilən müəssisələr ordunu nə dərəcədə qüvvətləndirmişlərdi.

Orduya alınanların ailələri var. Onların dərdləri var. Görüləcək işləri var. Onlar daha [hələ] əsgər övladı, əsgər ailəsi olmağa adət etməmişlərdir. Bu “müqəddəs adət”ə öyrənmək nəsibi ilk dəfə onlara aid olmuşdur. Şübhəsiz ki, vətən müdafieyi-ülvisi [ülvi vətən müdafiəsi] nə olduğunu dərk edən bir vətəndaş üçün böylə bir fədakarlıq nəsibi ilə hissəmənd olmaq [pay almaq] böyük bir səadətdir. Fəqət bununla bərabər, o ailənin maddi və mənəvi ailə ələmlərini dəxi digər vətəndaşlar anlamalıdırlar. Öz qardaş ələqələri [qayğıları] ilə göstərməlidirlər ki, xidmətə alınmış əsgər və onun ailəsi cəmiyyət tərəfindən unudulmamışdır. Böylə bir məhəbbətli ələqəni qışlasında xəbər alan yeni əsgər rahətlə vəzifəsini ifa eylər, bundan da məmləkət, vətən böyük faydalar görər.

Əsgər ailələrinin bir çox dərdləri var; onlara yetişmək – bəzən haqsız olaraq qanunun kəndilərinə bəxş etmiş olduğu müsaidələrə [hüquqlara] təcavüz edilmişdir – onları rəf etdirə [aradan qaldıra] bilmək üçün, kəndilərinə yol göstərmək üçün bir cəmiyyət olarsa azmı fayda verər?

Diqqət olunsun Gürcüstana, Ermənistana; orada hər şeyi hökumətmi edir? Qətiyyən. Orada camaat, camaat müəssisələri, firqələr, cəmiyyətlər hökumətdən az iş görməyirlər. Çünki bilirlər, görüləcək vətən işi, millət işi, bir sözlə, dövlət işi o qədər çox, o qədər gunagundur [müxtəlifdir] ki, onları görmək üçün hər kəsə, hər cür cəmiyyətə iş vardır. Ta ki, işləyən olsun.

Gəncədə Azərbaycan Hökuməti təəssüs edərkən [qurularkən] böyük bir xəta irtikab edildi [səhvə yol verildi]. Xalq içindən doğma nə qədər milli müəssisələr varsa külliyyən ortadan qaldırıldı. Hər şeyi hökumət görəcək deyə bir fikir verildi. O gündən etibarən firqə həyatı, firqə təşkilatına zərərli bir iş kimi baxıldı, Bakıda “Türk Ocağı” cəmiyyəti müsaidə alıncaya qədər min müşkülata məruz qalmışdı. Bu xəta Parlaman təsis edildikdən, Gəncədə faydasız görülən Şurayi-Millinin haqqı və hakimiyyəti iadə edildikdən [özünə qaytarıldıqdan] sonra anlaşıldı. Fəqət bu xətanı hökumət və siyasi məhfillər [dairələr] anlamış olduqları halda, görürəm, camaatımızın kütləsi daha bunu anlamamışdır. Hələ hər kəs hər şeyi hökumətdən gözləyib durur.

Əlbəttə, hökumətə malik bir millətin haqqı vardır ki, hər şeydən həyati-ictimaiyyə və siyasiyyəsinin müdiri və nazimi olan [ictimai və siyasi həyatını idarə edən və qaydaya salan] hökumətin rəftar və göftarına [hərəkətlərinə və sözlərinə], təşəbbüs və qərarlarına müntəzir olsun. Bu təbiidir. Fəqət təbii olmayan bir şey vardır ki, o da hər şeyi hökumətdən intizar edib də kəndisinin tamamilə atil və batil [tənbəl, fəaliyyətsiz] oturmasıdır.

Millətin fəal və zində [canlı, diri] qüvvətləri, haydi iş başına! Şimdi işləmək, yaratmaq və hökumətə kömək etmək zamanıdır. Hökuməti yalnız sözlə olan irşadatınızla [yol göstərməklə] deyil, işlə göstərdiyiniz təşəbbüsatınızla da təyid etməlisiniz [dəstəkləməlisiniz]!

*M. Ə. Rəsulzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərədə səkkiz saat iş vaxtı**

Dəmiryol İcra Komitələri və Dəmiryol İttifaqı nümayəndələri səkkiz saat iş vaxtı müqavilənaməsini imza etmişlərdir.

**Mərakeş əhvalı**

Parisdən “Deyli xronikl” qəzetəsinə xəbər verirlər ki, Mərakeşdə olan beynəlmiləl kontrolun məmnuniyyətbəxş olmayan əhvalı fransızların istila edilmiş yerlərdəki Amerika və İngiltərə nümayəndələrinin hərəkatından dilgir [narazı] olmalarına səbəb olmuşdu. Amma hal-hazırda əhval bir qədər dəyişmişdir. Fransa idarə etdiyi yerlərdə məhəlli [yerli] əhalinin hüququnu təmin edib, beynəlmiləl ticarət üçün yüngül şərait [qaydalar] qoymaq üçün çalışır.

* Almaniya Hökuməti Etilaf dövlətləri [Antanta] nümayəndələri namına [adına] göndərdiyi nota ilə Bəhri-səfid [Ağ dəniz, Aralıq dənizi] vasitəsi ilə alman qoşunlarının buraxılmadığını bəyan edir. Məlum olduğu üzrə alman qoşunları hal-hazırda Heydərpaşada cəmləşmişlərdir. Notada bu da əlavə edilir ki, bu vaxtadək Qara dənizdə olan alman qoşunlarının miqdaratı [miqdarı] barəsində Müttəfiqlər heç bir cavab verməmişlərdir.

* Serbiya qoşunları italyanların təxliyə etdikləri Fiumeyə daxil olmuşlardır.

* Vilhelmshafendə spartakların üsyanı dayandırılmışdır.

**Almaniya müstəmləkələri**

Parisdən “Deyli meyl” qəzetəsinə xəbər verirlər ki, muxtariyyətli müstəmləkələr nümayəndələrinin protestosuna baxmayaraq Ümumi İmperiya Hərbiyyə Kabinəsi Almaniya müstəmləkələrinin beynəlmiləlləşdirilməsini təsvib [təsdiq] eyləmişdir. Cənubi Afrika nümayəndələri zənn edirlər ki, bu siyasət Cənubi Afrikada üsyan qalxıza bilər. Avstraliyalılar qorxurlar ki, Avstraliya əhalisi bu təklifi qənaətbəxş və aydın hesab etməyəcəklər. Muxtariyyətli qitələrin vəkilləri çox ehtiyatla davranırlarsa da, onların qeyri-məmnun olduğu hiss edilir. Vilson inandırır ki, bu məsələnin ilhaqcuyanə [ilhaqçı] həlli, işi müşkülə salacaqdır. Vilsonun planına görə, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] bu müstəmləkə əhalisinə öz iqtidarlarına münasib azadlıq haqqı verməlidir.

* Belçikaya ən zəruri şeylər daşımaq üçün İngiltərə tərəfindən aeroplanlar verildikdən sonra birinci müntəzəm hava müxabiratı [əlaqəsi] başlanacaqdır. Hər gün Folkston Kentə aeroplan teyri [uçuşu] başlanacaqdır.

## QƏZETƏLƏRDƏN

**Amiral Kolçakın teleqrafı**

Cənubi Rusiyada müsəlləh [silahlı] qüvvə baş komandanı general Denikin amiral Kolçakdan böylə bir teleqraf almışdır:

*“Yanvarın 1-də hökumət təşkil edilmişdir. Mən bu hökumətin başındayam. Bundan əlavə mən Sibirya, Ural və Orenburq kazak oblastlarının və bütün Ural dairəsində olan qoşunların baş komandanıyam. Mənim sağ cinahımda əməliyyati-hərbiyyə [hərbi əməliyyat] Perm şəhərinin alınmasıyla qurtarmışdır. Burada neçə min əsir və bir çox qənaimi-hərbiyyə [hərbi qənimətlər] almışıq. Əsgərlər Vyatkaya tərəf hücum etməkdədirlər. Bolşeviklər Ufa şəhərini zəbt etmişlərdir. Bu tərəfdə müharibə davam edir. Eşitmişəm ki, siz Cənubi Rusiyadan ötrü Rusiya cənubunda mübarizə edirsiniz. Mən istərdim ki, əsgəri və dövləti işlərdə sizinlə ələqədar olam. Çünki hərəkətlərimizi müvafiq etməyi lazım görürəm. Buna görə daimi münasibət bərpa etməliyiz. Bizim ümumi işimizə səmimi bir surətdə inanıram. Bizim dostluğumuza heç bir şey icrayi-təsir edəmməz. Mümkün qədəri tezliklə mən sizinlə birləşməyi və görüşməyi arzu edirəm. Allah sizə kömək olsun! Kolçak.”*

**Şura Hökumətində ixtilaf**

“D. V.” qəzetəsinin yazdığına görə, Moskvadan xəbər verirlər ki, Xalq Komissarları Şurasında ciddi mübahisə və münaqişə başlanmışdır. Birtərəfli siyasət aparmağa görə Xalq Komissarları arasında ixtilaflar çıxmaqdadır. Xalq Komissarları Şurasının (lazımi təqdirdə) Moskvadan qaçması üçün tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Lenini mühafizə edən Latış dəstəsi çinlilərə əvəz edilmişdir. Fəhlələrin Şura Hökuməti əleyhinə çıxmaları üçün tədbirlər görülməkdədir. Xalq komissarlarını mühafizə etməkdən ötrü geniş bir dairədə təşviqat aparılmaqdadır. Lenin mitinqlərdə çıxıb danışırsa da, qeyri-dostanə bir surətdə qarşılayırlar.

**Müttəfiq dövlət əsgərləri Rusiyaya gəlməyəcəklər**

Berlindən teleqraf edirlər: “Forverts” qəzetəsinin verdiyi xəbərə görə, Fransa Xariciyyə naziri izhar etmişdir [bildirmişdir] ki, Müttəfiqlərin Rusiyaya əsgər yürütmələri planı dəyişilmişdir. Bundan belə Rusiyaya təzə əsgər göndərilməyəcəkdir. Buna da səbəb Parlamanda olan sosialist firqələrinin hökumət siyasəti əleyhinə olmalarıdır.

**Müttəfiqlərin Rusiyanı abluka etmələri**

“Forverts” qəzetəsi yazır: Belə görünür ki, Müttəfiqlər silah əldə olaraq özlərinin bolşeviklərə yetişmələri niyyətini dəyişmişlərdir. Bununla belə Müttəfiqlər Şura Hökumətini amansız bir surətdə ablukaya (mühasirəyə) salıb ac qoymaqla bolşevizmi gücdən salmaq imkanına malikdirlər. Şimalda, şərqdə və cənubda bu mühasirə başlanmışdır. Rusiya hər tərəfdən qət’i-ələqədədir [Rusiyanın hər tərəfdən ələqəsi kəsilmişdir]. Bolşevizmin qərbə tərəf təzyiqi bunu isbat edir. Bolşeviklər axırıncı çarə olaraq özlərini təmin etməkdən ötrü axırıncı qəpiklərinə heyifsilənməyib Almaniyanı Müttəfiqlərlə təzə müharibəyə sövq etmək üçün Almaniyada şiddətli təşviqatdadırlar. Bolşevik heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] başçısı, Polşa və alman Sosial-Demokrat firqəsinin sabiq üzvü, Almaniyaya varid olmuşdur [gəlmişdir] ki, Rusiyanı məhv edən hərc-mərclik toxumunu Almaniyaya da səpsin.

**Novorossiyskdə Müttəfiqlər donanması**

Müttəfiqlərin böyük donanması Novorossiyskdə gözlənir. Müttəfiq qoşunlarının zabitləri üçün mənzillər həcz [müsadirə] edilmişdir.

**Simsiz teleqraf istasyonu**

Omskda olan fransız əsgərləri güclü bir simsiz teleqraf istasyonu [stansiyası] düzəltmişlərdir.

* Moskvada müntəşir [nəşr olunan] “Qırmızı saldat” qəzetəsinin məlumatına görə, bu günlərdə Hindistan tərəfindən bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] Moskvaya varid olmuşdur [gəlmişdir]. Heyəti Lenin vağzalda istiqbal eyləmişdir [qarşılamışdır]. Hindistan nümayəndələri Rusiyanı inqilabın qələbəsi ilə təbrik və rica etmişlər ki, Hindistanın müstəqil olması tələbi də Şura əmirnaməsinə daxil edilsin. Zira Hindistanın azadlığı, İngiltərə cahangirliyinin [imperializminin] fəlakəti deməkdir.

* Bolşevik Hökuməti Rusiyada 17 yaşından 50 yaşınadək hamı kişiləri səfərbərliyə, həman sinndə [yaşda] olan arvadları isə vətənin müdafiəsindən ötrü işləməyə dəvət eyləmişlərdir.

* Yekaterinodardan alınan məlumata nəzərən fransız bəhriyyəsi [donanması] Baltik dənizinə daxil olmuşdur. Sevastopolda olan rus gəmilərinin bir hissəsini Müttəfiqlər İstanbula aparmışlardır.

* Verilən son məlumata görə, admiral Kolçak qoşunları tərəfindən Kazan, Ural kazakları tərəfindən Samara işğal edilmişdir.

**Məhəlli konfrans**

Sülh Konfransında işlər çox olduğuna görə məhəlli [yerli, lokal] məsələləri həll etməkdən ötrü məhəllində xüsusi konfranslar vücuda gətirilməsi layihəsi təqdim edilmişdir. O cümlədən, Cənubi Amerika məsələləri üçün, Türkiyə, Qafqaziya və qeyri məsələlər üçün İstanbulda xüsusi konfrans vücuda gətirilməsi təsəvvür olunur. İstanbul Konfransı fevral ayında çağırılacaqdır.

**Dağıstan Cümhuriyyəti**

Dağıstan Hökumətinin Müttəfiq şurasında müzakirə edilən məsələlər cümləsindən biri də Azərbaycan ilə ittifaq məsələsi olmuşdur. Hökumət əzasından [üzvlərindən] Qaplanov Tersk oblast kazakları ilə ittifaqa girişməkdən bəhs edib deyir ki: *“Bu ittifaq bizi yenə təzədən Cənub-Şərq İttifaqına, hətta ola bilər ki, gələcəyi heç məlum olmayan Rusiya İttifaqına cəlb edər. Hər halda bu ittifaq rus orientasiyasına qədəm qoymaqdan ibarətdir. Bununla bərabər, cümhuriyyət əhalisinin əhvali-ruhiyyəsi hökumətin siyasəti əleyhinə olaraq bilaşübhə [şübhəsiz] Azərbaycanla ittifaqa maildir.”*

Kotsev demişdir ki: *“Ola bilər hökumət hətta Azərbaycanla birləşməyi dəxi arzu edərdi, lakin bu fikri coğrafi şəraitlə, xüsusən Müttəfiqlərin müəyyən tələbatı münasibəti ilə şəraiti-siyasiyyə üzrə vücuda gətirmək mümkün deyildir.”*

Sonra 16 səslə Pşemaxo Kotsev hökumət sədri intixab edilmişdir [seçilmişdir].

## FELYETON
## İzçilik

### 1

Transvaal davası əsnasında ingilis ordusunda böyük işlər görən general Baden-Pauel cavan ingilis əsgərlərinin bir çox nöqsanlarını görmüş və ingilis cavanlarını icabında [yeri gəldikdə] hər cür təhlükədən qorxmaz bir halda tərbiyə edə bilmək üçün çarələr araşdırmış və səkkiz il bununla məşğul olduqdan sonra 1908-ci ildə fikrini meydana qoymuşdur.

Qoca general bu ilk ibtidasında [başlanğıcında] “Uşaqlar üçün izçilik” namında [adında] bir jurnal çıxarmağa başladı. Bu jurnalda general şu fikirləri ortaya atdı:

*“Mədəniyyətin indiki halda tərəqqisi, insanlarda mövcud səciyyələri, qüdrətləri yox edir. Gözəl paltarlar, hər növ tualetlər [bəzək-düzək], tramvaylar, avtomobillər, şəhərlərin rahat yolları bizi arvadlar kimi nazik, həssas, ə’sabı [əsəbləri] zəif yapır. Məktəblərdə mütəallimlərin [şagirdlərin] dimağları [beyinləri] cürbəcür elmlərlə doldurulur. Başları nə mərtəbə dolu isə, əzələləri o mərtəbə işlədilmir. Onlardakı fitri səciyyələr (məsələn, bir təhlükə qarşısında şaşırmamaq, kəndini qeyb etməmək, vəziyyətə hakim qalıb eyi düşünə bilmək, cəsur olmaq kimi) qeyb olub gedir. İbtidai yaxud edadi və ya ali dərəcədə təhsil görsün, həyat davası meydanına atılan bir cavan pak dırnaqları, nərmin [yumuşaq] əlləri, nazan [nazlı] rəftarı ilə bəlkə arvadlar məclisində bir qəhrəman, bir qalib ola bilər. Fəqət əsl həyat davasında o məğlubdur, çünki qorxaqdır, çünki mənəvi vücudu dərəcəsində maddi bədəni qüvvətli deyildir. Böylə cavanlarla biz İngiltərəni, İngiltərənin böyük imperiyasını mühafizə edəməyiz.”*

General bu sözlərini ingilislər haqqında söyləyirdi. O ingilislər ki, futbol oyunları ilə, hər cür velosiped, at, avtomobil yarışları ilə bütün dünyada şöhrət qazanmışlardı. Halbuki general bu kimi oyunların, yarışların düşünülən faydanı vermədiklərini və insanlardakı səciyyələri meydana çıxarmadığını iddia edir və eynən şu sözləri söyləyir: “Futbol oyunları, hər növ yarışlar, onlara məşğul olanları yaxın zamanda ağılsız bir hala gətirəcək.”

General mədəniyyətin zəiflətdiyi gəncliyi diriltmək, ona əsl qüvvətini və onun ruhunda qapalı qalmış səciyyələri meydana vermək üçün izçilik deyilən tərbiyə üsulunu tövsiyə edirdi. Baden-Pauel vasi [geniş] ingilis müstəmləkələrində çox gəzmişdi. Orada vəhşi heyvanlar ovçularını, böyük meşələrdə yaşayan yerliləri, işlənməmiş torpaqları ziraət ediləcək [əkilib-biçiləcək] bir hala gətirən və bütün həyatları daimi bir məşəqqət içində keçən insanların həyatını görmüş və onları tədqiq etmişdi. Həzrəti-Adəmdən bəri insan ayağı basmamış nəhayətsiz meşələrin arasında yaşayan qəbilələrin həyat davasında nasıl müvəffəq olduqlarını, təbiətin mərhəmətsiz qüvvətləri ilə nasıl mübarizə etdiklərini, əxlaqlarının çəkdikləri məşəqqətlə mütənasibən nasıl yüksəldiyini misal göstərib ingilis gəncliyini də bu üsulda tərbiyə etmək lazım olduğuna inanırdı.

Vücudun istədiyi idmanı vasi ovalarda, çətin dağlarda gəzərək, əylənərək və heç bir qeydə bağlanmayaraq təlim etmək, şəhər uşaqlarının da xoşuna gedəcək bir şey idi. Onun üçün generalın fikri dərhal ətrafa yayıldı. Bir il içində ingilis uşaqlarından 100 min kişilik [nəfərlik] bir “izçi ordusu” vücud buldu. Beş-altı il sonra da bu ordu 500 min oldu. Bu hərəkət yalnız İngiltərədə qalmadı. Amerikada, Fransada, Germaniyada, İtaliyada, Yaponiya və hətta Çində belə izçilik təşkilatına böyük əhəmiyyət verildi. Hökumətlər bu üsulun milli müdafiə üçün olan əhəmiyyətini layiqi ilə anladıqlarından, təşkilata səmimi və ciddi surətdə qatışdılar və təşviq etdilər.

İzçiliyin Cahan davasında [Dünya müharibəsində] nə dərəcə faydalı olduğunu indi tamamən bilməyiriz. Bunu yaxında öyrənəcəyiz. Şu qədər deyəlim ki, ingilislərin bu davada təşkil etdikləri ingilis cavanlarından mürəkkəb [ibarət] orduları əsgərlik nöqtəsindən böyük bir təlim görməmişlərdi. Onlardakı izçilik tərbiyəsi üçdörd ay içində ən mükəmməl bir əsgər olaraq yetişməyə kifayət etmişdi və bu ingilis cavanları Germaniya qoşunlarının müdhiş hücumlarına bütün Müttəfiq qoşunlarından artıq dayanmışlardı. Fransızlar, italyanlar ricət [geri çəkilmə] yolları kəsilincə təslim olub əsir düşdükləri halda, ən yekəsi 19-20 yaşından ibarət ingilis qoşunları son nəfərlərinə kimi mübarizə və mücadilə etmişlərdir. Təyyarə, zirehli avtomobil hücumlarında dəxi ən çox cəsarət göstərən yenə ingilislər olmuşdur. İştə bu cavanların digər millətlərdən ziyadə ölümdən qorxmazlıqları general Baden-Pauel sayəsindədir.

Cavan Azərbaycan Cümhuriyyətinin cavan övladları üçün də izçilik təşkilatından istifadə etmək vacibdir. Bir neçə məqalə ilə bu təşkilatın əsaslarından bəhs edərək müəllimləri, mürəbbiləri [tərbiyəçiləri] tənvir etmək [məlumatlandırmaq] istəyirəm. Yazda dəxi Gəncə türk uşaqları arasında izçilik təşkilatına xüsusi surətdə çalışacağam və əminəm ki, bu fikrimə yoldaş olacaq müəllim və mürəbbi arxadaş da bula biləcəyəm.

*Tofiq Nurəddin Ağayev*

## İSLAM MƏŞİXƏTİ

“Azərbaycan” cəridəsində [qəzetində] “Məşixət məsələsi” ünvanlı məqaləni oxudum. Məlum olduğu üzrə şəriəti-islamiyyə mühafizə və icrasına etina olunmaq zamanı təqərrüb etmişdir [gəlib çatmışdır]. Lihəzə [buna görə] mən dəxi bir nəfər müslüm [müsəlman] adı daşıyanlardan olduğum üçün, naqis də olsa təsəvvür ərz etməyə [fikrimi deməyə] haqlıyam zənn edirəm.

İslam məşixəti denildikdə əvvəla diyanətin ədəmi-diyanətə [dindarlığın dindar olmamağa], ya maddiyyat və təbiiyyatın ruhaniyyata [maddi və fiziki şeylərin mənəviyyata] müqayisə və tərcihi və diyanət tərəfinin iltizamı [tərəfinin tutulması] və saniyən [ikincisi] ədyan [dinlər] arasında islamiyyətin ən ali və muxtar [seçilmiş] və əsləh [ən yaxşı] bir din olmaq fəlsəfəsi xatirə gəlir. Fəqət şu fəlsəfələrin təfsil [izah] zamanı daha sonralarda gələsidir. Feilən islam məşixəti doğru və səhih bir əsasla təşkil olunarsa, ərz etdiyimiz mətalib [mətləblər, məsələlər] dəxi əhsən vəchlə [ən gözəl şəkildə] həll olunar. Yenə də müqəddimə [giriş] olaraq bir qaç [bir neçə] söz söyləməliyiz:

Demək olar ki, dühati-fəlasifə və “sayisin” [fəlsəfə və siyasət dahiləri] şu rəydə əqləbiyyəti [çoxluğu] təşkil edir ki, hər bir təsis olunmuş dövlətin əsası diyanətlə olsa, onda bir istiqrar [sabitlik], bir mətanət, bir davam ümidində olmaq olar. Lakin imansız bir dövlət sərab nümayişindən başqa bir şey olammaz. Bizim cavan və cavanbəxt [bəxti açıq] dövlətimiz Azərbaycanın dəxi ibtidayi-təşkili [təşkil olunmasının başlanğıcı] dini-mübini-islamın [yaxşını pisdən ayıran islam dininin] rayəti-hidayətü irşad [doğru yolu göstərən bayrağı] və zıllü pənahi-imdadı [xilas edən və kömək edən kölgəsi] ilə olarsa, onun davam və imtidadına [uzunluğuna] ricayi-vasiqdə bulunmaq [etimadlı bir şəkildə ümid etmək] olar. Azərbaycan dövləti-müəbbədəsində diyanəti-islamiyyə rayətini islam məşixəti vasitəsilə mürtəfe etmək gərəkdir. [Əbədi Azərbaycan dövlətində islam dininin bayrağını şeyxülislamlıq vasitəsi ilə ucaltmaq lazımdır.] Böylə isə islam məşixəti hər vəch və səbk [yol, üsul] ilə olsa, həm də etinaya və müstəhkəm [möhkəm] bir ehtiyata mənutdur [bağlıdır]. Mən sənələrdən bəri təşkilati-milliyyələrimizə diqqətlə baxıb düşünməkdəyəm – əhali və mütəfəkkirlərimizin rəyləri qaliba bu nöqtəyə mütəvəccihdir [yönəlmişdir] ki, hər vəchlə olur-olsun, bir cəmiyyət, bir təşkilatımız olsun, sonra islah edəriz, ya [islah] olunar! Məmafih [ancaq] qalibən [əksər hallarda] sonra fasid [pis] nəticələr verərək büsbütün təşkilat və cəmiyyat namından [adından] nifrət etməyə məcbur oluruz! İslam məşixəti dəxi sair cəmiyyətlər kimi sonralar islah olunar xülyası ilə etinasızcasına təşkil olunarsa, məazallah [Allah eləməsin], əsli-islamiyyətdən birəğbət olmağa qalibi-nas üçün haqq vermək imkanidir! [əhalinin əksəriyyətinin islamiyyətin əslindən üz çevirməsinə haqq vermək mümkün ola bilər!]

Şimdi əsl mətləbə rücu edəlim [qayıdalım]:

İslam məşixətindən bizim ümid etdiyimiz məsail [məsələlər]: əvvəla aləmi-islamı tərəqqi və təaliyə [ucalmağa] sövq edən və Qurani-şərifimizin icab və əmr buyurduğu ülum [elmlərə] və maarifə kamalınca tərvic [rəvac vermək] və təşviq və əhalini məhkum [məcbur] etmək; saniyən [ikincisi] əsrar və dəqayiqi-şər’iyyə [şəriətin sirləri və incəlikləri], siyasəti-ilahiyyə və üxuvvəti-islamiyyənə [ilahi siyasət və islam qardaşlığını] layiqincə müraat [riayət] edərək təlqin etmək; salisən [üçüncüsü] mürafəati-şər’iyyədə [şəriət hökmlərində] büs-bütün tərəfi-ədaləti mülahizə buyurmaq [ədalətin tərəfini tutmaq]; rabiən [dördüncüsü] mehma-əmkən [mümkün mərtəbədə] ədilleyi-nəzəriyyə müqtəzasınca [nəzəri dəlillər əsasında] beynəlmüslimin vaqe olmuş fər’iyyati-müxtəliffihaya [müsəlmanlar arasında əmələ gələn ikinci dərəcəli ixtilaflarda] nöqteyi-tövhid və vifaq [birlik və uzlaşma nöqtəsi] arayıb bulmaq; xamisən [beşincisi] əhkami-zahirə təlqinindən [zahiri hökmləri təlqin etməkdən] daha ziyadə müsəlmanlara əxlaqi-həsənə [yaxşı əxlaq] və ittihadi-islam [islam birliyi] və qeyrəti-namus [namusu qorumaq] və mücahideyifi-səbilallah [Allah yolunda cəhd etmək] müəllimləri yetirib təyin etmək.

Madam ki, məşixətdən bu dərəcə, bəlkə daha böyük məsuliyyətli təmənna və ümidlərdəyiz, məşixət nasıl təşkil olunması varesteyibəyandır [söyləməyə ehtiyac yoxdur]!

Əski üsul tərtibat və təyinata alışmış dünya tamahkarları, mənasibi-ruhaniyyəni də dükandarlıq nəzəri-şəamət-əsərilə vəsayət və əsbab vasitəsilə dərdəst etməyə çalışacaqlardır [mənəvi mənsəbləri də uğursuz dükançılıq nəzəri ilə qiymətləndirib, müxtəlif vasitələr və bəhanələrlə ələ keçirməyə çalışacaqlar]. Şübhə yox yaxşı-yamanı, doğruyalanı, şər’i və şeytani əhliyyəti [şəriətə uyğun yaxud şeytana məxsus xasiyyətləri] zahir simada görüb seçmək səhih deyildirsə də, nasıl olursa ye- nə təzvir, məkr və xədyə [saxtakarlıq, yalan və fırıldaq] sahiblərindən qurtulmaq da qolay və səhl [asan] olmayacaqdır. Məazalik [bununla birgə], keçmiş idarati-şər’iyyə və amali-qüzzatı [şəriət idarələrini və qazilərin əməllərini] mizan edərək [tərəziyə vuraraq] hökuməti-cəlilələmiz [uca hökumətimiz] ehtiyatkaranə hərəkətdə bulunarsa, bəzi şüruri-nəfslərdən [nəfslərin şərlərindən] təxlisi-giriban etməsək də [yaxamızı qurtarmasaq da], bütün-bütünə əşrar məl’əbəsi də [şərlərin oyuncağı da] olmarız! Zənnimcə hökuməticəliləmiz islam məşixəti təşkilində əcələ etməzsə daha münasibdir. Hər bir mütəfəkkir – islam mühibbi [islam dostu, islamı sevən] təriqeyi-ehtiyati [ehtiyat yolunu] düşündüyü kimi hökumət[in] nəzəri-alisinə [ali diqqətinə] ərz edər, hökumət ricalı [adamları] da düşüncələrdən birər düsturi-əməli-səhih [düzgün bir nizamnamə] cəm edib [yığıb, tərtib edib] onun tibqincə [onun nü-munəsində] məşixət təşkilinə iqdam və sərfi-ehtimam edər [girişər və çalışar]!

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 fevral (Çərşənbə günü) tarixli 106-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Böylälikdə biqövli-füqəha [fiqh alimlərinin sözü ilə] tətili-əhkamişər'iyyə [şəriət hökmlərinə ara vermək] lazım gəlməz; zira səhih tərtib hüsula gəlincəyə qədər sabiqi vəz'lə [əvvəlki qanunları tətbiq etməklə] hər qazı öz vəzifəsini kəma-fissabiq [əvvəlki kimi] icra edər! Fəqət səhih düsturüləməl təhsilində [düzgün nizamnamənin əmələ gəlməsində] mümkün olduqca təcil etməlidir [tələsmək lazımdır], müsamihə və müsahilə edərək [yumuşaqlıq və laqeydlik göstərərək] iləlabəd [əbədiyyətə qədər] əhaliyi-islamiyyəni [müsəlman xalqı] əşrar [şərlər, pisliklər] əlində və şəriəti-mütəhhərə əhkamını [pak şəriətin hökmlərini] füccar [əxlaqsızlar] idarəsində buraxmamalıdır. Azərbaycan hökuməti-cəliləsi bir islam müəssisəsi olmalıdır ki, davam və istimrar ilə [uzun ömür sürərək] yaşasın!

Düsturüləməl düşüncələrindən bir nümunə olaraq mən kəndi düşüncələrimdən bəzi cümlələr söyləyib, ətraflıca düşünüb ərz etməyi də üləmayi-ə'lam və ürəfayi-kiram [alimlərin qabaqcılları və ariflərin böyükləri] həzəratından [həzratlarından] təmənna edirəm. Mənim zənnimcə məşixət ya qəzavət ya məhkəmeyi-şər'iyyə [şeyxülislamlıq yaxud qazılıq yaxud şəriət məhkəməsi] təsisinə hökumətin əşəddi-ehtiyacı [şiddətli ehtiyacı] olduğu bədihi [açıq-aşkar] bir məsələdir. Lakin bu əsaslar nasıl olsun ki, həm şəriəti-müqəddəsə, həm hökuməti cəlileyi-islamiyyəmizə müvafiq, camaat və əhaliyi-müslimanı məmnun edə bilsin. Oxuduğumuz cəridə [qəzet] məqaləsinin intixab [seçki] məsələsi həm də dörd üzvdən mürəkkəb [ibarət] idareyi-məşixət [şeyxül-islamlıq idarəsi] təsisinə işar olunur [işarə vurulur]. Əvvələ mən intixab məsələsini pək səmimi təsdiq edənlərdənəm. Əlbəttə bir əmrdə [işdə] ki, üqul və ara ittifaq edə [ağıllar və rəylər birləşə], o əmr eyni-həqiqət [tam bir həqiqət] olmasa da, qəribi-bəhəqq [həqiqətə yaxın] olar. Ha-kəza [eləcə də] dörd nəfər ya beş nəfər əzayi-müntəxəbədən [seçilmiş üzvdən] təşkil olunmuş bir məşixəti-islamiyyə, kəzalik [həmçinin] bir qəzaxana ya bir məhkəmeyi-şər'iyyə əhkam və füruati-diniyyəyə came olar [dinin hökmlərini və incəliklərini özündə cəm edər]. Fəqət əsl mətləb intixab məsələsinin nə surətlə icrasındadır!

Məlumdur ki, əvvələ Azərbaycan əhalisi məarifcə sadə, xüsusən məalimi-islamiyyədən [islam elmlərindən] əksəriyyət etibarilə ittilasız [xəbərsiz, məlumatsız] və savadsızdırlar. Məşixət və qəzaya [qazılığa] isə islam alimi gərəkdir. Saniyən [ikincisi], hər bir şəhər və qəryədə [kənddə] bir Cümə sureyi-şərifəsi oxuyub, əngəhtü zevcət deməkbilən bir dükandar, əhali arasında nüfuz sahibi və ə'lam-əl-müctəhidin [müctəhidlərin ən biliklisi] deyə məqbul [qəbul] olunmuşdur. Hansı yerin əhalisindən namizəd soruldaqda öz "molla rəhmanqulusunu" nəzərə verəsidir. Hər bir hilə və dəsisə [fırıldaq] ilə rus dövləti-mənhusəsinin [nəhs, alçaq rus dövlətinin] amalından istifadə edib ocaq və ziyarətgah olmuş savadsız və nəfsi Azərbaycan yenə də camaatımız tərəfindən intixab olunasıdırlar! Demək intixab haqqı verilmək ən güzidə [seçilmiş, üstün] bir hürriyyət və siyasi-ixtiyar [geniş ixtiyar] yolu olsa da, intixabçılarımız qərəzdən xali [uzaq] olmadıqlarından, doğru çıxmayır. Xüsusən alim intixabı. Əlbəttə cühəlanın alim intixabına haqqları yoxdur. Halə müntəxəb əşxasın [seçilən şəxslərin] nə gunə fəzihətkar [nə qədər biyabırçı] olduqlarından və nasıl əhalini iğfal edərək [aldadaraq] özlərini intixab etdirdiklərindən [seçdirdiklərindən] və bilaxirə [daha sonra] nə kimi məfsədlərə [fəsadlara] bais olduqlarından bəhs olunsa, böyük bir divan və tarix yazmağa hacət görünər! Xülasə, bir kəlmə deyib durmaq ki, bizim intixaba haqqımız var, daha ümuri-idarələrimizi [idarələrimizin işlərini] islah edə biləriz, ona heç bir qəziyyədir. Bəlkə intixab üsuluyla olduqdan maəda [başqa], bir daha müntəxəb şəxsin istedadını yoxlamaq və mizan etmək gərəkdir. Yoxlamaqsa hər halda və hər sahibi-hünərdə olarsa mümkün bir əmrdir [işdir]. Bir alimi, bir müctəhidi-fazili [fazilət sahibi müctəhidi] mütəvəssit [orta səviyyəli] əhli-elm və fəzl sahiblərinin ictimasında [yığıncağında] bəhəqq [layiqli surətdə] mizan edib yoxlamaq mümkündür. Bəşərt ki [bu şərtlə ki], heyəti-mümeyyizə [seçən, qiymətləndirən heyət] bitərəf şəxslərdən tərəkküb etmiş [əmələ gəlmiş, ibarət] olsun!..

Məncə məşixət ya qəza ya məhkəmeyi-şər'iyyə əzası [üzvləri] hər baldə və qəryədən intixab olunub namizəd göstərilən əşxasdan təşəkkül etməlidir; fəqət şu namizədlər Ədyan Nəzarətində [Din İşləri Nazirliyində] tərtib olunmuş səhih və məqbul məramnamə və proqramma mövcibincə [əsasında] və kənardan dəvət olunmuş iyirmidən əskik olmayan ərbabi-irfan hüzuruyla [irfan sahiblərinin iştirakı ilə] imtahan olunub, sonra vəzifə tapşırılmalıdır. İntixab isə, doğru üzü ilə olduqda şəxsi-müntəxəbin [seçilmiş şəxsin] əhali arasında etibar və əmniyyətini [güvənilirliyini] ifadə; və imtahan isə vaqedə [həqiqətdə, gerçəkdə] ləyaqət və istedadını məlum edər. Əgər müntəxəb imtahan verə bilərsə, əhali arasında qazandığı nüfuz və etibarın həqiqi olduğunu, verə bilməzsə dəsisə və hiləkar olduğunu meydana çıxarar.

Məlumdur ki, müstəqbəldə [gələcəkdə] ruhani məktəblərimiz sayəsində həqiqi alimlər və şəriət xadimlərimiz yetişəsidir, vəli [amma] feilən təzvir [yalan, fırıldaq] əhalisindən istixlas [qurtulmaq] üçün gərəkdir şiddətlə ehtiyatkar davranmaq.

İntixab üsulu isə demokrat intixab şəraitinə müvafiq olmaqla bir də intixab əmrinə mübaşir olan əşxasın [seçki işinə girişən şəxslərin] bitərəf və kənardan gəlmə olub, əhaliyə iman və diyanət namına doğru və dürüst intixab etmələrini tövsiyə edərək bəlkə də yəmini-müəkkəd [möhkəm and] ilə hazırlanıb sonra intixab etməlidir. Bir az müddətdə mütəəddid [çox sayda] intixablardan əqlabi-əhli-bəsirətə [bəsirətlilərin çoxuna] ləyüəd [saysız-hesabsız] təcrübələr hasil olmuşdur. Məzlum və avam əhaliyi-məsumanı [günahsız camaatı] hər dəsisəkar [hiləkar] öz məramına alət etdiyi göz önündədir.

İdarələrin əzasına [üzvlərinə] gəldikdə: məlumdur ki, sədri-islamdan, yəni xüləfayi-raşidin həzratlarından bir neçə müddət sonradan şimdiyə kimi islam arasında məzahibi-xəmsə [beş məzhəb] denilən beş məsləki-şər'i [şəriət məsləki, cərəyanı] mövcuddur. Bizcə bunlar gec və tez əsasi-dinə ricətən [dinin əsasına qayıdaraq] məzhəbi-vahid [vahid məzhəb] olacağı günlər çox da uzun müddət çəkməz! Feilən beş məzhəbin üləmasından təşkil olunmalıdır. Fəqət məhəl [yer] və əhalinin şən və halını müraat etmək [gözləmək, ona riayət etmək] dəxi əlzəmdir [vacibdir]. Hər bir məhəldə ki əhali bir məzhəbin müqəllidləridir [arxasınca gedir], üç nəfərdən mütəşəkkil bir məhkəmeyi-şər'iyyə idarəsi orada təşkil olunmalıdır. Hər məhəldə ki iki, üç, beş məzahibin müqəllidləri vardırlar, orada hər məzhəbdən bir nəfər bəsirətli alim şəxs intixab və imtahan olunaraq idarəyə əza salınmalıdır.

Məşixət isə əlbəttə gərəkdir məzahib-xəmsənin üləmasından bir nəfər ittihad [birlik] və islam tərəfdarı alimin sədarəti ilə təşkil olunsun.

*Cəlal*

## MƏTBUAT

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin türkcə (ruscası da olacaqdır) naşiri-əfkarı [mətbuat orqanı] olan "İstiqlal" qəzetəsinin birinci nömrəsi çıxmışdır. Baş məqaləsi tarixi-hürriyyətə [azadlıq tarixinə] bir nəzər salaraq, hər inqilabın bir hürriyyət, cahan inqilabından ibarət aləmşümul müharibənin də istiqlal və millətlərə hüquq şüarı doğurduğunu və Azərbaycanın da bu yola süluk etdiyini [bu yola addım atdığını] qeydlə, bu uğurda firqənin çəkdiyi müşkülatı böylə təsvir edir:

*"Ah, Azərbaycan, biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər müarizlərə [etirazçılara, müqavimətçilərə] rast gəldik, nə töhmətlərə məruz qaldıq! Azərbaycan muxtariyyəti deyirdik, soldan-sağdan hər növ hücuma məruz qalırdıq. Biz «Azərbaycanın torpaqlarını qızdıran atəşi-müqəddəsi» kökslərimizdə bəsləmək istəyirdik, bizə Moskvada yanacaq «məşəli» nişan verirlərdi. Biz aləmi-mədəniyyətə kəndi dilimizin, kəndi mədəniyyətimizin ruh və rəngi ilə pərvərdə [tərbiyə] edilmiş bir millət çıxarmaq istəyirdik, bizə Ərəbistanı göstərirlərdi. Biz muxtariyyət diləyirdik, bizə xarabazar vəd edirlərdi."*

Fəqət bu gün Azərbaycan istiqlalı həqiqət olaraq meydana çıxmışdır. Əvvəlcə "Müsavat"a məxsus olan bir fikir bu gün millətin şərik olduğu bir məqsəddir.

Ona görə firqə qəzetəsincə:

*"Bu bizim mənəvi zəfərimiz, ruhani qələbəmizdir. Bu qələbəyə biz binnisbə [nisbətən] az bir zaman içərisində gəldik. Fəqət bu az zaman içərisində çox böhranlar keçirdik. Vaxt oldu firqə tamamilə yalnız qaldı. Vaxt çox çəkmədi firqəni yalnız buraxanlar nə qəbahət işlədiklərini anladılar.*

*Azərbaycan məfkurəsi, firqə türk demokratiyasının idraklı qisminə istinad edərək irəliləmişdi. Bu, düşmənlərimizin dediyi kimi xan, bəy və ağa fikri deyil, türk demokratiyasının böyük idealı idi!*

*Bakı Azərbaycan atəşgədəsinin ocağı olduğu kimi, Azərbaycan fikrinin də mənbəyi idi.*

*Lakin Azəri türklərinin istiqlalını bəzi millət düşmənləri çəkəmməyirdilər. O idi ki, bolşeviklərlə daşnaklar bu ocağı söndürmək, bu mənbəni qurutmaq istədilər.*

*Mart hadisəsi meydana gəldi. Fəqət Azərbaycan atəşi kimi fikri də söndürülənməz idi.*

*Çünki:*

*Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri,*
*Məşəli-əfkari-əhrarənə sönməz xun ilə."*

"İstiqlal" qəzetəsinin nəşrindən məqsəd nədir? Bu suala yenə həman məqalə bərvəchiati [aşağıdakı kimi] cavab verir:

*"İştə bu xunlarla [qanlarla] söndürü-lənməyən və bu gün hər kəsi kəndisini tanımağa vadar edən, yolunda dönməz bir əzmlə cihad etdiyimiz Azərbaycan istiqlalını müdafiə üçün "İstiqlal" nəşrə başlayır."*

Bu uğurda qəzetənin xətti-hərəkəti necə olacaqdır? Yenə həman məqalədən cavab alalım:

*"«İstiqlal» firqənin əvvəlcə nəşr etmiş olduğu mətbuatın getdiyi yolu təqib edərək hökumətimizi xalqın ehtiyacını anlamağa, xalqımızı da hökumətin müşkülatını dərk etməyə çağırmaqla, istiqlalımızın beynəlmiləl bir təsdiqə nail olmasını hazırlayacaqdır.*

*Bu xüsusda tutacağımız yol isə bittəb' [təbii olaraq] Türk Ədəmi-Mərkəziyyət «Müsavat» yoludur ki, lisani-Tofiqdə:*

*«Millət yoludur, haqq yoludur tutduğumuz yol,*
*Ey haq yaşa, ey sevgili millət yaşa var ol!»*
*deyə tərif edilmişdir."*

Rəsulzadə Məhəmməd Əmin cənabları imzası ilə yazılmış bu baş məqalədən əlavə, Seyid Hüseyn [Sadiq] cənablarının "İsmailiyyə"si ilə Əli Yusif əfəndinin "Bu günün vəzifəsi", şair [Abdulla] Şaiqin "Vətənin yanıq səsi" qəzetəyə başqa bir ruh verməkdədir. Bunlardan əlavə qəzetədə bir çox firqə həyat və bəyanatına aid materiallar vardır.

Yeni rəfiqimizi təbrik, məqsədinə nail və fəaliyyətində müvəffəq olmasını arzu ediriz. Əmin ol rəfiqimiz:

"Bir şəm' ki haqdan yana heç bad [külək, yel] ilə sönməz!"

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi Bakı polismeysterinə İskələ [Liman] dairəsi müfəttişinin 31 yanvar 1919-cu sənədə göndərdiyi məktubunu göndərərək məlum etmişdir ki, Bələdiyyə İdarəsi hökumət indində [nəzdində] şəhəri polis məxaricatından azad etmək barəsində təşəbbüsatda bulunur. Binaənileyh [ona görə] İskələ dairəsi müfəttişinin vəsiqədə göstərdiyi məxaricatı verə bilməyəcəkdir.

* Bələdiyyə İdarəsi Bakı polismeysterinə məlum etmişdir ki, Dövlət Teatrosu icarədarı Amiraqo şəhər vergisini verməkdən imtina edir. Halbuki həman vergilər bu vaxtadək biletlərdən alınmışdır. Bələdiyyə İdarəsi qət etmişdir [qərara almışdır] ki, təcili surətdə vergilər alınsın və işbu iqdamatda [təşəbbüsdə, işdə] polis məmurunun Bələdiyyə İdarəsi nümayəndələrinə müavinətdə bulunmalarını rica və təmənna etmişdir.

* Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, keçən sənələr vergilərini əhalidən almağa izin verilsin. Keçən sənənin 3 fevralında Bələdiyyə İdarəsinə izin verilmişdi, işbu vergilər alınsın. Fəqət şəhərdəki əhval, məsələn Mart hadisatı və qeyrə işbu vergiləri almaqdan məhrum etmişdir. Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətindən rica etmişdir ki, işbu məsələ nəzəri-etibara alınmalıdır. Zira şəhər kassasının fəna əhvalı Bələdiyyə İdarəsini fəaliyyətdən məhrum edir. Bir də vergilər şimdiki hesab deyil, 1918-ci sənə hesabı ilə alınacaqdır.

**Bakı əhalisinə**

Vətəndaşlar!

Səpmə yatalaq naxoşluğundan kəndinizi mühafizə etmənin ümdə şəraiti [şərtləri] libasınızın, paltarınızın və bədəninizin təmizliyidir. Mərkəzi Ev Komitəsi əhalinin bu barədə ehtiyacını nəzərə alıb şəhərin çox nöqtələrində füqəra sinfi [kasıblar] üçün **pulsuz hamamlar** açdırır. Hamamda yuyunanların paltarları hamamda dezinfeksiya təriqi [yolu] ilə təmizlənib, onlarda olan bit və qeyri həşəratlar yandırılacaqdır. Hal-hazırda Maqazinni və Nijni Priyut küçələrinin küncündə, Mironovun 213 nömrəli hamamı fəaliyyətə başlamışdır. (Hamam erkəklər üçün səşənbə [çərşənbə axşamı], pəncşənbə [cümə axşamı] və şənbə günləri və qadınlar üçün düşənbə [bazar ertəsi], çaharşənbə [çərşənbə] və cümə günləri açıq olacaqdır.) Bundan əlavə, bu yavuqda Bayılda dəxi hamam açılmağına iqdam olunmuşdur [addım atılmışdır]. Yeni hamamlar açıldığı zaman əhaliyə elam ediləcəkdir [bildiriləcəkdir].

Mərkəzi Ev Komitəsinin Səhiyyə şöbəsi əhalini bu hamamlardan istifadə verməklə kəndilərini və yavuq adamlarını həmin müsri [yoluxucu] naxoşluqdan nicat tapmağa dəvət edir.

**Kəsbkarlar İttifaqı nümayəndələri general Tomson hüzurunda**

Srağagün Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] nümayəndələri İngiltərə qoşunları komandanı general Tomson tərəfindən hüzura qəbul edilərək bir neçə məsələ barəsində müzakiratda bulunulmuşdur. Nümayəndələr general cənabları indində [nəzdində] işbu məsələlər üçün təşəbbüsatda bulunmuşlar:

1) Həbs edilən Babayev qardaşlarının azad edilməsi barəsində lazımi tədabirin ittixazı [tədbirlərin görülməsi] məsələsinə general demişdir ki, onların işlərinə ən yaxın zamanda baxılacaqdır.

2) Nümayəndələr generala məlum etmişlər ki, Bakı müharibəsi zamanında general Denstervill (sabiq İngiltərə qoşunları komandanı) Şuraya məxsus 5 milyon manat pulu götürmüşdü. Kəsbkarlar İttifaqı rica edirlər ki, həman məbləğ nəşri-maarif [maarifi yaymaq] və başqa yerlərə xərc edilmək üçün ittifaqa qaytarılsın. General cənabları demişdir ki, bu barədə o heç şey bilməyir, fəqət məsələni ən yaxın zamanda təhqiq etməyi dəröhdə etmişdir [öhdəsinə götürmüşdür].

3) Nümayəndələr ərzaq məsələsinin günü-gündən fəna halını bəyanla rica etmişlər ki, ehtikarın [möhtəkirliyin] önü alınsın. General iqdamatda bulunmağı vəd etmişdir.

4) Tazəşəhərdə cinayət namı ilə bir çox siyasi həbslər edilməkdədir. Fəhlə təşkilatlarına mənsub yoldaşlar tövqif [həbs] edilmişlərdir. General bəyan etmişdir ki, teleqrafən məlumat alacaqdır.

5) Bir də nümayəndələr rica etmişlər ki, yerli mətbuatda məlum olduğu üzrə Bakının özündə bu hal hökmfərma olmaqdadır [hökm sürməkdədir]. General demişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunacaqdır [sərəncam verəcəkdir].

## BEZ FƏQƏRƏSİ [BEZ MƏSƏLƏSİ]

Ay yarım bundan əqdəm [qabaq] bir çox kənd və şəhərləri böyük və fəna bir xəstəlik əhatə etmişdi. O cümlədən bu mənhus mərəz Balaxanı kəndinə dəxi sirayət edib [yoluxub] bir çox xanimanları viran və bir çox qapıları da bağlı qoydurdu. Bu, hər kəscə məlum, təkrara heç bir lüzumu yox. Lakin söyləməkdən mənim məqsədim bir nəfər Balaxanı "vicdanlılarından" – ki hələ söyləmək istəməyirəm – kəndi vətəndaşları haqqında ibraz buyurduğu "fədakarlıqdan" bir qədər bəhs edib bu alicənabın nə dürlü "vicdanlı mütəəssib" [təəssübkeş] olduğuna qareini [oxucuları] aşina etmək istəyirəm. Bu cənab Balaxanı kəndxudası Məşhədi Əli Xasdan bir vəsiqə alaraq Tağıyevin fabrikasına müraciət eylər və iki min arşın ağ, xalq meyitlərini kəfənə tutub dəfn etməklik üçün alar. Sonra yenə dörd min arşın bez Balaxanı camaatı tərəfindən verilən priqavor [qərar] gücü ilə alar ki, bu da xalqın tuman-köynəksiz qalmamasına xidmət etsin. Məqsəd albəttə gözəldir! Ancaq şu nöqtədən ötəyə keçdikdə, cənabın yapdığı rəzalət şayani-nifrətdir [nifrətə layiqdir]. Çünki cənab füqəra meyiti adı ilə alan ağdan və xalqın ehtiyacına lüzumu olan bezdən bir arşın da olsun verməmişdir. Qabaqlarda eşidirdik ki, bu əfəndi aldığı ağ və bezlərin pulunu füqəranın ehtiyacına sərf edəcəkdir. Bu da ki, heç görülmədi. Fabrikadan aldığı ağ, bez və qaryola [yataq] üzlərini satıb, pullarını öz ciblərinə qoymaq istədikdə, üç-dörd nəfərin bundan xəbərləri olur. Cənab bunların hərəsinə 5-10 min manat verərək, onları bu tövrlə susdurmuşdur. Bu susdurmaq ancaq dörd nəfərə səmərə bəxş etdisə də, lakin füqəranı və camaatı susdurmadı. Camaat bundan bez, ağ və qaryola üzlərini istədikdə, uzun və kəşidə [iri, şapalaqlı] əllərini açaraq "çe besaxom", yəni nə yapayım; kimsə bu qəbahəti düşünməz və dörd-beş nəfər arasında təqsim etdiyimiz [böldüyümüz] para yenə neft işləri açılanadək yetərdi zənn edirəm; şimdi nə yoldaşlarımı söyləyə bilirəm, nə də ki məndə aldığım camaatın parası qalmışdır, deyə cavab verir. Şimdi mən üzümü dostanə bu cənaba tutub deyirəm ki, əfəndim, nə üçün füqəra sədəqəsi ilə varlanmaq istəyirdin? Səni kim bu işə vadar etdi? Səni qeyrilər bu işə vadar etdikdə, əcəba heç vicdanına müraciət etmədinmi? Əcəba bu dürlü işlər, bu gunə [bu cür] qəbahət və rəzalətlər nə üçün şimdiki zamanda meydana çıxır?

Bu gün hər bir şəxs hökumətinə sadiq qalmaq, onun rütbəsini ucaltmaq arzusunda olduğu üçün bu kimi cinayətlərin önünü almağa qalxışır. Məəttəəssüf [təəssüf ki], bir para vicdansızlar bu kimi mənhus hərəkətlərlə hökumətin rütbəsini azaltmaq və onu cahaniyyan [dünya xalqları] nəzərində mühəqqər [xar] və zəif göstərməyə çalışırlar. Haşa, əfəndim, zənn etdiyin kimi deyildir. Bu gunə xəyanətliklərə və xainlərə cəza verməkdə hökumətimiz pək iqtidarlı və pək güclüdür. Dəxi sözümə tul verməyib [sözümü uzatmayıb], bu kimi xəyanətlərə və bunlar kimi xainlərin yapdıqlarına möhtərəm Azərbaycan Hökumətimizin nəzərini cəlb edib və bu kimi xəyanətliklərin önünü almağı rica və istirham ediriz.

*Ayn.*

## AZƏRBAYCANDA

**Bərdədən (Cavanşir qəzası)**

Bir az əqdəm [qabaq] ağır ispanyol xəstəliyini keçirtmiş camaat şimdi də səpmə yatalaq xəstəliyinə mübtəla olur. Sabiq dövlət tərəfindən açılmış xəstəxanamız və məccani [pulsuz] əczaxanamız varsa da, keçirdiyimiz hərc-mərc nəticəsi olaraq bunlardan bir əsər belə qalmamışdır. Xəstəsini təbibə götürən camaat dərman almaq üçün xüsusi əczaçıya (aptekçiyə) müraciət edir. Bu isə 50 rubləyə tamam olacaq bir reçetəyə 250 rublə və daha fəzlə alaraq camaatı sıxındırır. Bunun üçün bir çarə edilməsini artıq dərəcədə rica edərdik. Zira bir tərəfdən xəstəlik, digər tərəfdən də böylə bimürvət əczaçı əlindən artıq sıxıntı çəkiriz.

* Nuxu (Şəki) - Zaqatala şose yolları haqqında Parlaman iclasına idxal edilmiş sorğunu qəzetələrdən oxuduq. Bilməm nədənsə Yevlax-Şuşa şosesi haqqında bir söz belə söylənməmişdir. Burası denilməyəcək bir surətdə dağılıb bərbad olmuşdur. Bu yollardan üburat [keçmək] qayət də müşküldür, xüsusən yağmurlu havada. Şose üzərində öylə yerlər var ki, müsafirlər piyada getmək məcburiyyətində qalırlar. Bu səbəbdəndir ki, nəqliyyat işləri çətinləşib, kirayə [yük və sərnişin daşıması] qiymətləri çox yüksəlmişdir.

* Poçta-teleqraf işlərinin çox fəna olduğundan mərkəzdən bixəbər qalırız. Hökumət tərəfindən poçtanı həml [daşımaq] və nəql etmək üçün müahidə [müqavilə] bağlanmışsa da, həman zat poçtanı daşımağa heç də etina etməyir. Öylə olur ki, aylarla poçta alınmayır. Məsələn, Parlaman dəvət edilməzdən əvvəl Şurayi-Milli tərəfindən Azərbaycan əhalisinə xitabən nəşr edilmiş müraciətnamələr burada, fəqət iki gündür ki, alınıb elan edilmişdir.

Teleqraf işləri də böylə, məsələn: sabiqdə Bakıdan iki gün fasiləsi ilə adi məktublar alınırdı. Şimdi isə teleqramı üç gün müddətində almaq belə olmayır. Bunun səbəbi (məhəlli poçta-teleqraf idarəsi müdirindən aldığım məlumata nəzərən) bütün vilayətin bircə xətlə işləməsidir. Halbuki Yevlax istasyonu yavuqluğunda azacıq bir məsafənin təmir edilməməsindən dolayı iki xətti-müntəzəm asudə qalmışdır. Bundan maəda [başqa] teleqraf ağaclarının tamamı çürüyüb davamsız olduqlarından xətt də tez-tez təxrib [xarab] olur.

*Mirməcid*

## ERMƏNİSTANDA

**Ermənistanda aclıq**

Ermənistan acından ölür. Hər gün minlərcə erməni acından həlak olur. Ermənistanı adamsızlıq təhdid edir. Aclığa giriftar olmuş Ermənistanın halını islaha çalışmaq qəsdi ilə başda Ermənistan Baş naziri olmaq üzrə Parisə xüsusi bir [heyəti-]mürəxxəsə [nümayəndə heyəti] göndərilir.

**Aramın vəfatı**

Ermənistan Daxiliyyə naziri Aram Manukyan İrəvanda yatalaqdan vəfat eyləmişdir. Yenə yatalaqdan Aleksandropolun sabiq şəhər rəisi Kamsarakan vəfat eyləmişdir.

**Qarsda**

Bugünlərdə Fransa nümayəndəsi kapitan Puade-Bar İrəvandan Qarsa hərəkət eyləmişdir. Müşarünileyh [adı çəkilən şəxs] orada Müsəlman Milli Şurası ilə Qarsın ermənilərə təslim edilməsi barəsində və ümumən müsəlmanları sakit etmək üçün danışığa girişəcəkmiş. Ermənilər tərəfindən Qarsa göndərilmiş olan məmurları müsəlmanlar Qarsa buraxmadıqlarından, geri qayıtmışlardır. Məhəlli [yerli] müsəlmanların ermənilərə olan əlaqələri təhdidamizdir. Türklər məhəlli müsəlmanları son dərəcə gözəl təslih etdirmişlərdir [silahlandırmışlar] və onlarda kifayət edəcək qədər silah vardır. Şəhərin müxtəlif hissələrində olan ingilis əsakiri [əsgərləri] müxtəlif iskladları [anbarları] mühafizə edirlər.

**İrəvanda tif**

İrəvanda dəhşətli surətdə yatalaq xəstəliyi (tif) hökmfərma olduğundan [hökm sürdüyündən] bütün məktəblər qapadılmışdır.

## TEATRO VƏ MUSİQİ

**Allah rəhmət eyləsin**

Bir çox gənc həyatları vaxtsız torpaqlara gömən tif xəstəliyi aqibət istəkli yoldaşımız, cavan artistimiz Surxay Allahverdiyevi də apardı. Surxayın müəssir [təsirli] və cazibədar səsinə alışmış qulağımız artıq onun səsini eşitməz oldu. Gənc Cümhuriyyətimizin gənc səhnəsi gələcəyə böyük ümidlər verən musiqi istedadını yavaş-yavaş ibraz etməkdə [göstərməkdə] olan xidmətçisini qeyb etdi. Surxay, əslən İran təbəəsi ailədən isə də, Qarabağda təvəllüd tapıb [anadan olub] təlim almış və hələ pək gənc ikən istedadını göstərməyə başlamışdı. Böylə ki, möhtərəm Hacıbəyli Qardaşları Müdiriyyəti onun gizlin istedadını anlamış və ona tərəqqi vermək üçün kəndi heyətlərinə qəbul etmişlərdi. Gözəl səsi, musiqi istedadı olduğu kimi, qayət həssas vətənpərəst bir qəlbə malik idi. Milli səhnəmizə böyük xidmətlər vəd edirdi, fəqət heyhat! Bir neçə nəfər qarabağlı arxadaşlarımla bərabər mərhuma rəhmət oxur, səhnə arxadaşlarına Cənabi-haqqdan təsəlli və tofiq [kömək] niyaz eylərəm.

*Əli Yusif*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Təcrübəli buxqalter**

Üç ayın müddətində ən yeni italyan sistemasında türk və rus dillərində mükəmməl surətdə buxqalteriya öyrədirəm. Hakəza firmalarda buxqalteriya işlərini tənzim etməyi qəbul edirəm. Ünvan: Krasnovodski caddə "Dvortsovı" mehmanxanasında nömrə 19.

*2674*

**Yer axtarıram**

Nazirə ya müdirəlik yeri axtarıram. Xarici dillərə malikəm. Ünvan: Suraxanski və Tatarski 176 nömrəli evdə Rəcəbovun mənzili.

*2675*

**İslamiyyə mehmanxanası (lokantası)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta [yeməkxana] açılmışdır. Mahir aşbazların təhti-idarəsində [idarəsi altında] hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51.

Kamali-ehtiramla: İsmayıl Mahmudzadə.

*2670*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca divar təqvimi satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Bakı Bələdiyyə İdarəsi**

Bununla ümum faytonçulara elam edir [bildirir] ki, 1919 sənəsinin birinci yarısı üçün fayton nömrələri bu fevral ayının 8, 9, 10, 11 və 12-sində səhər saat 9-dan 2-yədək Bələdiyyə İdarəsiLəvazim şöbəsi dəftərxanasında verilir. Göstərilən müddətdə hər kəs nömrə almasa, nömrə pulunun yarısı qədər də cərimə alınacaqdır.

*T/27*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"Spasski": Bakıda, indiki Zərgərpalan küçəsi.

***Teleqraf xəbərləri***

"Deyli xronikl" [Daily Cronicle]: 1872-1930-cu illərdə nəşr edilən ingilis qəzeti.

"Deyli meyl" [Daili Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

"Avstraliyalılar qorxurlar ki…": qəzetdə səhvən belə getmişdir: "Avstryalılar qorxurlar ki, Avstraliya əhalisi…"

"…onların qeyri-məmnun olduğu hiss edilir.": qəzetdə "olduğu" yerinə səhvən "olmadığı" getmişdir.

"Folkston Kent": İngiltərənin cənub-şərqində yerləşən Kent qraflığında liman şəhəri olan Folkston nəzərdə tutulur.

***Qəzetələrdən***

"…Hindistanın müstəqil olması tələbi də Şura əmirnaməsinə daxil edilsin.": qəzetdə "Şura" yerinə "şu" getmişdir.

***Felyeton***

"…bu ilk ibtidasında…": güman ki, "bu işin ibtidasında" olmalıdır.

***İslam məşixəti***

"Cümə sureyi-şərifəsi": Quranın "Cümə" surəsi, 11 ayədən ibarətdir.

"əngəhtü zevcət" (ərəbcə)

"Xüləfayi-raşidin": Məhəmməd peyğəmbərdən sonrakı ilk dörd xəlifə (Əbu-bəkr, Ömər, Osman, Əli) nəzərdə tutulur. Onların hakimiyyəti 632-661-ci illəri əhatə edir.

***Mətbuat***

"İstiqlal": Azərbaycan Cümhuriyyəti dövründə Bakıda nəşr olunmuş qəzet. "Müsavat" partiyasının orqanı idi.

"«İstiqlal» qəzetəsinin nəşrindən məqsəd nədir?": qəzetdə "İstiqlal" yerinə "İstiqbal" getmişdir.

"İştə bu xunlarla söndürüləmməyən…": qəzetdə "xunlarla" yerinə "qanunlarla" getmişdir.

"…lisani-Tofiqdə…": Türk şairi Tofiq Fikrət nəzərdə tutulur.

***Bakı xəbərləri***

"Maqazinni": Bakıda, indiki Süleyman Rüstəm küçəsi.

"Nijni Priyut": Bakıda, indiki Süleyman Rəhimov küçəsi.

"Tazəşəhər": Krasnovodsk, indiki Türkmənbaşı şəhəri.

***Bez fəqərəsi***

"çe besaxom" (tatca): nə edim?

***Təcrübəli buxqalter***

"Krasnovodski caddə": Bakıda, indiki Səməd Vurğun küçəsi.

***Yer axtarıram***

"Suraxanski": Bakıda, indiki Dilarə Əliyeva küçəsi.

"Tatarski": Bakıda, indiki Əlimərdan bəy Topçubaşov küçəsi.






# Gənclik






**Qərbi Azərbaycan İcması**

# Gənclərdən böyük dəstək

**Bir ildən artıqdır ki, ölkəmizin ictimai-siyasi həyatında diqqətçəkən fəaliyyəti ilə gündəmdə olan Qərbi Azərbaycan İcmasının Gənclər Birliyi dədə-baba yurdlarından zorla qovulan qaçqınların beynəlxalq qanunlar çərçivəsində pozulmuş hüquqlarının bərpasına çalışır.**



Tərəqqipərvər insanlar tərəfindən rəğbətlə qarşılanan bu məsələdə Qərbi Azərbaycan ellərini görməyənlər də görənlər qədər o yerlərə getmək, hətta o səfalı diyarda yaşamaq istəyindədirlər. Çünki hər kəs, xüsusən də müasir Azərbaycan gəncləri inanırlar ki, dövlət başçısının qətiyyəti sayəsində günlərin birində soydaşlarımız əzəli yurdlarına qayıdacaqlar. Bunu həm də bizi Qərbi Azərbaycana addım-addım yaxınlaşdıran hadisələr, keçirilən tədbirlər, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına ünvanlanan bəyanatlar, müraciətlər də deməyə əsas verir.

Ötən il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində onun adını daşıyan Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbirdə icmanın Gənclər Birliyinin üzvləri xüsusi fəallıq göstərdilər. Birliyin sədr müavini, Milli Məclisin deputatı Kamal Cəfərov deyir ki, Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmağına baxmayaraq, imperiya tərəfindən ora köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq soydaşlarımızı öz doğma yurdlarından didərgin salmaq üçün özlərinin məkrli niyyətlərini həyata keçiriblər. Mərkəz (Moskva) ermənilərin maraqlarına uyğun olaraq 1948-1953-cü illərdə Qərbi Azərbaycandan (Ermənistan SSR) 150 mindən artıq azərbaycanlını, o cümlədən 1988-1994-cü illərdə çoxlu sayda soydaşlarımızı doğma ata-baba yurdlarından zorla çıxarmış və onlar qaçqın kimi Azərbaycanın bölgələrində məskunlaşmışlar. Ermənilərin Azərbaycan türklərinə qarşı müxtəlif illərdə törətdiyi zorakı hərəkətlərin, xüsusilə azərbaycanlıların öz doğma yurdlarından zorla qovulmasının əsl qiyməti Ümummilli Lider Heydər Əliyev tərəfindən verilmişdir. Azərbaycanlıların Qərbi Azərbaycandan zorla köçürülməsi dövrünü araşdırıb, tarixi həqiqətləri üzə çıxarmaq üçün Ulu Öndər "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci ildə fərman imzalamışdı. Ermənilərin zorakı hərəkətlərinə dövlət səviyyəsində qiymət verən, Azərbaycanın itirilmiş torpaqlarının sülh yolu ilə qaytarılması üçün öz səylərini əsirgəməyən Heydər Əliyev demişdi: "Xalqımız daim bilməlidr ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar nə vaxt əlimizdən gedibdir, niyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar".

Bu məqsəd üçün tədbirlər davam etdirilir. Elə ölkə ziyalılarının, millət vəkillərinin, dövlət rəsmilərinin, paytaxt sakinlərinin, habelə turistlərin də böyük maraqla qatıldığı "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbir də buna xidmət edirdi. Qərbi Azərbaycana məxsus milli geyim və mətbəx stendi, məişət əşyaları, tarixi abidələrin 3D maketləri nümayiş olunurdu. Bu tanıtma ilə Heydər Əliyev parkında sanki bir el bayramı yaşanırdı. Bir tərəfdə Qərbi Azərbaycana aid eksponatların sərgiləndiyi köşk, o biri tərəfdə həmin ellərə aid şirniyyat növlərindən ibarət süfrələr, başqa bir tərəfdə Qərbi Azərbaycanın daş yaddaşını əks etdirən maketlər təqdim olunurdu. Hər kəsin üzündə sevinc, həyəcan vardı, adama elə gəlirdi ki, tədbir sona çatan kimi insanları maşınlara yığıb öz yurdlarına aparacaqlar.

Bakı Milli Geyim Evinin gənc əməkdaşları ziyarətçilərə xatırlatdılar ki, sərgilənən bu geyimlər XVIII əsr Zəngəzur bölgəsi, Naxçıvan və İrəvan xanlığının geyim nümunələridir və xan ailəsinin ziyafət geyimlərini tərənnüm edir...

Parkın digər tərəfində qurulan köşkdə Qərbi Azərbaycanın Pəmbək mahalının Arcut kəndinə aid qədim məişət əşyaları nümayiş etdirilirdi. Burada ixtisasca tarix müəllimi olan Arcut sakini Səyyad Rəfiyevin illərlə topladığı və məşəqqətlə Azərbaycana gətirdiyi eksponatlar sərgilənirdi. Səyyad Rəfiyev bildirdi ki, 45 il tarix müəllimi işləyib, gənclik illərini Pəmbək mahalnın Arcut kəndində keçirib. "Ora Quqark deyirdilər, amma əsl adı Qarakilsədir. Bilirsiz ki, bütün toponimlər və digər adlar ermənilər tərəfindən saxtalaşdırılıb. Sizin burada gördüyünüz məişət əşyalarının hamısı Arcut sakinlərindən toplanıb. Mən özüm 1980-ci ildə Arcutda Tarix-diyarşünaslıq muzeyi yaratmışam. O vaxt bu muzey haqda erməni mətbuatı da yazıb, qəzetləri saxlayıram. Ermənistanda keçirilən Müəllimlərin V Qurultayında iştirak və çıxış etmişəm, "Sovet Ermənistanı" qəzetində dərc olunub. Muzey 1980-ci ildən kənddə fəaliyyət göstərib. Bu, çox böyük irsdir və sevinirəm ki, bunları vaxtında toplaya bilmişəm. Rəhbərlik etdiyim Tarix diyarşünaslıq muzeyində iki minə qədər eksponat var".

Bakıda ilk dəfə olaraq belə bir tədbirin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirilməsinin rəmzi mənası var. Ümummilli Lider inanırdı ki, nə vaxtsa ədalət bərpa olunacaq və qərbi azərbaycanlılar öz yurdlarına qayıda biləcəklər. Görünən odur ki, Qərbi Azərbaycanın etno-mədəni həyatı gənclərdə böyük duyğular oyadır. Onlarda əminlik yaranıb ki, nə zamansa belə bir tədbir Qərbi Azərbaycan ellərində də keçiriləcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**Uğura imza atanlar**

# "Zəfər xəbərini eşidəndə sevincdən gözlərim yaşardı"

**Getdikcə iqtisadi və siyasi gücünü artıran Azərbaycan dövlətinin qayğısı sayəsində cəmiyyətimizdə bilikli, bacarıqlı, vətənpərvər müasir gənc nəsil yetişməkdədir. Bu gənclər dövlətimizin, xalqımızın mənəvi sərvətidir.**



Belə bacarıqlı gənclərdən biri də Tağızadə Solmaz Ruhin qızıdır. O, 13 oktyabr 2000-ci ildə Bakı şəhərində anadan olub. S.Məmmədov adına 301 saylı məktəbdə oxuyub. 2017-ci ildə orta təhsilini bitirdikdən sonra Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Regionşünaslıq (İran üzrə) ixtisasına qəbul olub. 2021-ci ildə Bakı Dövlət Universitetini yüksək nəticə ilə (bakalavr) başa vurub. Elə həmin il universitetin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "Beynəlxalq münasibətlər və diplomatiya" ixtisaslaşması üzrə magistratura pilləsinə qəbul olmağın sevincini yaşayıb. 2023-cü ildə təhsilini fərqlənmə diplomu ilə başa vurub. Hazırda Prezident Administrasiyasının nəzdində Strateji Kommunikasiyalar Mərkəzində çalışan Solmaz xanım həm də müstəqil şəkildə fars dilinin tədrisi ilə məşğuldur.

Solmaz Tağızadə bacarığı və biliyi sayəsində başqa sahələrdə də uğurlar qazanıb. 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin keçirdiyi "Sabahın əsgəri" yazı müsabiqəsinin diplomuna layiq görülüb. 2020-ci ildə isə S.Tağızadə İslam Əməkdaşlıq Təşkilatının Avrasiya Regional Mərkəzi ilə Azərbaycan İdman və Gənclər Nazirliyi tərəfindən birgə təşkil olunan "Beynəlxalq Münasibətlər Akademiyası" onlayn proqramında göstərdiyi bacarığa görə sertifikatla mükafatlandırılıb. 2020-ci ildə Dövlət İdarəçilik Akademiyası tərəfindən təşkil olunan "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ" münaqişəsi adlı simulyasiya oyununda "Ən yaxşı deleqat" nominasiyasına layiq görülüb və diplomla təltif olunub. Bakalavr illərində Tələbə Gənclər Təşkilatının Şərqşünaslıq fakültəsi üzrə sədr müavini, həmçinin "Tələbə problemləri ilə iş" departamentinin sədri vəzifələrində çalışıb.

Söhbət zamanı daha çox dövlətin gənclərə qayğısından, təhsildən, vətəndaşlıq borcundan, vətənpərvərlik hissindən danışan Solmaz Tağızadə dedi ki, ölkəmizin yürütdüyü uğurlu gənclər siyasəti qarşımızda geniş imkanlar açır: "Biz də bu imkanlardan bacarıqla istifadə edərək ölkəmizin layiqli vətəndaşı olmağa çalışırıq. Arzu və istəklərimizə təhsil almaqla çatırıq. Çətin olsa da, sonunda bizi uğurlar gözlədiyini yaxşı bilirik. Təhsil gənclərdə vətəndaşlıq hissinin formalaşmasında da mühüm rol oynayır. Vətəndaşlıq hissi sözlə çətin ifadə olunan qürurlu bir hissdir. Bu, doğma yurdu, torpağı sevmək, onun uğrunda canından keçmək, yorulmadan çalışmaq deməkdir. Azərbaycan vətəndaşı olmağımla fəxr edirəm".

Gənc mütəxəssis hərbçi ailəsində dünyaya göz açıb. Atası Ruhin Tağıyev, anası Günay Tağıyeva hazırda zabit kimi ordumuzun sıralarında xidmət edirlər. Solmaz xanım hərbçi ailəsində böyüdüyündən qürur duyduğunu dedi. Bildirdi ki, hərbçi ailəsində hər şeydən əvvəl ciddi nizam-intizam hökm sürür. Bu nizam-intizam övladın məsuliyyət hissini artırır: "Vətən müharibəsi başlayanda orduya getməyə can atırdım. Ön sıralarda vuruşmasam da, arxa cəbhədəki işlərə kömək etmək istəyirdim. Bunun üçün hətta Ali Baş Komandanın elektron poçtuna məktub yazmışdım.

Şükürlər ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində erməni qəsbkarlarına qalib gəldi, 30 ilə yaxın davam edən işğala son qoyuldu. Azərbaycanın vətənpərvər bir gənci kimi ordumuzun düşmən üzərində Zəfər çaldığını eşidəndə sevincdən gözlərim yaşardı. Artıq Qarabağımız azaddır".

Solmaz xanım fars və ingilis dillərində də yazıb-oxumağı, eləcə də səlis danışmağı bacarır. Azərbaycanın böyük şairi Nizami Gəncəvinin əsərlərini fars dilində, Şekspirin əsərlərini isə ingilis dilində oxuyur.

Solmaz Tağızadə hələ gəncdir, inanırıq ki, onun uğurları davamlı olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

**Xoş məram - könüllülər**

# "Məqsəd gələcək üçün layiqli nəsil yetişdirməkdir"

**Ölkəmizin gəncləri çalışdıqları bütün sahələrdə üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir, işlərinə böyük məsuliyyət və həvəslə yanaşırlar. Buna görə də zaman keçdikcə böyük nüfuz və rəğbət qazanır, getdikcə cəmiyyətdə aparıcı qüvvəyə çevrilirlər.**

Gənclərin çalışdıqları ünvanlardan biri də "DOST" mərkəzləridir. Bu gün ölkə əhalisi bu xidmət sahəsinə daha çox müraciət edir və buradakı işlərin yüksək səviyyədə təşkilindən razılıqla danışırlar. "DOST" mərkəzlərində çalışan gənclər onlara müraciət edənlərə yüksək diqqət və qayğı ilə yanaşır, xoş münasibət göstərirlər.

DOST Agentliyində çalışan gənclərdən biri də Solmaz Həsənovadır. O, 2019-cu ildən bu qurumda işləyir. Solmaz Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və UNEC insan resurslarının idarə edilməsi ixtisaslarını fərqlənmə diplomları ilə bitirib. Hazırda DOST Agentliyində Könüllülərlə iş şöbəsinin müdiridir. Əhaliyə göstərilən qayğı və diqqətdən söz açan Solmaz Həsənova dedi ki, "DOST" mərkəzlərindəki işimizin əsas məqsədi xidmətlərin daha çevik və operativ aparılmasına könüllülərin qüvvəsindən istifadə etməklə dəstək verməkdir. Gənclərlə müxtəlif proqramlar üzrə işləyirik. Hazırda "Könüllü DOST" proqramının tələblərinə uyğun olaraq "DOST" mərkəzlərində vətəndaşlara xidmət həyata keçirilir. "Könüllü DOST" poqramının əsas mahiyyəti "DOST" mərkəzlərinə müraciət edənlərə operativ xidmət göstərilməsindən və zəruri məlumatların verilməsindən ibarətdir. "Könüllü DOST" proqramı özündə bir neçə altproqramı da əhatə edir. Bu proqramlardan ilki "Gənc DOST" altproqramıdır. Proqramda əsasən 16-29 yaşı olan gənclər iştirak edirlər. "DOST" mərkəzlərinə müraciət edən gənclər müsabiqədən keçirlər. Müsabiqədən uğurla keçən gənclər könüllülük fəaliyyətinə başlayırlar. Könüllülük fəaliyyəti həftənin beş günü olmaqla, üç saat aparılır. İşlər üçnövbəlidir.

"Könüllü DOST" proqramına cəlb olunan gənclər əsasən vətəndaşların qarşılanmasına, xidmət pəncərələrinə yönləndirilməsinə, onlara düzgün məlumat verilməsinə, ərizələrin yazılmasına, növbələrin idarə olunmasına, vətəndaşlardan rəy sorğularının alınmasına cəlb olunurlar. Bəzən yaşlı adamlar xidmət mərkəzlərində quraşdırılmış bir çox funksiyanı yerinə yetirən müvafiq aparatları işlətməkdə çətinlik çəkirlər. Mərkəzdə çalışan könüllü gənclər belə işlərdə həmin vətəndaşlara yaxından kömək göstərir, onların qayğılarına qalırlar.

Müsbət nəticə verən altproqramlardan biri də "Gümüşü DOST" altproqramıdır. Onu



da deyim ki, bu altproqram ilk dəfə bizim mərkəzlərdə həyata keçirilmişdir. Adından da göründüyü kimi, altproqram yaşlı insanları, təqaüdçüləri könüllülüyə cəlb edir. Altproqrama uyğun olaraq bu gün "DOST" mərkəzlərində gənclərlə bərabər təqaüdçü könüllülər də fəaliyyət göstərir. Bu altproqramın əsas məqsədi yaşlı insanların yenidən cəmiyyətə reinteqrasiyasını təmin etmək, təcrübə mübadiləsi aparmaq və onların biliklərindən faydalanmaqdır. Obrazlı desək, bu altproqram gənclərlə yaşlı nəsil arasında körpü rolunu oynayır.

"Distant DOST" altproqramı da çox maraqlıdır. Bu altproqrama əsasən, yaşından asılı olmayaraq hər kəs mərkəzlərə gəlmədən də fəaliyyət göstərə bilər. Könüllü olmaq istəyənlər mikrolayihələrə qoşulur və seçildikləri təqdirdə birbaşa evlərindəki kompüterlərindən, telefonlarından istifadə etməklə müxtəlif istiqamətlərdə fəaliyyət həyata keçirirlər. Onlar daha çox forumların idarə olunmasında, onlayn təlimlərdə, dizayn xidmətlərinin və sair tədbirlərin təşkilində fəallıq göstərirlər.

Gənclərin böyük həvəslə qoşulduqları digər bir proqram isə "İnklüziv DOST" altproqramıdır. Məlumat üçün bildirək ki, bizim DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə altproqramın tələblərindən irəli gələn vəzifələr uğurla həyata keçirilir. Bütün bunlar gənclərin böyük marağına səbəb olur.

"Korporativ DOST" altproqramı isə korporativ sosial məsuliyyət istiqamətində dövlət və özəl qurumlarla əməkdaşlığın yaradılmasını hədəfləyir. Bu istiqamətdə könüllü gənclərin iştirakı ilə müxtəlif həssas sosial qrupların cəmiyyətə inteqrasiyasına dair müvafiq layihələr və tədbirlər həyata keçirilir.

"Gənc DOST" altproqramı ətrafında 4 minə yaxın gənci birləşdirir. Müraciət edənlərin sayı artıq yüz mini keçib. Könüllü gənclər mütəmadi olaraq müsabiqələrə cəlb edilirlər.

Uğurla həyata keçirilən bütün proqramların əsas məqsədi gənclərin fərdi inkişafına dəstək göstərmək, onların asudə vaxtlarının səmərəli və düzgün təşkilini təmin etmək, həmçinin cəmiyyət üçün faydalı vətəndaşlar hazırlamaqdır.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Şahdağda "Mənim atam qəhrəmandır, mənim oğlum qəhrəmandır" layihəsi çərçivəsində tədbir keçirilib

**Bakı və Abşeron rayonundan olan Vətən müharibəsi şəhidlərinin ailə üzvləri üçün Dövlət Turizm Agentliyinin tabeliyindəki "Şahdağ" Turizm Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilib.**



Tədbirin keçirilməsində məqsəd 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canlarından keçmiş qəhrəmanların bizlərə əmanəti olan övladlarını diqqət və qayğıdan kənarda saxlamamaq, onları sevgi ilə əhatə etmək, xoş və yaddaqalan günlər bəxş etməkdir.

"Mənim atam qəhrəmandır, mənim oğlum qəhrəmandır" layihəsi çərçivəsində təşkil olunan sosialyönümlü tədbirə 200-ə yaxın Vətən müharibəsi şəhidinin ailə üzvləri qatılıb.

Üç gün davam edən tədbir çərçivəsində şəhid ailələri üçün kompleksin ərazisinə ekskursiya təşkil olunub. Onlara müxtəlif attraksionlardan, kanat xətlərindən istifadə imkanı yaradılıb, həmçinin təlimçilər tərəfindən xizəksürmə vərdişləri və texnikası öyrədilib. Tanınmış müğənnilərin iştirakı ilə musiqili-əyləncəli proqramlar təqdim olunub.

Tədbir çərçivəsində Vətən müharibəsi şəhidlərinin uşaqları üçün interaktiv oyunlar, taxta fiqurların rənglənməsi və kulinariya üzrə master-klaslar da təşkil olunub.

Qeyd edək ki, bu, sayca 4-cü dəfə təşkil olunan sosialyönümlü tədbirdir. Davamlı olaraq 2024-cü ildə "Şahdağ" Turizm Mərkəzi tərəfindən bu formatlı daha iki tədbirin keçirilməsi nəzərdə tutulub.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Gənc alimlər Sankt-Peterburq Dövlət Universitetinin Elm parkı ilə tanış olublar

**Elm və Təhsil Nazirliyi Botanika İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Aydan Hüsüyeva və Elmi avadanlıqlardan ümumi istifadə sektorunun müdiri Emin Hüsüyev Sankt-Peterburq Dövlət Universitetində (SPDU) ezamiyyətdə olublar.**

Botanika İnstitutundan bildirilib ki, ezamiyyətin məqsədi gələcəkdə Botanika İnstitutunda yaradılacaq laboratoriyaların imkanlarının müəyyənləşdirilməsi olub.

Əvvəlcə əməkdaşlar Sankt-Peterburq Dövlət Universitetinin Elm parkının nəzdində fəaliyyət göstərən 25 resurs mərkəzi haqqında ətraflı məlumat əldə ediblər. Onlara bildirilib ki, bu mərkəzlər universitetin İnkişaf Proqramının əsas istiqamətləri üzrə "Nanotexnologiyalar və materialşünaslıq", "Biotibb və insan sağlamlığı", "Ekologiya və ətraf mühitin idarə edilməsi", "İnformasiya sistemləri və texnologiyaları" qruplarında birləşdirilib.

"Nanotexnologiyalar və materialşünaslıq" qrupu üzrə fəaliyyət göstərən Maddənin tərkibinin təhlili üsulları resurs mərkəzinin direktoru Yevgeniy Serebryakov bildirib ki, mərkəz analitik kimya sahəsində elmi-tədqiqat işlərinin aparılması məqsədilə yaradılıb və burada müxtəlif tədqiqat metodlarından istifadə etməklə fərqli mürəkkəblikdə olan maddələrin təhlilini aparmaq mümkündür. Direktor həmçinin mərkəzin əsas iş istiqamətləri barədə gənc əməkdaşlarla nəzəri və praktiki biliklərini bölüşüb.



Görüşün sonunda birgə əməkdaşlıq perspektivləri müzakirə edilib. Gələcəkdə bu əməkdaşlığın inkişafı ilə bağlı müəyyən ilkin razılıq əldə olunub.

Botanika İnstitutunda keçirilən seminarda gənclərin "Botanika İnstitutunun texniki bazasının gücləndirilməsi məqsədilə SPDU Elmi park modelinin öyrənilməsi" mövzusunda ezamiyyətin nəticələrinə dair məruzələri dinlənilib.

# "Azərişıq" ASC Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir

"Azərişıq" ASC işğaldan azad edilən bütün ərazilərdə, o cümlədən Kəlbəcər rayonunda güclü yağan qar və şaxtaya baxmayaraq, dəniz səviyyəsindən 3000 metrdən çox yüksəklikdə yenidənqurma işlərini və fasiləsiz xidməti davam etdirir.



Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, ASC-nin əməkdaşları yağan qarın hündürlüyünün insan boyunu ötən ərazilərdə belə, elektrik şəbəkəsinin transformatorlarını qardan təmizləyir, yeni quraşdırılan güc transformatorlarının işə salınması üçün tədbirlər görürlər.

Kəlbəcər rayonunun Zar-Zəylik kəndi ərazisində yerləşən 160 KVA-lıq transformatora gərginlik verilib, uçot komplekt qurulub və 0.4 kV-luq kabel çəkilib. Həmçinin Qarabağ RETSİ (Regional Enerji Təchizatı və Satışı idarəsi) Kəlbəcər elektrik şəbəkəsinin xidməti ərazisində yerləşən İstisu istiqamətində yeni çəkilmiş 35 kV-luq ÖİN (Özünüdaşıyan izolyasiyalı naqil) kabel xəttinə gərginlik verilib. Quraşdırılmış 160 KVA-lıq transformator montaj olunub və 0.4 kV-luq kabel xətti çəkilərək uçot komplekti quraşdırılıb.

"Azərişıq" ASC elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı işləri ölkənin bütün regionlarında paralel olaraq davam etdirir. Yaranan problemləri mümkün qədər tez vaxtda aradan qaldırmağa çalışır.


# OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Füzuliyə geri dönən ailələrin sayı 500-ə çatdı





Dünən Füzuli şəhəri daha 104 sakininə qovuşub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti qayıdış köçü yanvarın 26-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 500 ailənin, 1854 nəfərin daimi məskunlaşması təmin edilib.

İndiyə qədər 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 500 ailə (1854 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1306 ailə - 5153 nəfər doğma yurduna qovuşub.

## "Çox sevinirik ki, biz də Füzuliyə qayıtdıq"

Bu günü - doğma yurda qayıdışı üç onillik gözləyən füzulililər təəssüratlarını bölüşüblər. Doğma elinə qovuşduğu üçün sevinci çöhrəsindən oxunan keçmiş məcburi köçkün Nərminə Quliyeva Füzuliyə böyük həvəslə qayıtdıqlarını söyləyib. Məcburi köçkün düşəndə 30 yaşlarında olduğunu bildirən N.Quliyeva yurdunda xoş günlər keçirdiklərini bildirib. O, Füzulidə bundan sonra şad günlər görəcəyinə inandığını və övladına orada toy edəcəyini vurğulayıb.

Zəfər Gününü bizə yaşadan Azərbaycan Ordusuna təşəkkür edən Füzuli sakini Fazil Ağayev deyib ki, qəhrəman hərbçilərimizin sayəsində doğulub boya-başa çatdığı yerlərə qayıdıb. Müharibə veteranı olduğunu deyən F.Ağayev şəhid olan döyüş yoldaşlarını xatırlayıb, Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun şəhidlərimizin qisasını aldığını vurğulayıb.

Keçmiş məcburi köçkün Nüşabə Ağayeva söyləyib ki, tamamilə dağıdılmış şəhərlərin, kəndlərin bərpası sürətlə davam edir və bu, böyük sevinc doğurur: "Artıq iki ildir ki, insanlar öz yurdlarına qayıdırlar. Bu günləri görmək bizə də nəsib oldu. Çox sevinirik ki, biz də Füzuliyə qayıtdıq".

## Bu il cəbrayıllılar da yurdlarına qovuşacaqlar

Böyük Qayıdışa dair proqram çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönürlər. Bu ildən cəbrayıllıların da doğma yurdlarına köçürülməsi işlərinə başlanılacaq. 2024-cü ildə Cəbrayıl şəhərinə 2158 keçmiş məcburi köçkünün qayıtması nəzərdə tutulub. Hazırda şəhər mərkəzində 33 yaşayış binası inşa olunur. 4-5 mərtəbədən ibarət bu binalarda 712 mənzil olacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrin miqyası olduqca böyükdür. Yaşayış yerlərinin inşası ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri, sosial-iqtisadi infrastrukturlar yaradılır. Bu da dövlətimizin iqtisadi gücündən xəbər verir.

Ötən dövrdə həyata keçirilən genişmiqyaslı layihələr onu deməyə əsas verir ki, vətəndaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlinir. Bu ondan xəbər verir ki, tezliklə bütün məcburi köçkünlər əzəli torpaqlarına qovuşacaqlar.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Paşinyan-kilsə qarşıdurması böyüyür

## Hayastanda katolikos II Qareginə qarşı yeni hərəkat yaradılıb

**Ermənistanda ictimai-siyasi vəziyyətin daha böyük sürətlə gərginləşməsi müşahidə olunur. Belə ki, son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda sosial narazılıqlardan istifadə edən keçmiş hərbi xuntanın yenidən revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir. Sarkisyan-Koçaryan tandemi kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu daha da dərinləşdirməyə cəhd göstərir. Yəni görünən odur ki, Hayastanda kilsə və hakimiyyətin qarşıdurması açıq müstəviyə keçir.**



Artıq ölkədə yeni etiraz aksiyasının keçirilməsi planlaşdırılır. Bu dəfə hədəfdə ümumerməni katolikosu II Qaregindir. "4rd.am" nəşrinin yazdığına görə, Nikol Paşinyanın tərəfdarları fevralın 24-də katolikos II Qareginin istefası tələbi ilə mitinq keçirməyi planlaşdırırlar. Bildirilib ki, aksiya bu yaxınlarda Hayastana köçmüş ABŞ vətəndaşı Andranik Dovlatyanın təşəbbüsü ilə keçiriləcək. Bu məqsədlə "Vardanank" ("Şükranlıq") adlı yeni hərəkat yaradılıb. O, Hayastan hökumətinin fəal tərəfdarından sayılır. Mətbuatda baş nazir Nikol Paşinyan və hakim "Mülki müqavilə" partiyasının müdafiəsi ilə bağlı yazılar dərc edir. Andranik Dovlatyan Hayastan vətəndaşlarını II Qareginə qarşı aksiyaya qoşulmağa çağırıb.

Bildirilib ki, baş nazir Nikol Paşinyan Hayastanda iki istiqamətdə islahatlar planlaşdırır. Bunlar yeni konstitusiyanın hazırlanması, Eçmiadzin kilsəsində kadr dəyişikliyi, yaxud II Qareginin istefasına nail olmaqdan ibarətdir.

Qeyd edək ki, 6 il öncə hakimiyyətə gələn Paşinyan II Qareginə qarşı çıxmışdı. Lakin sonradan o, münasibətləri yaxşılaşdırmağa məcbur olub. Çünki başqa çıxış yolu yox idi. Paşinyan II Qaregin və onun rəhbərlik etdiyi Eçmiədzin kilsəsi ətrafında yaranan problemli vəziyyəti həll etmək üçün Kilikiya böyük kilsəsinin katolikosu I Arama bütün ermənilərin katolikosu olmağı təklif etmişdi. Lakin I Aram bu təklifdən imtina edərək Paşinyana bildirmişdir ki, kilsə ilə münasibətlər bu üsulla tənzimlənmir. I Aram təklifi qəti rədd etdikdən sonra Paşinyan II Qareginlə münasibətlərini yaxşılaşdırmağa məcbur olmuşdur.

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən bütün səyləri nəticəsiz qalıb.

Paşinyan hökuməti kilsə başçısına qarşı mübarizəsini Qareginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlayıb. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianənin mənimsənilməsi, Qareginin hökumətə qarşı çıxışları ilə davam edib.

Hayastanda kilsə ilə hökumət münasibətləri 44 günlük müharibədən sonra daha da kəskinləşib. Onda Qaregin Nikol Paşinyanın istefasını tələb etmişdi. O, kilsə ilə hökumət arasında əməkdaşlığın yetərli olmadığını da vurğulamışdı.

Bir neçə il bundan öncə Eçmiədzin rayonunda bir qrup vətəndaş istefa tələbi ilə katolikos II Qareginin ofisinə hücum etmişdi. "Yeni Ermənistan, yeni patriarx" devizi ilə başlayan aksiyanın iştirakçıları II Qareginin kilsəyə layiq olmadığını demişdilər. Aksiya iştirakçılarının iddialarına görə, o, agentdir və xalqın xeyrini zərrə qədər də düşünmür. Ali patriarx "məxməri" inqilaba qədər ölkəni idarə edən cinayətkar rejimə satılmaqda ittiham olunmuşdu.

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövrdə daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Qızıl kimi qan

Tibbi təsnifata görə, insanlarda dörd qan qrupu mövcuddur. Tərkibindəki zülallara əsasən, onlar O (I qrup), A (II qrup), B (III qrup) və AB (IV qrup) olaraq adlandırılır. Lakin bu qan qruplarından əlavə, ötən əsrin ortalarında yeni və nadir rast gəlinən bir qan qrupunun varlığı da aşkarlanıb. Bu, "Rh-null" və ya "Qızıl qan" kimi bilinən qan qrupudur.



İnsandan insana qan köçürülməsinə XIX əsrdən etibarən başlanılıb. O zaman qan qrupları müəyyən edilmədiyi üçün proses lazımi nəticə verməmişdi. XX əsrdə amerikalı Karl Landşteyner I, II, III qan qruplarını, çex alimi Yan Yanski isə IV qan qrupunu aşkar edib.

Ömürboyu dəyişməz olaraq qalan qan qrupları valideyndən irsən keçir. Statistikaya əsasən, onlar arasında ən geniş yayılanı I qan qrupudur. Bu qan qrupuna dünya əhalisinin 33,5 faizində rast gəlinir. Dünya əhalisinin cəmi 5 faizində görülən IV qan qrupu isə ən az yayılmış hesab edilir.

Qan qrupları ilə birlikdə qanın rezus (Rh, Rhesus) amilini də bilmək lazımdır. İnsanların 85 faizində rezus-amil müsbət, 15 faizində isə mənfidir. İnsanlara qan qrupuna uyğun qan köçürülmədikdə bu, ciddi fəsadlarla nəticələnə bilər. Ona görə də hər bir insanın öz qan qrupunu bilməsi çox vacibdir. Lazım gəldikdə qan verib kiminsə həyatını xilas etmək mümkündür. Donorlar qan verdikdə onların orqanizmi nəinki ziyan görmür, hətta bədəndə qan hüceyrələrinin yaranması və yenilənməsi sürətlənir.

Ən qədim qan qrupu olan A tipi insan irqinin inkişafından bəri mövcuddur. B tipi isə qan hüceyrələrinin strukturunda təxminən 3,5 milyon il əvvəl baş verən dəyişikliklərin nəticəsidir. 2,5 milyon il əvvəl başqa bir mutasiya O qan qrupunun meydana gəlməsinə səbəb olub.

"Qızıl qan"ın isə dünyada neçə nəfərdə olduğu dəqiq məlum deyil. Bu qan qrupu son 60 il ərzində yalnız 43 nəfərdə müəyyən edilib. Belə insanların sayının daha çox olduğu güman edilir, sadəcə olaraq bu günə kimi onlar müəyyənləşdirilərək qeydə alınmayıb.

Bu qan qrupu ilk dəfə 1961-ci ildə avstraliyalı bir aborigen qadında aşkarlanıb. Daha öncə belə bir qan qrupunun mövcudluğuna inanmayan alimlər bu qan sahiblərini fəal şəkildə axtarmağa başlayıblar.

Dünyada hər 6 milyon insanın yalnız birində "qızıl qan" olduğu ehtimal edilir.

Bəs "qızıl qan" nə deməkdir? Mütəxəssislər bildirirlər ki, "Rh-null"un Rh sistemində 61 mümkün antigenin hamısı olmadığı üçün o, sıfır qandır. Maraqlısı odur ki, bu qan qrupu irsi genlər vasitəsilə ötürülür. Lakin buna, həmin qana sahib insanların valideynlərində rast gəlinmir. Bu qan qrupuna sahib insanların ata-anasında adi qan tipi müəyyən edilib. Alimlər həmin insanların bu qan genini bəlkə də əsrlər öncə yaşamış əcdadlarından aldığını güman edirlər.

Nadir qana sahib insanların işi isə heç də asan deyil. Qanköçürmə və ya başqa ciddi əməliyyat zamanı onlar üçün uyğun qanı əldə etmək olduqca çətindir. Bu qan qrupu donor qanı kimi də tanınır. Dünyada cəmi 10 "qızıl qan" donoru var. Bu da onu dünyanın ən qiymətli qan qrupu edir, elə ona görə də "qızıl qan" adlandırlır. "Rh-null" hər kəsə köçürülə bildiyi üçün universal hesab edilir. Belə ki, bu qana sahib insanlar istənilən qan qrupuna qan verə bilir, lakin digər qan qruplarından qan ala bilmirlər.

Tibdə ən qədim və ən təmiz hesab olunan bu nadir qan qrupu xüsusi əhəmiyyət kəsb edir. Alimlər "Rh-null"un bəzi xəstəlikləri sağaltmaq qabiliyyətinə malik olduğunu sübut ediblər. Buna görə də "qızıl qan"a sahib insanların onu artırmaq üçün tez-tez qan verməsi tövsiyə olunur. Mütəxəssislər hazırda digər qan qruplarından biri üzərində işləyib, onu antigenlərdən təmizləyib "qızıl qan"a bənzətməyə çalışırlar.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


***2023-cü ilin dekabr ayında Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən II Qarabağ müharibəsi iştirakçısı (qazi) Vaqif Vilayət oğlu Cəbrayılovun adına verilmiş "Müharibə Veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Problemli Kreditlərlə iş Departamentinin Yığım şöbəsinin baş mütəxəssisi Arif Əhmədova bacısı

**KƏKLİK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3789**
Sifariş **146**

Qiyməti 60 qəpik